# KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

## ELMİ-NƏZƏRİ VƏ PRAKTİKİ JURNAL

*"Kitabxanaşünaslıq və informasiya" jurnalı 08.10.2010-cu il tarixində Beynəlxalq İSSN Mərkəzi (Paris, Fransa) tərəfindən 2219-5882 nömrəsi ilə ardı davam edən nəşrlərin beynəlxalq reyestrinə daxil edilmişdir.*

# № 3 (24)

**Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin professor-müəllim və tələbə kollektivi, həmçinin respublikamızın çoxminli kitabxana ictimaiyyəti və "Kitabxanaşünaslıq və informasiya" jurnalı hörmətli Prezidentimiz İlham Əliyevin Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyinə böyük hörmət əlaməti olaraq 2018-ci ili Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cumhuriyyəti ili" elan etməsini böyük məmnuniyyətlə qarşılayır, cənab Prezidentə öz səmimi təşəkkürünü və minnətdarlığını bildirir**

**Bakı – 2017**

**Təsisçi və baş redaktor:** **Abuzər XƏLƏFOV**
*Əməkdar elm xadimi, BDU-nun fəxri professoru, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor*

**Baş redaktor müavini:** **Knyaz ASLAN**
*Fəlsəfə doktoru (pedaqogika üzrə), dosent*

**Məsul katib:** **Pərviz KAZIMİ**
*Fəlsəfə doktoru (tarix üzrə), dosent*

**Redaksiya heyəti:**
**Zülfi Toman**, *Türkiyə Milli Kitabxanasının direktoru*
**Roman Motulskiy**, *Belarus Milli Kitabxanasının direktoru*
**Azad Qurbanov**, *fəlsəfə doktoru (fizika-riyaziyyat elmləri üzrə), dosent, Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı*
**Aybəniz Əliyeva-Kəngərli**, *filologiya elmləri doktoru*
**Xəlil İsmayılov**, *tarix elmləri doktoru, professor*
**Bayram Allahverdiyev**, *tarix elmləri doktoru, professor*
**Umutkan Munalbaeva**, *Qazaxıstan Milli Akademik Kitabxanasının direktoru*
**Kərim Tahirov**, *fəlsəfə doktoru (tarix üzrə), Azərbaycan Milli Kitabxanasının direktoru*
**Mayıl Əhmədov**, *Prezident Kitabxanasının direktoru*
**Lətifə Məmmədova**, *fəlsəfə doktoru (tarix üzrə), Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sektor müdiri*
**İrina Juravlyova**, *V.N.Karazin adına Xarkov Milli Universiteti Mərkəzi Elmi Kitabxanasının direktoru*
**Vladimir Klyuyev**, *pedaqoji elmlər namizədi, professor*
**Elçin Əhmədov**, *fəlsəfə doktoru (pedaqogika üzrə), dosent*
**Nadir İsmayılov**, *fəlsəfə doktoru (pedaqogika üzrə), dosent*

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə № 3135, 16.03.2010.

---

Redaksiyanın ünvanı: Az 1014, Bakı, Rəsul Rza küç., 125
Bakı Dövlət Universiteti, 2 saylı tədris korpusu, mərtəbə 4, otaq № 410
Əlaqə telefonu: 439-03-66; (050) 365-48-41
№3 (24), Oktyabr-Dekabr, 2017

© *"Kitabxanaşünaslıq və informasiya", 2017, № 3 (24).*

# LIBRARY SCIENCE AND INFORMATION

## SCIENTIFICO-THEORETICAL AND PRACTICAL JOURNAL

*The journal of «Library science and information» dates in 08.10.2010 was included to the international schedule by ISNN Centre (Paris, France) numbered 2219-5882 with the regulation of publications to be continued.*

# № 3 (24)

**Teaching staff and the students of the Faculty of Library Studies and Information, as well as multi-thousand library community of the Republic and "Book Studies and Information" journal highly welcomes the declaration of 2018 "Year of Azerbaijan Democratic Republic" by honorable President Ilham Aliyev as a respect to the 100 year anniversary of Azerbaijan Democratic Republic and express their sincere gratitude to Mr. President.**

**Baku - 2017**

**Founder and Editor-in-chief:** **Abuzar KHALAFOV**
*Honoured Science worker, honored professor of BSU, Academician of International Information Academy by UNO, Doctor of History professor*

**Assistant editor-in-chief:** **Knyaz ASLAN**
*Doctor of Philosophy (of Pedagogy), associate professor*

**Executive Secretary:** **Parviz KAZIMI**
*Doctor of Philosophy (of History)*

**Editorial board:**
**Zulfi Toman,** *Director of the National Library of Turkey*
**Roman Motulskiy,** *Director of the National Library of Belarus*
**Azad Qurbanov,** *Doctor of Philosophy (on Physico-mathematical)*
**Aybaniz Aliyeva-Kangarli,** *Doctor of Philology*
**Khalil Ismayılov,** *Doctor of History, professor*
**Bayram Allahverdiyev,** *Doctor of History, professor.*
**Umutkan Munalbaeva,** *The director of the National Academic Library of Kazakhstan*
**Karim Tahirov,** *Doctor of Philosophy (on History), Chief of the National library of Azerbaijan*
**Mayıl Ahmadov,** *Chief of the Presidential Library*
**Latifa Mammadova,** *Doctor of Philosophy (on History), Chief of the division at Ministry of Culture of the Azerbaijan Republic*
**Irina Juravleva.** *Director of Central Scientific Library of Kharkiv National University V.N.Karazin*
**Vladimir Klyuev**. *Ph.D., professor*
**Elchin Ahmedov,** *Doctor of Philosophy (on Pedagogy), docent*
**Nadir Ismayilov,** *Doctor of Philosophy (on Pedagogy)*

Journals have been registered in the Justice Ministry of the Azerbaijan Republic.
Certificate 3135, 16.03.2010.

Address of the editorial office: Baku city, Az 1014, Rasul Rza str., 125
Baku State University, the 2nd teaching building, floor 4, Room 410
telephone: 439-03-66; (050) 365-48-41
№3 (24), October-December, 2017

*© "Library science and Information", 2017, №3 (24).*

# БИБЛИОТЕКОВЕДЕНИЕ
# И
# ИНФОРМАЦИЯ

## НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ И ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ

*Журнал «Библиотековедение и информация» включен Международным Центром ISSN (Париж, Франция) в продолжающиеся издание международного реестра под номером 2219-5882 с 08.10.2010*

# № 3 (24)

**Профессорско-преподавательский и студенческий коллектив факультета «Библиотековедения и информации» Бакинского Государственного Университета, а также многотысячное библиотечное сообщество нашей республики и журнал «Библиотековедение и информация» принимает с большим удовольствием объявление многоуважаемым Президентом Ильхамом Алиевым 2018-го года в знак уважения столетия Азербайджанской Демократической Республики “годом Азербайджанской Демократической Республики”, выражает господину президенту искренняю благодарность.**

**Баку – 2017**

**Учредитель и главный редактор:** **Абузар ХАЛАФОВ**
***Заслуженный деятель науки, почётный профессор БГУ, Академик Международной Информационной Академии при ООН, доктор исторических наук, профессор***

**Зам. главного редактора:** **Князь АСЛАН**
***Доктор философии (по педагогическим наукам), доцент***

**Ответственный секретарь:** **Парвиз КАЗЫМИ**
***Доктор философии (по историческим наукам), доцент***

**Редакционная коллегия:**

**Зулфи Томан,** *Директор Национальной библиотеки* Турецкой Республики
**Роман Мотульский,** *Директор Национальной библиотеки* Беларусии
**Азад Гурбанов*, доктор философии (по физико-математическим наукам) декан Библиотечно-информационного факультета БГУ***
**Айбениз Алиева-Кенгерли*, доктор филологических наук***
**Халил Исмаилов*, доктор исторических наук, профессор***
**Байрам Аллахвердиев, *доктор исторических наук, профессор,***
**Умуткан Муналбаева,** *Директор Национальной библиотеки* Казахстана
**Керим Тахиров*, доктор философии (по историческим наукам) Директор Национальной библиотеки Азербайджана***
**Маил Ахмедов, *Директор Президентской Библиотеки***
**Лятифа Мамедова*, доктор философии (по историческим наукам)***
**Ирина Журавлева, *директор Центральной научной библиотеки Харьковского национального университета имени В.Н.Каразина***
**Владимир Клюев, *кандидат педагогических наук, профессор***
**Ельчин Ахмедов, *доктор философии (по педагогическим наукам), доцент***
**Надир Исмаилов*, доктор философии (по педагогическим наукам)***

Журнал регистрирован в Министерстве Юстиции Азербайджанской Республики.
Свидетельство № 3135, 16.03.2010.

---

Адрес редакции: г. Баку, Аз 1014, ул. Расул Рзы, 125
Бакинский Государственный Университет, учебный корпус №2, 4-ый этаж, комната № 410
Телефоны связи: 439-03-66; (050) 365-48-41
№ 3 (24), Октябрь-Декабрь, 2017

*© "Библиотековедение и информация", 2017, №3 (24)*

## MƏLUMAT

ÇOX HÖRMƏTLİ, DÜNYA ŞÖHRƏTLİ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏRƏNCAMI İLƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFLİ YÜZ İLLİK YUBİLEYİNİN TƏNTƏNƏLİ ŞƏKİLDƏ QEYD EDİLMƏSİ MÜNASİBƏTİ İLƏ 2018-Cİ İL AZƏRBAYCAN RESPUBLİKASINDA "AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İLİ" ELAN EDİLMİŞDİR. BU SƏRƏNCAM BÜTÜN DÖVLƏTÇİLİK GÖSTƏRİCİLƏRİNƏ VƏ PRİNSİPLƏRİNƏ GÖRƏ ŞƏRQDƏ İLK DEMOKRATİK RESPUBLİKA OLAN AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNƏ ÜMUMXALQ, ÜMUMDÖVLƏT MƏHƏBBƏTİNİN TƏZAHÜRÜDÜR

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ



**Azərbaycan Respublikasının Dövlət Bayrağı**



**Azərbaycan Respublikasının Dövlət Gerbi**

**Azərbaycan Respublikasının Dövlət Himni**

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!

Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət,
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi qarşısında**

Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır.

**Heydər Əliyev**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ KİTABXANA İŞİ (1918-1920-ci illər)

**XƏLƏFOV A.A.**

***Əməkdar elm xadimi, BDU-nun fəxri professoru, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü***

*Məqalə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik şərəfli yubileyinə həsr edilmişdir. Olduqca çətin şəraitdə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti qısa bir ömür yaşamasına baxmayaraq, Azərbaycan xalqının taleyində mühüm tarixi mərhələ təşkil edir. Bu dövrdə iqtisadiyyat, siyasət, mədəniyyət, xalq maarifi sayəsində böyük və təxirəsalınmaz işlər görülmüşdür. Azərbaycan bütün dövlət atributları olan, müstəqil, suveren dövlət kimi formalaşmağa, bir çox xarici dövlətlərlə qarşılıqlı əlaqələr yaratmağa, beynəlxalq hüququn subyektinə çevrilməyə nail olmuşdur.*

***Açar sözlər:*** *Xalq Cümhuriyyəti, xalq kitabxanaları, kitabxana quruculuğu.*

Dünyanın ən qədim xalqlarından biri olan Azərbaycan xalqı özünün mədəniyyəti, mərdliyi, mübarizliyi, igidliyi, qüdrəti, istedadı, öz vətəninə, soykökünə, milli mentalitetinə sədaqəti ilə fərqlənmiş, dünyanın sivil xalqları sırasında şərəfli, ləyaqətli bir yer tutmağa müvəffəq olmuşdur.

Azərbaycan xalqı tarix səhnəsində uzun və zəngin, keşməkeşli bir yol keçmiş, özünəməxsus zəngin mədəniyyət yaratmış, xalqımızın milli dəyərlərini qoruyub saxlamış, gələcək nəsillərə ötürməklə beynəlxalq aləmdə tanınan bir xalq imicini qazanmışdır.

Müstəqil, suveren, demokratik dövlət qurmaq arzusu, istəyi ilə yaşayan Azərbaycan xalqının həyatında, tarixi müqəddəratında XX əsr xüsusi bir

taleyüklü mərhələ təşkil edir. Məhz bu əsrdə tarix Azərbaycan xalqına illərdən bəri arzusunda olduğu müstəqilliyə qovuşmaq, milli, müstəqil, suveren dövlət qurmaq imkanı verdi. 1918-ci ilin may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Xalqımız uzun illərdən bəri arzusunda olduğu öz dövlət müstəqilliyinə qovuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti bütün müsəlman dünyasında dünyəvi təməl üzərində bərqərar olan müstəqil, suveren, demokratik bir dövlət idi. Təəssüf hissi ilə qeyd etmək olar ki, Azərbaycan xalqının gələcək taleyində çox böyük siyasi əhəmiyyət kəsb edən, xalqın siyasi, mənəvi birliyinin, dövlətçilik ənənələrinin formalaşmasında böyük rol oynayan Azərbaycan Xalq Cümhuriyyəti cəmi iyirmi üç ay fəaliyyət göstərdikdən sonra yeni yaranan Sovet imperiyası tərəfindən beşiyindəcə boğuldu. Müstəqil, suveren, demokratik Azərbaycan dövləti süqut etməyə məcbur oldu.

Cəmi 23 ay fəaliyyət göstərsə də, öz geniş milli proqramlarını yerinə yetirə bilməsə də, xalqımızın tarixində dərin iz qoyan Xalq Cümhuriyyətinin şüurlarda bərqərar etdiyi müstəqillik, suverenlik, milli mənlik ideyaları unudulmazdır.

Məhz buna görədir ki, xalqımızın taleyüklü tarixində Xalq Cümhuriyyətinin fəaliyyətini mühüm mərhələ hesab edən ulu öndər Heydər Əliyev yazır: "Həmin dövrdə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi tədbirlər sayəsində bütün dövlətçilik atributları - öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan müstəqil dövlətə çevrildi. O, bütün dövlətçilik prinsiplərinə və göstəricilərinə görə Şərqdə ən demokratik respublika idi".[1]

Azərbaycan Xalq Cümhuriyyəti qısa bir ömür yaşasa da, zəngin dövlətçilik ənənələri formalaşdırıb onu yadigar qoydu. Dünya dövlətlərinin əksəriyyəti tərəfindən tanınmaqla böyük beynəlxalq nüfuz qazandı.

Azərbaycan Xalq Cümhuriyyəti o dövrün çətinliklərinə, rus sovet imperiyasının ölkəni yenidən işğal etmək uğrunda ciddi cəhdlərinə, erməni faşistlərinin Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün xain planlarına baxmayaraq, böyük çətinliklə olsa da, həm ön cəbhədə, həm də arxa cəbhədə mühüm müvəffəqiyyətlər əldə etdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal Bəyannaməsi qəbul edildi. Azərbaycanın ilk parlamenti, hökumət aparatı, ölkənin gerbi, bayrağı və himni yaradıldı. Azərbaycan dili dövlət dili elan edildi. Ölkənin ərazi bütövlüyünü və milli təhlükəsizliyini təmin etmək, erməni faşistlərinə cavab vermək üçün olduqca müasir ordu yaratdı. Ölkədə

[1] Azərbaycan XX əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. B., 2001, səh. 26-27.

iqtisadiyyatın, elm və mədəniyyətin, xalq maarifinin inkişafı üçün təxirəsalınmaz işlər görüldü. Təhsil milliləşdirildi. Xalqımızın milli sərvəti olan keçmiş ənənələrə, soykökümüzə qayıtmaq məsələlərinə, milli ideologiyanın formalaşmasına ciddi diqqət yetirildi.

Məhz buna görədir ki, Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın istiqlal, müstəqillik, suverenlik uğrunda mübarizəsini yüksək qiymətləndirən möhtərəm prezidentimiz İlham Əliyev AXC-nin 100 illik yubileyinin təntənə ilə qeyd ediməsi haqqında çox dəyərli bir sərəncam imzalamışdır. Sərəncamda AXC-nin fəaliyyəti, onun Azərbaycanın müstəqil dövlətçilik, suverenlik uğrunda mübarizəsi, qəbul etdiyi İstiqlal Bəyannaməsinin böyük demokratik, dünyəvi əhəmiyyəti qeyd edilmişdir.

Sərəncamda göstərilir: "Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsipinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi aradan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmlənməsinə, siyasi, iqtisadi inkişaf, mədəniyyət, maarif sahəsində sürətli irəliləyişə imkan verdi".[2]

Sərəncamda göstərildiyi kimi, Xalq Cümhuriyyəti, iqtisadi, siyasi sahədə mühüm tədbirlərlə yanaşı, xalq maarifinin, mədəniyyətin, elmin inkişafı sahəsində böyük tarixi əhəmiyyətə malik işlər görməyə müvəffəq oldu.

Azərbaycan Xalq Cümhuriyyəti xalqın milli özünüdərk prosesində, milli şüurun oyanmasında mühüm rolu olan milli mədəniyyətin, təhsilin, elmin, ədəbiyyat və incəsənətin inkişafına xüsusi diqqət yetirir, Xalq Maarif Nazirliyinin fəaliyyəti diqqət mərkəzində saxlanılırdı. Hökumətin başçısı Fətəli xan Xoyski deyirdi: "Bu, cəmiyyətin elə bir hissəsidir ki, dövlətin bazisi, ictimai həyatı bunsuz qurula bilməz".

Xalqlar həbsxanası hesab edilən Çar Rusiyasından Cümhuriyyətə mədəniyyət, maarif, təhsil sahəsində olduqca pis miras qalmışdı. Məktəb sisteminin təşkilində, idarə edilməsində, maddi-texniki bazasının möhkəmləndirilməsində hərc-mərclik hökm sürürdü. Cümhuriyyətin ilk növbədə məktəb sisteminin bərpa edilməsinə və yeri gəldikcə yeni məktəblər açılmasına ciddi diqqət yetirən hökumət 1918-ci ilin avqust ayının 28-də xalq maarifinin-məktəblərin milliləşdirilməsi haqqında sərəncam verdi. Bu sərəncama görə, bütün ibtidai məktəblərdə təhsil ana dilində-Azərbaycan dilində aparılmalı, rus dilində təhsil verən məktəblərdə isə bütün siniflərdə ana

---

[2] Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan qəzeti, 16 may, 2017-ci il

dili məcburi fənn kimi həftədə 3-4 saat tədris edilməli idi. Məktəblərin milliləşdirilməsi respublikada olan məktəblərin dəqiq statistikasını aparmağa imkan verdi. 1917-18-ci illərdə bağlanmış məktəblər müəyyənləşdirildi və onların bərpası həyata keçirilməyə başlandı. Sərəncama müvafiq məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, müəllimlərin maaşlarının artırılması üçün tədbirlər həyata keçirilməyə başlamışdı.

Hökumətin həyata keçirdiyi tədbirlər içərisində qızların təhsilinə xüsusi diqqət yetirilirdi. Qızların məktəblərə buraxılmaması ciddi nəzarət altına alınmışdı. Həmçinin Cümhuriyyət məktəblərin kontingent tərkibinin azərbaycanlaşmasına xüsusi diqqət yetirilməsi, azərbaycanlı uşaqların təhsil prosesinə cəlb edilməsi, təhsildən kənarda qalmaması üçün lazımi tədbirləri qanuniləşdirdi. Əgər 1914-15-ci tədris ilində 9643 orta məktəb şagirdindən (Müəllimlər Seminariyasını çıxmaqla) ancaq 1137 nəfəri azərbaycanlı idisə, 1919-20-ci tədris ilində 9611 şagirddən 3115 nəfəri azərbaycanlı idi.

Hökumətin maarif sahəsində apardığı islahatlar daha qlobal xarakter daşıdığından, bu, daha geniş layihələrin həyata keçirilməsini, təhsil sahəsinə maliyyə vəsaitinin ayrılmasını, milli kadrların hazırlanmasını, ibtidai, orta məktəblərlə yanaşı, ali məktəblərin yaradılmasını, dərsliklərin, dərs vəsaitlərinin hazırlanmasını, xarici ölkələrdən tədris ədəbiyyatının gətirilməsini və s. zəruri məsələlərin həllini tələb edirdi. Bu mühüm layihələri həll etmək üçün hökumətin təxirəsalınmaz tədbirləri içərisində 1919-cu ildə görkəmli maarif xadimlərindən və yaradıcı ziyalılardan ibarət komissiyanın yaradılması mühüm dövlət əhəmiyyəti kəsb etdi. Bu komissiyaya Hüseyn Cavid, Mahmudbəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli kimi görkəmli şəxsiyyətlər daxil edilmişdi. 1919-cu ildə hökumət bu komissiyanın maliyyələşdirilməsinə 152 min manat vəsait ayırmışdı. Qardaş Türkiyədən xeyli kitab - dərsliklər, dərs vəsaitləri, tədris proqramları gətirilmişdi. Ölkənin böyük maliyyə çətinliyinə baxmayaraq, parlament 1919-cu ilin sentyabrında 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına Avropanın ali məktəblərinə göndərilməsi haqqında qərar qəbul etdi. Bu məqsəd üçün 7 milyon manat vəsait ayrılmışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətində yaşlı əhalinin savadlanması, savadsızlığın ləğvi üçün kurslar təşkil edilməsi, təşkil edilən kurslar şəbəkəsində Azərbaycan dilinin öyrədilməsi mühüm məsələ kimi irəli sürülürdü. 1919-cu ilin sentyabrında Xalq Maarif Nazirliyinin sərəncamı ilə yaşlı əhali arasında Azərbaycan dilini öyrədən kurslara 351 min manat vəsait ayrılmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti həmçinin milli mədəniyyətin inkişafında xalqın kütləvi surətdə maarifləndirilməsində kütləvi informasiya vasitələrinin, milli mətbuatın yaradılmasına, kitab nəşrinə xüsusi diqqət

yetirir, milli mətbuatın yaradılmasını, kitab nəşrinin, kitabın xalq kütləl追 arasında yayılmasını Azərbaycan milli mədəniyyətinin əsas silahı kimi qiymətləndirir, bütün Azərbaycan ziyalılarını bu mühüm işdə yaxından iştirak etməyə dəvət edirdi.

Hökumət milli mətbuatı, yeni milli ruhda kitab nəşrini milli oyanışın, milli ideologiyanın əsas amillərindən biri kimi qiymətləndirir, onun inkişafını təmin edən təxirəsalınmaz tədbirlər həyata keçirirdi. 1919-cu ilin oktyabrında parlament mətbuat haqqında qanun qəbul etdi. Bu qanunda mətbuat azadlığı, söz azadlığı kimi demokratik prinsiplər öz əksini tapmışdı. Dövlət tərəfindən görülən tədbirlər öz nəticəsini verirdi. Artıq 1919-20-ci illərdə Bakıda, Gəncədə və respublikanın digər böyük yaşayış məntəqələrində 80-dən çox qəzet, jurnal nəşr edilirdi. Bunlardan 39-u Azərbaycan dilində, 44-ü rus və başqa dillərdə idi. Nəşr edilən qəzetlər içərisində “Azərbaycan”, “İqbal”, “Açıq söz”, “İstiqlal” və s. xüsusi yer tuturdu. Hökumət 1918-ci ildə qəzetlərin yaradılması və onların maliyyələşdirilməsi haqqında xüsusi qərar qəbul etmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti həmçinin xalqımızın kitab mədəniyyətinin yeni milli əsaslarla formalaşmasına, kitab nəşrinin mühüm mədəni problemlərindən biri kimi ön plana çəkilməsinə, kitab nəşri üçün yeni nəşriyyatların, mətbəələrin yaradılmasına, onların maliyyələşdirilməsinə vəsait ayrılmasını lazım bilirdi. Təsadüfi deyildir ki, hökumət 1919-cu ilin sentyabrında respublikada fəaliyyət göstərən dövlət və ictimai mətbəələrin bütün avadanlıqları ilə birlikdə Xalq Maarif Nazirliyinin sərəncamına verilməsi haqqında qərar qəbul etdi. Bu qərar bütün mətbəələrin vahid rəhbərlikdə birləşməsi, onların uçotunun aparılması üçün şərait yaratdı.

Nəşriyyat işinə rəhbərlik Xalq Maarif Nazirliyinə tapşırılmışdı. Nazirlik nəşriyyat işinə rəhbərlik etmək üçün “Təltif-tərcümə əncumanı” adlı komitə yaratdı və bütün nəşriyyat işinin təşkilini bu komitəyə həvalə etdi. Poliqrafiya avadanlığının yoxluğu, maliyyələşdirmənin olduqca zəif olduğu bir şəraitdə komitə xeyli iş görməyə nail oldu. Komitə qısa bir müddətdə 10 kitab tərtib etmiş, onlardan da 7-si böyük tirajla çap olunmuşdu. Nəşr edilən kitablar içərisində milli dərsliklər, dərs vəsaitləri, Azərbaycan dilinə, tarixinə, ədəbiyyatına, məktəblərimizdə tədris edilən fundamental elmlərə: riyaziyyata, cəbrə, biologiyaya, kimyaya və s. elmlərə dair kitablar çoxluq təşkil edirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-19-cu illərdə mədəniyyət, elm, təhsil sahəsində həyata keçirdiyi tədbirlər içərisində kitabxana quruculuğu sahəsində görülən tədbirlər də mühüm yür tuturdu. Kitabxana işini mədəni quruculuğun mühüm tərkib hissəsi kimi qiymətləndirən hökumət olduqca çətin şəraitdə qısa bir zaman kəsiyində xeyli iş görməyə, kitabxana şəbəkələrinin milliləşdirilməsi, yeni kitabxanaların yaradılması, mövcud

kitabxanaların, həmçinin yeni yaradılan kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, maliyyələşdirilməsi, yeni kitablarla təmin edilməsi üçün mühüm tədbirlər həyata keçirmişdi. Xüsusilə məktəb kitabxana şəbəkələində aparılan işlər daha da mütəşəkkil xarakter daşıyırdı.

Keçmiş quruluşlardan müstəqil Azərbaycan hökumətinə olduqca pis miras qalmışdı. Çar Rusiyasının azlıqda qalan xalqlara kitabxana xidmətinin təşkili sahəsində apardığı müstəmləkəçilik siyasəti vahid kitabxana şəbəkəsi yaratmağa, onları maliyyələşdirməyə imkan vermirdi. Əhaliyə kitabxana xidməti təşkil edən və dövlət kitabxana şəbəkələri yox idi.

Azərbaycanda ancaq məktəb kitabxanaları, ayrı-ayrı xeyriyyə cəmiyyətlərinin, elmi-texniki cəmiyyətlərin kitabxanaları, həmçinin Azərbaycanın görkəmli milli ziyalıları tərəfindən təşkil edilən xalq kitabxana-qiraətxanaları fəaliyyət göstərirdi. Dövlət kitabxanalara heç bir maddi və mənəvi dəstək göstərmirdi.

1920-ci illər ərəfəsində rus imperiyasının dağıldığı dövrdə dövlət idarələrinin, xeyriyyə cəmiyyətlərinin, ayrı-ayrı görkəmli şəxsiyyətlər tərəfindən yaşlı əhaliyə kitabxana xidmətini təşkil etmək üçün yaradılmış xalq kitabxana və qiraətxanaları maliyyə çətinliyi üzündən kütləvi şəkildə bağlanmış və işini dayandırmışdı. Ölkədə kitabxana işinin statistikası aparılmadığından, kitabxanaların sayı və fəaliyyəti haqqında məlumat yox idi. Belə bir ağır şəraitdə hakimiyyətə gələn Xalq Cümhuriyyəti ölkədə kitabxana işini qaydaya salmaq üçün ciddi tədbirlər görməyə başladı. Belə bir faktı qeyd etmək yerinə düşər ki, Xalq Cümhuriyyətinin rəhbərliyi və parlamentin üzvlərinin əksəriyyəti dövrün ziyalı, mədəni, sivil, geniş dünyagörüşünə malik olan, mədəniyyətə, kitab və kitabxana işinə yüksək qiymət verən görkəmli şəxslər idi.

Kitabxana işini mədəniyyətin tərkib hissəsi kimi qiymətləndirən Xalq Cümhuriyyəti kitabxana işinə rəhbərliyi, kitabxana siyasətinin hazırlanıb həyata keçirilməsini Xalq Maarif Nazirliyinə həvalə etdi. Nazirliyin həyata keçirdiyi ilk tədbirlər içərisində kitabxana şəbəkələrinin bərpa edilməsi, onun uçot və qeydiyyatının aparılması, hansı müəssisəyə, idarə və təşkilata, cəmiyyətə, şəxsiyyətə mənsub olmasını müəyyənləşdirmək əsas yer tuturdu.

Hökumət ilk növbədə təhsil kitabxanalarının vəziyyətini öyrənməyi, onların maddi-texniki bazasını möhkəmləndirməyi, dərsliklər, dərs vəsaitləri, oxu kitabları ilə təchiz etməyi, maliyyələşdirməyi ön plana çəkmişdi. Araşdırmalar nəticəsində Azərbaycanda 700-ə qədər məktəbin olması aşkarlandı. 1918-ci ilə qədər bu məktəblərin bir hissəsinin fəaliyyətini dayandırmasını nəzərə alsaq belə, nazirliyin məktəb kitabxana şəbəkəsinin işinin qaydaya salınması sahəsində məqsədyönlü işlər aparması tələb olunurdu. 1918-1920-ci illərdə Türkiyədən 20 min nüsxədən artıq dərslik, dərs

vəsaiti və digər kitablar alınıb məktəb kitabxanalarına verilmişdi. Həmçinin parlament ölkədə olan maliyyə çətinliklərinə baxmayaraq, 1919-cu ildə xalq məktəb kitabxanalarına türk dilində kitablar almaq üçün 1 milyon manat pul buraxılması haqqında qanun qəbul etdi. Bu pula Xalq Maarif Nazirliyi Türkiyədən, Rusiyadan, Gürcüstandan və Avropa ölkələrindən xeyli kitab alıb məktəb kitabxanalarına göndərdi.

Dövr üçün məktəb şəbəkəsinin inkişafını, yenidən qurulmasını, şagirdlərin milli ruhda tərbiyə edilməsində, milli ideologiyanın formalaşmasında böyük rolunu vacib hesab edən Azərbaycan hökuməti 1919-cu ildə parlamentə müraciət edərək, təhsil müəssisələrinin kitabxanalarını davamlı olaraq kitabla təchiz etmək haqqında qanun qəbul edilməsini lazım bildi. Bu qanunda bütün məktəb kitabxanalarının Azərbaycanda nəşr edilən kitab, jurnal, məcmuə və qəzetlərin məcburi nüsxələri ilə təchiz edilməsini, xarici ölkələrdən alınan kitabların ilk növbədə kitabxanalara verilməsini, öz fəaliyyətini dayandırmış məktəblərin, kitab mağazalarında, kitab anbarlarında saxlanılan ədəbiyyatın kitabxanalara paylanmasını zəruri hesab etdi. Qanunda həmçinin ayrı-ayrı şəxslərə, idarə və müəssisələrə, xeyriyyə cəmiyyətlərinə məxsus olan kitablar da diqqətdən kənarda qalmamışdı.[3] Bu tipdən olan kitabxanaların əksəriyyəti qeyri-dövlət təşkilatlarına, cəmiyyətlərə və ayrı-ayrı şəxslərə mənsub idi. Xalq Maarif Nazirliyi dəfələrlə xeyriyyə cəmiyyətlərinə, ayrı-ayrı şəxslərə mətbuat vasitəsilə müraciət edib, kitabxanaları qoruyub saxlamağı, onların yaşlı əhaliyə xidmətini təşkil etməyi xahiş etmişdi.

Parlament 1919-cu ildə xalq kitabxanaları, qiraətxanalar və cəmiyyət kitabxanalarına kitab almaq üçün Xalq Maarif Nazirliyinə 1 milyon manat pul ayrılması haqqında qanun qəbul etdi. Nazirlik bu pula Türkiyədən xeyli miqdarda kitab alıb kitabxanalara payladı. Kitabxanaların fəaliyyətini davam etdirmək üçün tədbirlər gördü. Görülən tədbirlərdə xalqımızın görkəmli ziyalılarının, maarif, mədəniyyət, incəsənət, dövlət xadimlərinin yaxından iştirakı ölkədə mədəni-maarif və kitabxana işinin canlanmasına, onun inkişaf istiqamətinin müəyyənləşməsinə, maddi-texniki bazasının möhkəmlənməsinə böyük töhfələr verdi. Kitabxana şəbəkələri müəyyənləşdirildi, onun uçot və qeydiyyatının - statistikasının aparılmasına başlandı. Bu mühüm işi başa çatdırmaq mümkün olmasa da, təxminən respublikada nə qədər kitabxana olması aşkarlandı.

Xalq Cümhuriyyətinin kitabxana işinin qaydaya salınması haqqında tədbirlərinin təhlili göstərir ki, müstəqilliyin ilk illərində bu mühüm tədbirlər iki mərhələdə həyata keçirilirdi. Birinci mərhələdə kitabxana işinin bərpası,

---

[3] Abuzər Xələfov. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik. II hissə. B., 2007, səh.34

kitabxana şəbəkələrinin müəyyənləşdirilməsi, onun uçot və qeydiyyatının-statistikasının aparılması, bağlanmış kitabxanaların fəaliyyətinin bərpa etdirilməsi, kitabxana işinə vahid rəhbərliyin müəyyənləşdirilməsi, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, maliyyələşdirilməsi məsələsinə diqqət yetirilməsi ön plana çəkilmişdir.

Bu mərhələ ölkədə dövlətin kitabxana siyasətinin formalaşması, mədəni-maarif işində, ümumiyyətlə mədəni quruculuqda kitabxanaların statusunun müəyyənləşdirilməsi, həmçinin ən çətin proses olan kitabxanaların uçot və qeydiyyatının–statistikasının aparılması mərhələsi kimi xarakterizə olunur. Məhz bu mərhələnin keyfiyyətli həlli ikinci-yeni kitabxanaların yaradılması mərhələsinə keçid üçün böyük perspektivlər açmağa imkanlar verə bilərdi. Həmçinin kitabxanaların uçot və qeydiyyatının-statistikasının aparılması ölkədə kitabxana durumunun vəziyyəti haqqında məlumatın dürüstləşdirilməsini təmin edərdi.

Belə bir faktı da qeyd etmək yerinə düşər ki, nə milli dövlətin yaranmasına qədər, nə də 1918-ci ildən sonra, hətta sovet dövründə belə sovet statistikasında Azərbaycanda kitabxana işinin durumu haqqında statistika olmamışdı. Belə statistikanın yaradılması ölkədə milli mədəniyyətimizin tərkib hissəsi olan kitabxana işinin vəziyyətini, xalqımızın kitaba, kitabxanaya münasibətini müəyyənləşdirmək imkanı yaradırdı.

Çar Rusiyası dövründə Azərbaycanda mövcud olan kitabxanaların statistikasının aparılmaması respublikamızda kitabxana şəbəkələrinin, kitabxanaların növlərinin və tiplərinin müəyyənləşdirilməsini çətinləşdirirdi. Cümhuriyyətin yaratmağa müvəffəq olduğu bu statistika sonralar Azərbaycanda kitabxana işinin tədqiqatçıları üçün olduqca mühüm və düzgün tarixi hadisələri və kitabxana durumunu öyrənmək imkanı verdi. Rəsmi statistikaya görə, 1920-ci ildə Azərbaycanda 700-dən artıq ümumtəhsil məktəbi olmuşdur. O dövrdə məktəblərin nizamnaməsinə görə, bütün məktəblərdə kitabxanalar təşkil edilməli idi. Deməli, kiçikliyindən və böyüklüyündən asılı olmayaraq, bütün məktəblərdə kitabxanalar fəaliyyət göstərirdi. O dövrdə aparılan araşdırmalardan məlum oldu ki, 700 məktəbdən 400-nün normal məktəb kitabxanası vardır. Həmçinin 100-dən artıq cəmiyyətlərə, idarə və müəssisələrə, ayrı-ayrı şəxslərə məxsus kitabxanaların olması müəyyənləşdirilmişdi. Beləliklə, 1920-ci ildə 400-ə qədər məktəb kitabxanası, 100-ə qədər xalq kitabxana və qiraətxanası fəaliyyət göstərirdi. Cümhuriyyətin müəyyənləşdirdiyi bu statistik rəqəmlər Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mədəniyyət tarixinin düzgün yazılması üçün də qiymətli mənbə oldu.

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində mövcud olan kitabxanalar haqqında verilən statistik rəqəmlər həqiqi vəziyyəti düzgün əks etdirməyən səhv rəqəmlər idi.

Sovet hakimiyyətinin ilk illərində formalaşmış statistikaya görə, Azərbaycanda 1913-cü ildə 95 min kitabı olan 25 kitabxana, 1920-ci ildə isə 25 min kitabı olan 11 kitabxana olmuşdur. Son dövrdə aparılan tədqiqatlar göstərir ki, bu rəqəmlər heç bir mənbəyə əsaslanmayan tamamilə səhv rəqəmlərdir. Cümhuriyyət dövründə aparılan araşdırmalar isə bu məlumatın səhv olduğunu aşkarlayan ən səhih, tarixi qaynaqlara əsaslanan məlumatlardır.

Tarixi statistikanı saxtalaşdırmaqda sovetoloqların əsas məqsədi xalqların keçmiş nailiyyətlərini inkar etmək, əldə edilən bütün nailiyyətləri Sovet quruluşunun adına çıxmaq idi. Sovetoloqlar həmçinin respublika əhalisinin də 97 faizinin savadsız olduğunu iddia edirdilər. Halbuki tarixçilərimizin son tədqiqatları ilə sübut edilmişdir ki, 1920-ci ildə Azərbaycan əhalisinin 30 faizi savadlı olmuşdur.

Bütün burada göstərdiklərimizdən aydın olur ki, Azərbaycan Xalq Cümhuriyyəti kitabxana işinin inkişafı haqqında qarşısına qoyduğu ilk vəzifələri müvəffəqiyyətlə həyata keçirdikdən sonra yeni mərhələ başladı. Belə ki, həm təhsil kitabxanalarının, həm də xalq kitabxana və qiraətxanalarının bərpasına, yeni kitabxanalar açmağa, onların inkişaf istiqamətlərini təyin etməyə, maddi-texniki bazasını möhkəmlətməyə, maliyyə işini stabilləşdirməyə başlamaq imkanı yarandı.

Xalq Cümhuriyyəti hələ XX əsrin əvvəllərindən başlayaraq xalqımızın mədəni dirçəlişində mühüm rol oynamış, Azərbaycan xalqının maariflənməsində, mədəni inkişafında, təhsil və tərbiyəsində yaxından iştirak etmiş, görkəmli ziyalılarımızın yaratmış olduğu xeyriyyə cəmiyyətlərinin, elmi-texniki cəmiyyətlərin, ayrı-ayrı milli ruhlu ziyalıların fəaliyyətinə böyük önəm və dəstək verməklə bu ənənələrdən istifadəni ön plana çəkmişdir.

1905-1907-ci illər inqilabı ölkədə milli ziyalıların, yerli sahibkarların, cəmiyyətin bütün qabaqcıl qüvvələrinin birləşməsinə, milli dirçəliş, milli maarif və mədəniyyətin inkişaf etdirilməsi uğrunda başlamış mütərəqqi xeyriyyəçi-maarifçi hərəkatın yaranmasına şərait yaratmışdı. Xeyriyyə cəmiyyətlərinin əsas məqsədi azərbaycanlılar arasında milli oyanışa nail olmaq, mədəni-maarif müəssisələri yaratmaq, mədəni inkişafa, xalqın maariflənməsinə kömək etmək idi. Xeyriyyə cəmiyyətlərinin yaranması, formalaşması, maliyyələşdirilməsi bilavasitə XX əsrin əvvəllərində yetişmiş görkəmli ziyalıların - H.B.Zərdabinin, N.Nərimanovun, C.Məmmədquluzadənin, Ü.Hacıbəyovun, Ə.Haqverdiyevin, Ə.Topçubaşovun, M.Ə.Rəsulzadənin və başqalarının əməli fəaliyyəti ilə bağlı idi. Gəncədə, Naxçıvanda, Şəkidə, Lənkəranda, Salyanda, Ordubadda, Şamaxıda və başqa

yerlərdə xeyriyyə cəmiyyətləri yaranmışdı. Azərbaycan milli burjuaziyasının nümayəndələrinin - H.Z.Tağıyevin, Ş.Əsədullayevin, M.Muxtarovun və başqalarının bu cəmiyyətlərin yaradılmasında və fəaliyyətində iştirakı onların maliyyələşdirilməsinə müsbət təsir göstərirdi. Xeyriyyə Cəmiyyətləri içərisində ən mühüm mədəni-maarif ocağı kimi xalq arasında böyük maarifçilik işi aparan "Nəşri-Maarif", "Nicat", "Gəncə Müsəlman Xeyriyyə" cəmiyyətlərinin fəaliyyəti diqqəti daha çox cəlb edirdi.

Cümhuriyyət milli xeyriyyə cəmiyyətləri ilə yanaşı, hələ XIX əsrin axırlarında neftçilərə xidmət etmək üçün təşkil edilmiş "Neft Sənayeçiləri Qurultayı Şurası"nın kitabxana-qiraətxanalarının fəaliyyətini də diqqət mərkəzində saxlayırdı. Onların fəaliyyətini davam etdirməsinə kömək göstərirdi.

Neft Sənayeçiləri Qurultayının Qaraşəhərdə, Ağşəhərdə, Bayılda, Sabunçuda, Balaxanıda bir neçə məktəbdə və qurultayın idarəetmə orqanlarında kitabxana-qiraətxanaları var idi. Cümhuriyyət bu qəbildən olan bütün kitabxana-qiraətxanaların işinin davam etdirilməsinə köməklik göstərirdi.

Cümhuriyyətin müstəqilliyin ilk günlərindən apardığı kitabxana siyasəti respublikamızda kitabxana quruculuğunun demokratik əsaslarda inkişafına şərait yaratdı, kitabxanaların milli ideologiyanın formalaşmasında rol və əhəmiyyətini müəyyənləşdirdi.

Müstəqilliyin ilk illərindən hökumət həm Bakı şəhərində, həm də respublikanın rayonlarında fəaliyyət göstərən cəmiyyətlərlə əlaqə yardır, onların işini əlaqələndirməyə, fəaliyyətini davam etdirməyə kömək edir, həmçinin kitablarla, dövri mətbuatla komplektləşdirilməsinə maddi yardım göstərirdi.

Məhz buna görədir ki, müstəqilliyin ilk illərindən respublikanın mədəni həyatında "Nicat", "Nəşri-Maarif", "Səfa" və s. cəmiyyətlər, müstəqil fəaliyyət göstərən kitabxana-qiraətxanalar, digər mədəni-maarif müəssisələri mühüm mədəni tədbirlər həyata keçirir, yaşlı əhaliyə kitabxana xidməti göstərir, hökumətin siyasətinin təbliğində yaxından iştirak edirdilər. Cəmiyyətlər yeni mədəni-maarif müəssisələri açır, onları əsasən Azərbaycan dilində kitab və dövri mətbuatla təchiz edir, kitabxana və qiraətxanalarda kütləvi işlər təşkil edir, milli ideologiyanın, vətənpərvərlik ideyalarının, müstəqil dövlətçilik siyasətinin təbliğinə geniş yer verir, müstəqil dövlətçiliyin möhkəmlənməsi məsələsinə dair tədbirlər keçirirdilər.

1919-cu ilin əvvəllərində Bakı və onun rayonlarında mədəni-maarif və xeyriyyə cəmiyyətlərini birləşdirmək ideyası irəli sürüldü və konfrans çağırılması üçün təşəbbüs komissiyası yaradıldı. Komissiya "Bakı şəhəri Mədəni-Maarif Müəssisələri İttifaqının Nizamnaməsi"ni tərtib edib təsdiq

üçün hökumətə göndərdi. Yüksək peşəkarlıqla hazırlanmış bu nizamnamədə deyilirdi: “Mədəni-Maarif Cəmiyyətləri İttifaqının məqsədi Bakı əhalisinin mədəni səviyyəsini yüksəltmək məqsədi ilə şəhərin bütün mədəni qüvvələrini birləşdirməkdən ibarətdir”. Cəmiyyətin struktur quruluşunda dəyişikliklər edilməsi, onların birgə fəaliyyəti əhaliyə xidmət prosesinə müsbət təsir etmişdi. Cəmiyyətlərin fəaliyyətində, kitabxana-qiraətxanaların işində böyük canlanma əmələ gəlmiş, kitabxana və qiraətxanalara gələn oxucuların sayı xeyli çoxalmış, daimi oxucular oxucuların yarıdan çoxunu təşkil etməyə başlamışdılar.

Azərbaycan hökuməti həm Bakı şəhərində, həm də rayonlarda fəaliyyət göstərən bütün kitabxanalara, o cümlədən milli orqanlara məxsus kitabxana-qiraətxanalara öz fəaliyyətini davam etdirmək haqqında göstəriş vermişdi. Dövlət orqanlarına məxsus kitabxanaların işi yenidən qurulmuş, dövlət kitabxanalarının maliyyələşdirilməsi təmin edimişdi. Hökumət həmçinin digər kitabxana-qiraətxanaların kitabla, dövri mətbuatla təminatında yaxından iştirak edirdi. Bu da onların xidmət prosesinin sistemli təşkilinə, daimi oxucu qrupu yığmasına kömək edirdi.

Hökumət mövcud kitabxanaların işini bərpa və yenidənqurma işləri ilə yanaşı, yeni kitabxanalar təşkil etmək məsələsinə də diqqət yetirməyə başlamışdı.

1919-cu ildə hökumət Balaxanı, Sabunçu, Bibiheybət, Ağşəhərdə kitabxanalar açdı. Həmçinin “İqla” cəmiyyəti və Kooperasiyalar İttifaqı əhaliyə xidmət üçün yeni kitabxanalar açmağa başlamışdı. Ayrı-ayrı nazirliklər kitabxanalar açmaq üçün təşəbbüs göstərirdi. 1919-cu ildə Ədliyyə Nazirliyi və Səhiyyə Nazirliyi kitabxana açmaq üçün hökumətdən vəsait istəmişdi. Hökumət Ədliyyə Nazirliyinə 50 min, Səhiyyə Nazirliyinə isə 10 min manat vəsait ayrılması haqqında qərar qəbul etmişdi.

Müstəqillik illərində Cümhuriyyətin kitabxanaçılıq fəaliyyətində yeni kitabxanalar açmaq, kitabxanaları xalqa yaxınlaşdırmaq, kitabxanalar vasitəsilə milli dirçəlişə, milli şüurun formalaşmasına nail olmaq, milli tariximizi, ədəbiyyatımızı, mədəniyyətimizi, tarixi ənənələrimizi təbliğ etmək geniş yer tuturdu. Bu məqsədlə yaradılan kitabxanalardan biri də M.Ə.Sabir adına kitabxana olmuşdur.

1918-ci ilin dekabr ayında Azərbaycan İstehlak Cəmiyyəti İttifaqının Mədəni-Maarif Şöbəsi Bakı şəhərində azərbaycanlı əhaliyə kitabxana xidməti göstərmək üçün ictimai xalq kitabxanası açmağı xahiş etdi. Azərbaycan Xalq Maarif Nazirliyi bu təşəbbüsü yüksək qiymətləndirdi və kitabxana üçün öz fondundan xeyli kitab ayırdı. Kitabxananı açmaq xeyli çətinliklə başa gəldi. İlk növbədə kitabxananın kitab fondunu yaratmaq üçün Azərbaycan dilində kitab toplamaq böyük çətinliyə səbəb oldu. Ona görə də nazirlik ölkə

əhalisinə, ilk növbədə isə ziyalılara kitabxanaya kitab toplamaq üçün müraciət etdi. Qısa müddətdə xeyli kitab toplamaq mümkün oldu. İkinci çətinlik kitabxana üçün münasib bina tapmaq idi. Bununla belə, az müddətdə nazirliyin ciddi-cəhdləri sayəsində bina tapmaq mümkün oldu. Nazirlik 1919-cu ilin mart ayında kitabxananın açılışını elan etdi. Kitabxananın açılışına demək olar ki, bütün görkəmli ziyalılar, maarifpərvər insanlar, mədəniyyət xadimləri, müəllimlər və digər insanlar gəlmişdilər. Açılışda kitabın, kitabxananın millətin maariflənməsi, mədəniyyətinin yüksəlməsi, milli şüurun, milli ideologiyanın formalaşmasında rolu barədə çox dəyərli çıxışlar oldu. Kitabxanaya görkəmli azərbaycan şairi M.Ə.Sabirin adının verilməsi Bakı əhalisi tərəfindən yüksək əhval-ruhiyyə ilə qarşılanmışdı. Azərbaycan ədəbiyyatının toplandığı böyük milli kitabxana kimi kitabxanaya güclü oxucu axını əmələ gəlmişdi. Oxucular kitabxana fondunun yeni kitablarla zənginləşməsi işinə də köməklik göstərir, şəxsi kitablarını hədiyyə edirdilər. Kitabxananın oxucu tərkibi olduqca rəngarəng idi. Burada ziyalılarla yanaşı, fəhlələrə, təqaüdçülərə, mütəxəssislərə, uşaqlara da rast gəlmək olurdu. Kitabxana tezliklə oxucuların tələbatını nəzərə alaraq dövri mətbuat fondu yaratdı. Kitabxanada aparılan işlərin getdikcə təkmilləşməsi, oxucu kontingentinin artması, yeni xidmət formalarının: kütləvi işlərin, kitab müzakirələrinin aparılmasına, ədəbi-bədii dərnəklərin fəaliyyət göstərməsinə şərait yaratmışdı.

Kitabxanada aparılan bütün kütləvi tədbirlər Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin təbliğinə, milli ideologiyanın formalaşmasına, milli şüurun yüksəlməsinə xidmət edirdi.

Kitabxananın oxucularının daim artması kitab fondunun və dövri mətbuat fondunun zənginləşməsinə böyük tələbat əmələ gətirmişdi. Kitabxananın rəhbərliyi bu məqsədlə yeni kitablar əldə etmək üçün əhaliyə müraciət edib öz şəxsi kitablarını kitabxanaya bağışlamağı xahiş edirdi. Öz növbəsində hökumət də kitabxananı kitabla təmin etmək işinə daim diqqət yetirirdi. Əgər kitabxana açılarkən onun fondunda 1200 kitab var idisə, bir ildən sonra, yəni 1920-ci ildən sonra kitabxananın fondunda 10 min nüsxə kitab toplanmışdı. Kitabxananın fondunda Azərbaycan dilində kitablarla yanaşı, türk, ərəb, fars, rus və başqa dillərdə də kitab var idi. Kitabxana türkologiyaya dair xeyli miqdarda kitablar əldə etməyə müvəffəq olmuşdu. Kitabxananın fəaliyyətində baş verən yeniliklər qısa müddət ərzində 1500-dən artıq oxucu kontingentinin formalaşmasına səbəb olmuşdu.

Kitabxana yarandığı gündən respublikada milli kitabxana kimi tanınmış, Azərbaycan tarixinə, ədəbiyyatına, incəsənətinə, ümumiyyətlə, azərbaycanşünaslığa dair ədəbiyyatın mərkəzi kimi formalaşmışdı. Azərbaycanın görkəmli ziyalılarından Ə.Haqverdiyev, H.Cavid, A.Şaiq,

C.Cabbarlı və başqaları kitabxananın fəal oxucuları olmuş, onun işində yaxından iştirak etmişlər.

Respublikamızın kitabxana tarixində mühüm işlər görmüş M.Ə.Sabir adına kitabxana Azərbaycan mədəniyyətinin inkişafında, xalqımızın milli şüurunun formalaşmasında şərəfli bir yol keçmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti orta ümumtəhsil məktəblərinin geniş şəbəkəsinin yaradılması ilə yanaşı, təhsilin bütün pillələri üçün kadr yetişdirməyi öz qarşısında məqsəd qoyduğundan, ali məktəblərin yaradılmasına da mühüm əhəmiyyət verirdi. Odur ki, hökumət Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu və Dövlət Konservatoriyası yaratmaq fikrini irəli sürmüşdü. İqtisadi, maliyyə və kadr çətinlikləri yalnız Bakı Dövlət Universitetinin yaradılmasına imkan verdi. 1919-cu ildə ölkədə olduqca böyük iqtisadi, siyasi çətinliklərlə yanaşı, universitetin açılmasına qarşı mühafizəkarlardan ibarət müxalifət qrupu da fəaliyyət göstərirdi. Buna baxmayaraq, Xalq Cümhuriyyətinin ardıcıl mübarizəsi, dönməz iradəsi nəticəsində 1919-cu il sentyabr ayının 1-də parlament Bakı şəhərində Bakı Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi. Bu qərarın qəbulunu səbirsizliklə gözləyən universitetin ilk rektoru V.İ.Razumovski yazırdı: “Azərbaycan ilk maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovşağında yeni məşəl yandı”. Bu xeyirxah rus aliminin dediklərində böyük uzaqgörənlik və həqiqət var idi. Bakı Dövlət Universiteti bütün Şərqdə böyük hadisə olmaqla, Azərbaycan xalqının elmi, mədəni inkişafının əsas amili idi. Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin xalqımıza böyük yadigarı oldu.

Təsadüfi deyildir ki, Ulu Öndər Heydər Əliyev Bakı Dövlət Universitetini xalqımızın milli sərvəti, milli iftixarı adlandırdı. O, Bakı Dövlət Universitetinin yaranmasını Azərbaycan xalqının həyatında tarixi, əlamətdar bir hadisə kimi qiymətləndirərək yazırdı: “Azərbaycan Xalq Cümhuriyyətinin təşəbbüsü ilə Azərbaycanda ilk təhsil ocağının yaranması o dövrdə gedən tarixi proseslərdən doğan bir zərurət idi... Bakı Dövlət Universitetinin əsasını qoyanların, onun inkişafına təkan vermiş insanların əməyini daim yüksək qiymətləndirərək onların xatirəsini böyük minnətdarlıq və ehtiram hissi ilə yad edirəm”.

1919-cu il sentyabrın 1-də parlament Bakı Dövlət Universitetinin təsis edilməsi haqqında qərar qəbul etdikdən dərhal sonra Bakı Dövlət Universitetinin təsisi ilə əlaqədar əsas sənədləri və tədbirlər planını hazırlamaq üçün xüsusi komissiya yaradıldı. Komissiyanın sədri vəzifəsinə V.İ.Razumovski təyin edildi. Komissiya universiteti təsis etmək üçün bütün rəsmi sənədləri hazırlayıb hökumətə təqdim etdi. Bu sənədlərdə universiteti dünya təcrübəsinə müvafiq şəkildə təsis edib idarə etmək üçün bütün

məsələlər öz əksini tapmışdı. Komissiyanın hazırladığı sənədlərdə elmi kitabxananın yaradılması universitetin əsas atributlarından biri kimi ön plana çəkilmiş, tezliklə kitabxana üçün bina, avadanlıq, əsasən isə kitab fondu yaratmaq lazım bilinmişdi.

Dünya təhsil tarixindən məlum olduğu kimi, kitabxana təhsil müəssisələrinin əsas atributlarından biri, təhsil müəssisəsinin bir nömrəli laboratoriyasıdır. Məhz buna görə bir qayda olaraq təhsil müəssisəsi yaradılmazdan əvvəl onun kitabxanası yaradılmalı, tələbə və müəllimlərin istifadəsinə verilməlidir. 1919-1920-ci illərdə Bakıda elmi kitabxana yaratmaq çətin və məsuliyyətli bir iş idi. Bakıda heç bir zəngin kitab fonduna malik elmi kitabxananın olmaması, elmi ədəbiyyatın qıtlığı, dərsliklərin, dərs vəsaitlərinin olmaması bu mühüm işi olduqca mürəkkəbləşdirirdi. Universiteti təsis edən komissiya bu çətinliklərin öhdəsindən gəlməyi bacardı. 1919-cu ildə universitetə bina verilən kimi elmi kitabxanaya da münasib yer ayrıldı. Bakı Dövlət Universitetinin kitabxanasının yaranması respublikanın təhsil, elmi və mədəni həyatında böyük hadisə idi. Kitabxana öz statusuna görə universal, elmi və tədris xarakteri daşıdığından respublika əhəmiyyətinə malik idi. Bu dövrdə respublikada heç bir elmi kitabxana, elmi ədəbiyyat və tədris ədəbiyyatı olmadığından, kitabxananı təşkil etmək olduqca çətin idi. Bütün bu çətinliklərə baxmayaraq, universiteti təşkil eədn komissiya böyük fədakarlıqla bu işin öhdəsindən gələ bildi. Komissiya 1919-cu ildə universitetin təşkili üçün dövlət tərəfindən ayrılmış pul vəsaitinin müəyyən hissəsini kitabxananın təşkilinə ayırdı.

Kitabxananın əsası 1919-cu ilin sentyabr ayıında qoyuldu. Kitab fondunun əsasını Dubrovskidən alınan kitablar təşkil edirdi. Bu kitablar əsasən tarixə, ədəbiyyata aid idi. Həmçinin 1919-cu ildə Almaniyadan tarix və filologiyaya aid kitablar alındı. Universiteti təsis edən komissiya ölkə daxilində, xüsusilə Bakı şəhərində fəaliyyət göstərən kitabxanalardan kitab almaq və ümumiyyətlə, xalqda olan kitabları toplamaq işinə də xüsusi diqqət yetirirdi. Komissiya 1920-ci illərin əvvəllərində Şəhər Özünüidarəsinə və Neft Sənayeçiləri Qurultayı Şurasına müraciət edərək, Mixaylov və Sabunçu xəstəxanasının kitabxalarında olan tibbi ədəbiyyatın universitet kitabxanasına verilməsini xahiş etdi. Komissiyanın xahişi nəzərə alındı və bu kitabxanaların bazasında universitet kitabxanasının tibb şöbəsi yaradıldı. Şöbə təşkil edilərkən onun fondunda 212 cild kitab toplanmışdı. Komissiya həmçinin dövri mətbuat vasitəsi ilə xalqa müraciət etmiş, onlarda olan kitabları kitabxanaya verməyi xahiş etmişdi. Komissiyanın müraciəti nəticəsiz qalmadı. Bakılılar 1920-ci ildə kitabxanaya 120 min manatlıq kitab verdilər. Kitabxananın fondunun zənginləşməsində Tiflis şəhərindən alınmış 18 milyon manatlıq elmi kitab və dərsliklər mühüm əhəmiyyət kəsb etdi.

Belə bir məsələni qeyd etmək yerinə düşər ki, universitetin ilk professor-müəllim heyətinin böyük fədakarlıq göstərərək öz şəxsi kitabxanalarını universitet kitabxanasına bağışlamaları nəticəsində kitabxana fondu həm məzmunca, həm də sayca xeyli zənginləşmiş, tələbə və müəllimlərin kitaba olan tələbatını qismən də olsa, ödəməyə cavab verə biləcək səviyyəyə çatmışdı.

1920-ci ildə kitabxananın fondunda Azərbaycan, türk, rus, ərəb, fars, ingilis, fransız, alman, tatar və s. dillərdə 4660 kitab, 130 adda qəzet və jurnal komplektləri toplanmışdı. Kitabxananın fondu 3 dəfədən çox artmışdı. Kitabxanada professor-müəllim heyətinə və tələbələrə xidmət etmək üçün qiraət zallarının yaradılması oxuculara xidmət işinin daha da yaxşılaşdırılmasına ciddi kömək etmişdi.

Bakı Dövlət Universitetinin elmi kitabxanasının yaranması Azərbaycan Xalq Cümhuriyyətinin elm, təhsil, mədəniyyət sahəsində tarixi nailiyyəti idi. Cümhuriyyət tərəfindən yaradılıb Azərbaycan elminə, təhsilinə yadigar qalmış bu elm və təhsil məbədgahı artıq bir əsrdir ki, Azərbaycanın elm və mədəniyyətinin inkişaf yolunu işıqlandırır.

Azərbaycan Xalq Cümhuriyyəti olduqca qısa müddət-cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ölkədə iqtisadiyyatın, siyasətin, mədəniyyət, elm və xalq maarifinin inkişafında böyük işlər görmüş, gələcək nəsillərə çox qiymətli ənənələr qoyub getmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin gördüyü mədəni işləri tədqiq edərkən belə bir məsələ diqqəti cəlb edir ki, mədəniyyətimizin ayrılmaz hissəsi olan kitabxana işi Cümhuriyyətin və parlamentin fəaliyyətində həmişə diqqət mərkəzində olmuşdur.

Çox böyük təəssüf hissi ilə qeyd edilməlidir ki, 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti rus sovet ordusunun süngülərinin təzyiqi altında süqut etdi.

XX əsrin əvvəllərində xalqımızın nailiyyəti kimi bütün Şərqdə günəş kimi parlayan Azərbaycan Xalq Cümhuriyyəti qısa bir ömür yaşasa da, xalqımızın əzəli arzusu olan müstəqillik, azadlıq ideyalarını gerçəkləşdirdi. Qısa bir zaman kəsiyində xalqımızın gələcək inkişafı naminə zəngin ənənələr formalaşdırdı, ölkəmizə böyük və şərəfli beynəlxalq nüfuz qazandırdı. Azərbaycan milli məfkurəsinin, Azərbaycançılıq ideologiyasının təməlini hazırladı.

## ƏDƏBİYYAT

1. *Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni*

*əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti. B., 2001, s. 26-27.*
2. *İlham Əliyev. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // "Azərbaycan" qəzeti, 2017, 16 may.*
3. *Abel Məhərrəmov. Bakı Dövlət Universiteti-90. B., 2009, 688 s.*
4. *Abel Məhərrəmov. Bakı Dövlət Universiteti-95. B., 2014, 578 s.*
5. *Abuzər Xələfov. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. B., 2006, 241 s.*
6. *Abuzər Xələfov. Bakı Dövlət Universitetinin kitabxanası 90 il elm və təhsilin xidmətində. B., 2009, 291 s.*
7. *Abuzər Xələfov. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik, II hissə, B., 2007, 252 s.*

## БИБЛИОТЕЧНОЕ ДЕЛО В АЗЕРБАЙДЖАНЕ В ЭПОХУ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ (1918-1920 ГГ.)

**ХАЛАФОВ АБУЗАР А.**

***РЕЗЮМЕ***

*Статя посвящается изменениям в области библиотечного дела, открытиям новых библиотек и упорядочению их деятельности в период Азербайджанской Демократической Республики.*

***Ключевые слова**: Народная Республика, народные библиотеки, библиотечные основы.*

## LIBRARIANSHIP IN AZERBAIJAN DURING THE PERIOD OF AZERBAIJAN DEMOCRATIC REPUBLIC (1918-1920-S YEARS)

**KHALAFOV ABUZAR A.**

***SUMMARY***

*The article is devoted to the reforms carried out by the Azerbaijan Democratic Republic in the 1918-1920-s in the field of librarianship, the discoveries of new libraries and their regulation in our republic.*

***Key words:** National Republic, national libraries, library foundations.*

# KİTABXANAŞÜNASLIQ KAFEDRASI ÜZRƏ 2017-ci İLDƏ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN YERİNƏ YETİRİLMƏSİ HAQQINDA

## M Ə L U M A T   H E S A B A T I

*Kitabxanaşünaslıq və informasiya jurnalının 2017-ci il üçüncü sayında kitabxanaşünaslıq kafedrasının 2017-ci il elmi hesabatı ilə yanaşı, kafedranın professor-müəllim heyətinin 2017-ci ildə kafedranın elmi-tədqiqat planına müvafiq yerinə yetirdikləri elmi-tədqiqat işləri qısaldılmış variantda çap edilir.

**Bakı Dövlət Universiteti**
**Kitabxanaşünaslıq kafedrasının**
**2017-ci il üçün elmi-tədqiqat işləri haqqında**

## H E S A B A T I

## 1. GİRİŞ

Kitabxanaşünaslıq kafedrası tədris prosesi ilə elmi-tədqiqat fəaliyyətinin vəhdətini təmin edən, kitabxanaçılıq-informasiya təhsilinin təşkilində aparıcı mövqeyə malik kafedradır. Kafedranın elmi-tədqiqat sahəsindəki fəaliyyəti onun profilinə uyğun elmin müvafiq sahələrinin mərhələli tədqiqinə, elmi-tədqiqatın nəticələrinin tədris prosesinə tətbiqinə yönəldilir. Bununla yanaşı, kitabxanaşünaslıq kafedrasının elmi-tədqiqat sahəsindəki fəaliyyəti təhsilin inkişaf problemləri ilə bağlı elmi araşdırmalar innovasiya xarakteri daşımaqla tədris prosesinin, həmçinin təcrübi fəaliyyət sahəsinin müasir metodlarla qurulmasına, yeni texnologiyaların, innovasiyaların təmin olunmasına stimul verir.

Kafedranın nəzdində "Kitabxana işinin təşkili və idarə olunması" adlı tədris laboratoriyası və BDU-nun Fəxri professoru A.A.Xələfovun rəhbərliyi ilə "Kitabxana işinin kompüterləşdirilməsi ETL" fəaliyyət göstərir. Kitabxanaşünaslıq kafedrasına dos. E.Y.Əhmədov rəhbərlik edir. BDU-nun Fəxri professoru A.Xələfovun dəyərli məsləhətləri ilə kafedranın tədris və elmi-tədqiqat işləri uğurla davam etdirilir. Kafedra aparılan elmi tədqiqat işləri respublikamızın elm, təhsil və ictimai sahədə aparılan uğurlu siyasətin nəticəsi olaraq həyata keçirilir. Belə ki, 2017-cı il may ayının 7-də Kitabxanaçılıq-informasiya fakültəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94 illiyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı elmi konfrans keçirilmişdir. Eyni zamanda qeyd etmək lazımdır ki, kafedra əməkdaşları informasiyalaşmış cəmiyyətdə "Kitabxanaşünaslığın və kitabxana işinin müasir problemləri" adlı elmi problem əsasında tədqiqat aparmışlar. Hesabat ilində kitabxanaşünaslıq kafedrasının professor-müəllim heyəti, dissertant və doktorantlar plana uyğun olaraq elmi-tədqiqat işlərini əzmlə yerinə yetirmişdir.

## 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ

2017-ci ildə Kitabxanaşünaslıq kafedrasında 13 nəfərdən ibarət professor-müəllim və laborant-texniki işçi heyəti fəaliyyət göstərmişdir. Bunlardan 1 nəfəri tarix elmləri doktoru, professor, 5 dosent, elmlər namizədi,

1 nəfər baş müəllim, 4 nəfər 0,5 şt müəllim, 2 nəfər müəllim, 1 nəfəri laboratoriya müdiri, 2 nəfər laborantdır.

Kafedrada işləyən əməkdaşların tam siyahısı, onların tutduğu vəzifələr, elmi dərəcələri və elmi adları aşağıdakı kimi olmuşdur:

| S.n. | Adı, atasının adı, soyadı | Təvəllüdü | Tutduğu vəzifə | Elmi dərəcəsi və elmi adı |
|---|---|---|---|---|
| 1. | Xələfov Abuzər Alı oğlu | 25.12.1931 | məsləhətçi professor | Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, “Şöhrət” ordenli, BDU-nun “Fəxri professor”u, tarix elmləri doktoru, professor |
| 2. | Əhmədov Elçin Yusif oğlu | 15.04.1961 | Kitabxanaşünaslıq kafedrasının müdiri | Pedaqogika üzrə fəlsəfə doktoru, dosent |
| 3. | Qurbanov Azad İsa oğlu | 06.26.1966 | Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı | Fizika-riyaziyyat elmlər namizədi, dosent |
| 4. | Məmmədov Mehmanəli Əkbər oğlu | 18.02.1957 | Kitabxanaçılıq-informasiya fakültəsinin bakalavr şöbəsi üzrə dekan müavini | Pedaqogika üzrə fəlsəfə doktoru, dosent |
| 5. | Kazımi Pərviz Firidun oğlu | 10.12.1958 | Müəllim | Tarix üzrə fəlsəfə doktoru, dosent əvəzi |
| 6. | İsmayılova | 23.07.1978 | Baş müəllim | Tarix üzrə fəlsəfə |

| | | | | |
|---|---|---|---|---|
| | Nigar Nurəddin qızı | | | doktoru |
| 7 | Şirinov Ceyhun Rəfail oğlu | 23.04.1985 | Müəllim | |
| 8 | Zeynalova Hicran Oqtay qızı | 18.06.1977 | Müəllim | |
| 9 | Məmmədov Eldəniz Elman oğlu | 25.07.81 | 0,5 şt. müəllim | Tarix üzrə fəlsəfə doktoru |
| 10 | Məmmədova Sevda İsrafil | 21.10.1980 | 0,5 şt. müəllim | |
| 11 | Əliyeva Aygün | 21.10.1976 | 0,5 şt. müəllim | |
| 12. | Həsənova Nazlı Əli qızı | 16.12.1966 | 0,5 şt. müəllim | Fizika-riyaziyyat elmlər namizədi, dosent |
| 13. | Quliyeva Vəfa Bahadur qızı | 14.02.1977 | Laborant | Dissertant |
| 14 | Camalova Zöhrə Cavanşir qızı | 22.08.1956 | Laboratoriya müdiri | |
| 15 | Əliyeva Sahibə Hidayət qızı | 29.05.1971 | Laborant | |

## 3. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ TƏDQİQAT İŞLƏRİ

Cari hesabat ilində Kitabxanaşünaslıq kafedrasında respublikadaxili və beynəlxalq qrantlar əsasında yerinə yetirilən elmi-tədqiqat işləri olmamışdır. Lakin növbəti ildə kitabxanaşünaslıq kafedrasının əməkdaşları BDU-da təşkil edilən “Universitetdaxili 50+50 qrant layihəsi”çərçivəsində fəaliyyətini davam etdirəcəklər.

## 4. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR

Kitabxanaşünaslıq kafedrasının məsləhətçi professoru A.Xələfov və kafedranın aparıcı alimləri AMEA Mərkəzi Elmi Kitabxanası ilə sıx əməkdaşlıq şəraitində işləmiş, birgə elmi tədbirlərdə, o cümlədən elmi konfranslarda iştirak etmiş, qarşılıqlı fikir mübadilələri aparmış, kitabxananın elmi kadr potensialının artırılmasında, eləcə də elektron kataloqun

yaradılmasında müəyyən köməklik göstərmişlər. Kafedra əməkdaşları AMEA Mərkəzi Elmi Kitabxanasında bir sıra təqdimat tədbirlərində iştirak etmişlər. 2018-ci ildə də AMEA ilə kafedranın əməkdaşlığı daha da gücləndiriləcək.

## 5. KAFEDRADA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI VƏ YERİNƏ YETİRİLMƏSİ

Hesabat ilində Kitabxanaşünaslıq kafedrasının professor-müəllim heyəti planda nəzərdə tutulmuş "İnformasiya cəmiyyəti şəraitində kitabxana işi və kitabxanaşünaslığın müasir problemləri (tarixi, müasir problemləri və inkişaf perspektivləri)" istiqamətində "İnformasiya cəmiyyəti və kitabxana işinin müasir problemləri" mövzusunda kompleks elmi-tədqiqat işini müasir dövrdə kitabxanaşünaslıq elminin qarşısında duran əsas vəzifələrlə əlaqələndirmiş, araşdırılan mövzular elmi cəhətdən düzgün əsaslandırılmışdır. Tədqiqat işlərində qısaca olaraq annotasiyalar verilmişdir.

Kafedra əməkdaşlarının elmi-tədqiqat işlərinin mövzusu və annotasiyaları aşağıdakı kimi olmuşdur:

**Mövzu:** İnformasiya cəmiyyətinin moderinləşməsində kitabxana işinin rolu

1. **Prof. A.Xələfov**

**Mərhələ 3**. Kitabxanalarda Azərbayçançılıq milli ideologiyasının və dövlətçiliyin təbliğinin forma və üsulları.

Müasir şəraitdə kitabxanaların qarşısında duran əsas vəzifə kitabxana xidmətinin təşkili prosesində oxuculara milli ideologiyanın, Azərbaycancılıq ideologiyasının və dövlətçiliyin təbliği probleminin elmi-nəzəri əsaslarına dair tövsiyələr hazırlamaqdır.

2. **Dos. A.İ.Qurbanov**

**Mərhələ 3. Informasiya cəmiyyəti və ali kitbxanaçılıq təhsilinin informasiyalaşdırılması.**

Kitabxanaların informasiya fəaliyyətinin əsas məqsədi oxucuları ən yeni informasiyalarla təmin etməkdir. Hesabat ilində tədqiqata oxucu tələbatının öyrənilməsinin metod və vasitələri tətbiq edilmişdir. Azərbaycanda informasiya bazarının vəziyyəti və durumu, marketinq tədqiqatlarının cəlb edilmə mexanizmi təhlil edilmişdir.

**3. Dos. E.Y.Əhmədov**

**Mərhələ 3. Uşaq və gənclərin müasir sorğuları və onun informasiya təminatı.**

Elmi-tədqiqat işində Respublika Gənclər Kitabxanasının hüquqi informasiya fəaliyyəti tədqiqata cəlb olunmuşdur. Burada həmçinin gənc

oxucuların hüquqi biliklərə yiyələnməsində bu mərkəzin rolu müəyyənləşdirilmişdir. Tədqiqatda qeyd edilir ki, kitabxananın hüquq informasiya fondunda Rusiya Federasiyasının normativ hüquqi sənədləri daha geniş yer tutmuşdur. Bura əsasən qanunlar, sərəncamlar, dekretlər və digər hüquqi aktlar daxildir. Gənc oxucuların hüquqi biliklərə yiyələnməsində və gələcəkdə onların ixtisaslı kadr kimi formalaşmasında bu cür ədəbiyyatların təbliği xüsusi əhəmiyyət daşıyır.

**4. Dos. M.Ə.Məmmədov**

**Mərhələ 3. Respublika patent fondunda sənədlərin kimplektləşdirilməsi və məlumat-axtarış sisteminin təşkili (2000-2015-ci illər).**

Elmi tədqiqat işində ETK-ların komplektləşdirmə xüsusiyyətləri və mənbələri açıqlanmış, fondun tematik tipoloji tərkibi müəyyənləşdirilmişdir. Həmçinin ETK fondlarının uçotu və təşkili məsələləri araşdırılmış, fiziki cəhətdən köhnəlmiş ədəbiyyatın fonddan çıxarılması haqqında məlumat verilmişdir. Burada texniki kitabxanalar üzrə depozitar fondun təşkili, az istifadə edilən nəşrlərin depozitar fonda verilməsi və fondun mühafizəsi məsələləri də tədqiqata cəlb edilmişdir.

**5. Tarix üzrə fəlsəfə doktoru P.F.Kazımi**

**Mərhələ 3. Müasir informasiya cəmiyyətində türk milli kitabxanaları (tarixi, müasir vəziyyəti və inkişaf istiqamətləri).**

Türk dövlətlərinin 1991-ci ildən başlayaraq keçirilən zirvə toplantıları Türkdilli xalqların inteqrasiya məsələlərini gündəmə gətirir və bu istiqamətdə siyasi iradə ifadə edilir. Mütəxəssislərin inteqrasiya istiqamətində imkanların öyrənilməsi məsələsi bu baxımdan əhəmiyyətlidir və tədqiqat inteqrasiya istıqamətlərini öyrənməyə yönəldib

**6. Tarix üzrə fəlsəfə doktoru, baş müəllim N.N.İsmayılova**

**Mərhələ 3. Kitabxanalarda informasiya-kommunikasiya texnologiyaları vasitəsilə oxuculara xidmətin təşkili.**

Bu elmi-tədqiqat işində mövzu ilə əlaqədar mövcud materiallara, nəzəri ədəbiyyata və digər sənədlərə əsaslanaraq, konkret faktlara istinad edərək korporativ şəbəkələrin, elektron kitabxanaların və elektron kataloqların cəmiyyətin formalaşmasındakı rolu, korporativ kitabxana informasiya şəbəkəsi avtomatlaşdırılmış kitabxanaların könüllü konsorsiumu əsasında yaradılır.

**7.Texnika üzrə fəlsəfə doktoru N.Ə.Həsənova**

**Mərhələ 3. Rəqəmsal kitabxanaların informasiya sistemi kimi fəaliyyəti.**

Elmi-tədqiqat işində müasir rəqəmsal kitabxanaların xarakterik xüsusiyyətləri əks edilmiş, informasiya-kommunikasiya texnologiyalarının kitabxanalara tətbiqi məsələlərinə baxılmışdır. Tədqiqat işində elmi biliklərin

translyasiyası mexanizminə araşdırılmışdır. İnformasiyalaşdırılmış cəmiyyətdə böyük həcmli elmi informasiyanın toplanması, təsnifatı və ötürülməsi üsulları araşdırılmışdır. İnformasiyanın kəmiyyət xarakteristikaları tədqiq edilmişdir. Tədqiqat işində həmçinin informasiyanın qorunması problemləri araşdırılmışdır.

**8. Müəllim C.R.Şirinov**

**Mərhələ 3. Elmi kitabxanalarda informasiyalaşdırmanın inkişaf perspektivləri.**

Tədqiqat mövzusunda kitabxana proseslərinin müasir vəziyyətinə toxunulmuşdur. Kitabxanaların informasiyalaşdırılmasının gələcək perspektivləri barəsində məlumat verilmişdir. Bu sahədə Qərb ölkələrində dərc olunan məqalələr təhlil olunmuşdur. Gələcəyin texnologiyası olan süni intellekt və ekspert sistemlərinin kitabxanalarda tətbiqi perspektivləri barəsində məlumat verilmişdir. Sual-cavab sistemləri adlı məruzəylə konfransda çıxış etmişdir.

**9. Müəllim H.O.Zeynalova**

**Mərhələ 3. Respublika Elmi Tibb Kitabxanası müstəqillik illərində (1991-2015).**

Tədqiqatın məqsədi: Azərbaycanın informasiya məkanında Respublika Elmi Tibb kitabxanasının yerini müəyyən etməkdən və kitabxananın fəaliyyətinə dair sənədləri, məlumatları, faktları təhlil edib elmi dövriyəyə daxil etməkdən ibarətdir.

**10. Müəllim Sevda Məmmədova**

**Mərhələ 3 Azərbaycan ali məktəb kitabxanalarında oxuculara elektron vasitələrlə xidmət.**

Tədqiqat işinin məqsədi Azərbaycan ali məktəb kitabxanalarının elektron vasitələrlə təchizatı problemini araşdırmaq və bu problemlərin aradan qaldırılması yollarını müəyyənləşdirmək, oxuculara elektron vasitələrlə xidmətin təşkilini daha da təkmilləşdirməkdən ibarətdir.

Tədqiqat işinin əsas nəticəsi kimi Azərbaycanda ali məktəb kitabxanalarının elektron vasitələrlə xidmət sahəsindəki fəaliyyətlərini araşdıraraq, bu sahədə mövcud olan problemlərin qruplaşdırılması və bu problemlərin həlli üçün tövsiyələrin işlənib hazırlanması nəzərdə tutulmuşdur.

## 6. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI

***(Dərc olunmuş elmi işlər (məqalə, tezis), monoqrafiyalar (annotasiyası), dərslik və dərs vəsaitləri haqqında məlumat (kitablar əlavə olunmaqla)***

| № | Mövzunun, işin adı | Rəhbər və icraçılar | Nəşriyyatın, jurnalın və.s. adı | qeyd |
|---|---|---|---|---|
| 1 | Ənənəvi və elektron kitabxanaşünaslıq | Xələfov A.A. Əhmədov E.Y. | Kitabxanaçılıq və informasiya. Elmi-nəzəri və təcrübi-metodik jurnal. №2 (23) Bakı-2017 s. 7-14 | Məqalə |
| 2 | Bakı Dövlət Universitetinin “Fəxri professor”u, Əməkdar elm xadimi Abuzər Xələfovun -85 illik yubiley təntənəsində çıxışı | Xələfov A.A | Kitabxanaçılıq və redaktor sənəti. Elmi-nəzəri və təcrübi-metodik jurnal. №-1. Bakı.-2017. S.105-111 | Məruzə |
| 3 | Elektron sənəd dövriyyəsi sistemlərində informasiyanın təhlükəsizliyi problemi | Qurbanov A. | Kitabxanaçılıq və redaktor sənəti.Elmi-nəzəri və təcrübi-metodik jurnal. №-1. Bakı.-2017. S.7-12 | Məqalə |
| 4 | VEB-arxivlərin informasiya resursları | Qurbanov A. | Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94 illiyinə həsr olunmuş “Heydər Əliyev və Azərbaycanda kitabxana işi” mövzusunda Respublika Elmi Konfransı, 2017, 10 may | Tezis |
| 5 | Kitabxana-informasiya fəaliyyətində senzura və məhdudiyyətlərin qiymətləndirmə meyarı | Qurbanov A.I. Kazımi P.F | Kitabxanaşünasliq və informasiya jurnalı: Elmi-nəzəri və praktiki jurnal. №2 (23) Bakı-2017 s.15-20 | Məqalə |
| 6 | “Fəxri professor” Abuzər Xələfov-85. Görkəmli kitabxanaşünas alimin yubileyi | Əhmədov. E.Y | Kitabxanaçılıq və redaktor sənəti. Elmi-nəzəri və təcrübi-metodik jurnal. №-1. Bakı.-2017. S.112-117 | Məqalə |
| 7 | Проблемы детского чтения в истории Азербайджанской педагогической мысли | Əhmədov E.Y. | Зборник педагогицесский науки Педагогичие науки. Украйни Вып. 1. XXVI. Том 1, 2017, стр.8-13. | |
| 8 | Multikulturalizm ənənələri kitabxana-informasiya infrastrukturunda | | Kitabxanaçılıq və redaktor sənəti. Elmi-nəzəri və təcrübi-metodik jurnal. №-(1)2. Bakı.-2017. S.66-73 | Məqalə |

| | | | | |
|---|---|---|---|---|
| 9 | Ənənəvi və elektron kitabxanaşünaslıq | | Kitabxanaçılıq və informasiya. Elmi-nəzəri və təcrübi jurnal. №2 (23) Bakı-2017 s. 7-14 | Məqalə |
| 10 | Elmi-texniki kitabxanaların sənəd informasiya təminatı | Məmmədov M. | Kitabxanaçılıq və redaktor sənəti. Elmi-nəzəri və təcrübi-metodik jurnal. №-1. Bakı.-2017. S.23-33 | Məqalə |
| 11 | Azərbaycan Respublikasında Elmi-texniki kitabxanaların inkişaf xüsusiyyətləri və informasiya axtarış sistemləri | Məmmədov M. | AMEA Əlyazmalar İnstitutu.-B.2017.№9 s.331-344. | Məqalə |
| 12 | Təhsilin inkişafında məscid və mədrəsə kitabxanalarının rolu | Məmmədov M. | Respublika Elmi metodik konfransının materialları.-B.:2017.-s.64-66 | Tezis |
| 13 | Кадровое обеспеченние научно-технических библиотек Азербаджана | Məmmədov M. | Научный журнал. Известия. Балтийской государственно и Академии Рыбопромыслового флота Калининград 2017 №1 с.87-92 | Məqalə |
| 14 | Elmi-texniki kitabxanalarda fondun uçotu və mühafizəsi | Məmmədov M. | H.Əliyev və Azərbaycanda kitabxana işi Res. Elmi. Konfrans. 2017.s.4-6 | tezis |
| 15 | Etno-mədəni mühit və Tatarıstan Milli Kitabxanasının fəaliyyəti | Kazımi P.F. | Kitabxanaçılıq və redaktor sənəti.Elmi-nəzəri və təcrübi-metodik jurnal. №-1. Bakı.-2017. S.34-38 | Məqalə |
| 16 | Senzura və məhdudiyyətlər kitabxana-informasiya fəaliyyətində | Kazımi P.F. | Bakı, BDU, sosial elmlər jurnalı. 2017.№2. c.135-141 | Məqalə |
| 17 | Kitabxanalar texnoloji sistem kimi. | Kazımi P.F. | Kitabxanaşünaslıq və informasiya. Elmi-nəzəri və təcrübi jurnal. 2017.№-1. s.35 | Məqalə |
| 18 | Kitabxana-informasiya fəaliyyətində senzura və məhdudiyyətlərin qiymətləndirmə meyarı | Kazımi P.F. | Kitabxanaşünaslıq və informasiya. Elmi-nəzəri və təcrübi jurnal. 2017.№-2. s.37 | Məqalə |

| | | | | |
|---|---|---|---|---|
| 19 | Sosyal kültürel ortamın oluşmasında kitap ve kütüphanelerin rolu | Kazimi P.F. | TC, Ankara, Türk Kütubhaneçilər Cəmiyyətinin jurnalı.- Türk Kütubhaneçiliyi 2017.№2.s.62 | Məqalə |
| 20 | Kitabxana-informasiya fəaliyyətində senzura və məhdudiyyətlərin qiymətləndirmə meyarı | Kazımi P.F. | Kitabxanaşünasliq və informasiya jurnalı: Elmi-nəzəri və praktiki jurnal №2 (23) Bakı-2017 s.15-20 | Məqalə |
| 21 | RFİD texnologiyasının kitabxana işində tətbiqi | İsmayılova N. | Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94 illiyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" mövzusunda Respublika Elmi Konfransı, 2017, 10 may, s. 10-12 | Tezis |
| 22 | Kitabxana xidmətlərinin müasir informasiya mühitinə adaptasiyası üsulları | İsmayılova N. | Kitabxana-informasiya fəaliyyəti və biliklər cəmiyyəti: inteqrasiya meylləri və çağırışlar" mövzusunda Respublika Elmi Konfransı, 2017, 22 dekabr, s. 15-17 | Tezis |
| 23 | "Library catalogs: existence and evolution forms" | İsmayılova N. | (with S.Khalafova) // "Гилея" научный вестник (Киев), 2017, выпуск 87 (№10), с.95-100 | Məqalə |
| 24 | Rəqəmsal kitabxanalarda informasiyanın qorunması problemləri. | Həsənova N. | Rəqəmsal kitabxanalarda informasiyanın qorunması problemləri. Kitabxanaşünaslıq və informasiya (elmi-nəzəri və praktiki jurnal), ISSN 2219-5882, Bakı-2017, №1 (22), səh 49-56. | Məqalə |
| 25 | Calculation of numerical characteristics of the solution of a heat conduction problem for a circular cylinder. | Hasanova N. | International congress on new trends in science, engineering and new technology. Barcelona, april 27-29, 2017, p.118-120 | Məqalə |
| 26 | İnformatikanın tədrisi | Həsənova N. | Əhmədov Qoşqar Teymur | Tezis |

| | | | | |
|---|---|---|---|---|
| | metodikasında innovativ texnologiyalar. | | oğlunun anadan olmasının 100 illik yubiliyinə həsr olunmuş “Riyaziyyat və mexanikanın aktual problemləri” adlı Respublika Elmi Konfransının materialları (02-03 noyabr 2017-ci il), səh. 59-61. | |
| 27 | Information technologies and security problems in digital libraries. | Həsənova N. | İnternational Conference on Multidisciplinary, Engineering Science, Education and Technology (IMESET’17 Bitlis) Turkey, p.260-265 | Məqalə |
| 28 | Paylanmış informasiya sistemlərində Z39.50 protokolu. | Həsənova N. | Kitabxanaşünaslıq və informasiya (elmi-nəzəri və praktiki jurnal), ISSN 2219-5882, Bakı-2017 | Məqalə |
| 29 | Sual-cavab sistemi və onun kitabxanalarda tətbiqi perspektivi | Şirinov C. | Kitabxanaçılıq və informasiya. Elmi-nəzəri və təcrübi-metodik jurnal. №-1. Bakı.-2017. S.74-76 | Məqalə |
| 30 | Bulud texnologiyasının kitabxanalarda tətbiqi məsələlləri | Şirinov C. | Kitabxana-informasiya fəaliyyəti və biliklər cəmiyyəti: inteqrasiya meylləri və çağırışlar” mövzusunda Respublika Elmi Konfransı, 2017, 22 dekabr | Tezis |
| 31 | Tibbi elmi informatika və kitabxanalar | Zeynalova H. | Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94 illiyinə həsr olunmuş “Heydər Əliyev və Azərbaycanda kitabxana işi” mövzusunda Respublika Elmi Konfransı, 2017, 10 may, s. | Tezis |
| 32 | Tibbi kitabxanalarının meydana gəlməsi və təşəkkülü tarixindən | Zeynalova H. | Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal,2017.-№ 4 (104) s. 546-549. | Məqalə |
| 33 | Müstəqillik illərində Azərbaycan Respublikası Elmi Tibb Kitabxanasının informasiyalaşdırılması və | Zeynalova H. | Kitabşünaslıq və redaktor sənəti. Elmi-nəzəri və təcrübi jurnal, 2017.-№1 (4), s.92-96. | Məqalə |

| | | | | |
|---|---|---|---|---|
| | mütəxəssislərə kitabxana-informasiya xidmətinin xüsusiyyətləri | | | |
| 34 | The role of books and libraries in the formation of the personality of Nizami Ganjavi | Mammadov E. | ADMİU; «Müqayisəli ədəbiyyatşünaslığın aktual problemləri»: elmi-nəzəri (04 aprel 2017), Bakı, 2017, s. 159-161. | Tezis |
| 35 | Perfect connoisseur of his profession | Mammadov E. | «Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal», 2017, yanvar-aprel, № 1(22), s. 77-81, ISSN: 2219-5882 | Məqalə |
| 36 | «Sənəd-informasiya elmləri» və onun struktur quruluşu | Mammadov E. | // BDU; Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunub «Heydər Əliyev və Azərbaycanda kitabxana işi» 10 may 2017), Bakı: Mütərcim, 2017, s. 12-16. | Tezis |
| 37 | Fasiləsiz təhsilin formaları | Əliyeva A.S. | Kitabxana-informasiya fəaliyyəti və biliklər cəmiyyəti: inteqrasiya meylləri və çağırışlar" mövzusunda Respublika Elmi Konfransı, 2017, 22 dekabr. | Tezis |
| 38 | Fasiləsiz təhsilin təşkili və təkmilləşməsində kitabxana-informasiya mühitinin formalaşması | Əliyeva A.S. | Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev və kitabxana işi" mövzusunda Respublika Elmi Konfransının Tezisləri.- Bakı, Mütərcim, 2017.- s.19-24. | Tezis |

## 7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR.

Kitabxanaşünaslıq kafedrasının əməkdaşları müntəzəm olaraq Türkiyə və Rusiya, həmçinin ABŞ və Avropa ölkələrinin təhsil müəssisələrinin kitabxanaları ilə on - line formasında əlaqə saxlayırlar. Eyni zamanda kafedra əməkdaşlarının Rusiya Federasiyasının və Gürcüstan Respublikasının statuslu jurnallarında elmi məqalələri dərc edilmişdir. Konkret olaraq Kitabxanaşünaslıq kafedrasının müdiri dos. E.Y.Əhmədovun Ukraynanın Xerson Universtetinin elmi jurnalında "Azərbaycan pedaqoji fikir tarixində uşaq mütaliəsi problemi" adlı rus dilində məqaləsi nəşr olunmuşdur. Həmçinin dos. P.Kazıminin Türkiyə Respublikasında elmi məqaləsi nəşr olunmuşdur.

## 8. ELMİ-TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ

Kitabxanaşünaslıq kafedrasında görülən elmi tədqiqat işlərinin nəticələrinin bilavasitə respublikamızın bir çox kitabxanasında, o cümlədən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında, AMEA Mərkəzi Elmi Kitabxanasında, BDU Elmi Kitabxanasında, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında, eləcə də başqa universal elmi və universal kütləvi kitabxanalarında tətbiq edilməsi tövsiyə olunur.

Kitabxanaşünaslıq kafedrasının nəzdində fəaliyyət göstərən "Kitabxana işinin kompüterləşdirilməsi" elmi-tədqiqat laboratoriyası Bakı Dövlət Universitetində təhsilin informasiya bazasının təminatına xidmət edir.

Qeyd etmək lazımdır ki, laboratoriyada elektron tədris fondunun yaradılması ilə bağlı əldə olunan nəticələr BDU-nun Elmi Kitabxanasının iş təcrübəsində tətbiq olunur.

## 9. PATENT VƏ İNFORMASİYA İŞLƏRİ

2017-ci ildə Kitabxanaşünaslıq kafedrasında patent və informasiya işləri sahəsində kafedra əməkdaşlarının kafedranın profili üzrə müəyyən işləri planlaşdırılır. Patent və informasiya işlərinə dair kitabxanaşünaslıq kafedrasında axtarışlar aparılır və bu sahədə qabaqcıl təcrübənin öyrənilməsinə cəhd edilir.

## 10. DÖVLƏT PROQRAMLARININ TƏTBİQİ

Kitabxanaşünaslıq kafedrasının əməkdaşları 2017-ci ildə Azərbaycan Respublikasında elmi-tədqiqat işlərinə dair islahatlar üzrə Dövlət Proqramının" həyata keçirilməsi ilə bağlı tədbirlər planında nəzərdə tutulan "Ali təhsil müəsisələrində elektron kitabxanalarının yaradılması" tədbirinin icrası üçün Bakı Dövlət Universiteti Elmi Kitabxanasında "Kitabxanaların kompüterləşdirilməsi" elmi tədqiqat laboratoriyası ilə birlikdə Elektron kitabxananın yaradılması ilə əlaqədar müəyyən işlər görürlər.

Həmçinin kafedra əməkdaşları milli təhsil strategiyasının tələblərinə uyğun olaraq elmi tədqiqat işləri yerinə yetirirlər.

## 11. FAKÜLTƏDƏ KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI

Hesabat ilində Kitabxanaşünaslıq kafedrasının məsləhətçisi professor Abuzər Xələfov və kafedranın əməkdaşları respublikamızın ictimai-siyasi və elmi-mədəni həyatında fəal iştirak etmişdir.

Kitabxanaçılıq-informasiya fakültəsində may ayında Ümummilli Lider H.Əliyevin anadan olmasının 94 illiyinə həsr olunmuş "H.Əliyev və Azərbaycanda kitabxana işi" adlı Respublika Elmi Konfransında kitabxanaşünaslıq kafedrasından 9 əməkdaş məruzə ilə çıxış etmişdir.

"Kitabxana–informasiya fəaliyyəti və fənlərarası inteqrasiya" mövzusunda Beynəlxalq elmi konfrans keçirilmişdir.

Dekabr ayında "Müasir informasiya cəmiyyətində kitabxanaşünaslığın müasir problemləri" adlı konfrans keçirilmişdir. Konfrans üçün kafedradan 12 tezis tövsiyə edilmişdir.

## TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRLƏRİN) ELMİ-TƏDQİQAT İŞLƏRİ (KONFRANSDA İŞTİRAKI)

"Kitabxanaşünaslıq kafedrasında tələbələrin, magistrantların, dissertantların elmi-tədqiqat işinə cəlb edilməsi sahəsində innovativ işlər aparılır. Kafedra nəzdində fəaliyyət göstərən "Kitabxanaşünaslıq dərnəyi"nin xətti ilə bakalavriatlar TEC-in iclasında məruzə edirlər. Tələbələr kafedra əməkdaşlarının rəhbərliyi altında məruzələr hazırlayırlar. BDU-nun rektorunun müvafiq əmrinə əsasən tələbələri elmi tədqiqat işlərinə hazırlamaq məqsədilə fəal tələbələr kafedranın aparıcı dosentlərinə təhkim olunmuşlar. Kafedranın dissertant və doktorantları Əməkdar elm xadimi, BDU-nun Fəxri professoru A.A.Xələfovun rəhbərliyi altında elmi-tədqiqat işlərini müvəffəqiyyətlə yerinə yetirirlər. Kitabxanaşünaslıq kafedrasında iki ixtisaslaşma -"kitabxanaşünaslıq", "kitabxana informasiya texnologiyaları" üzrə magistrantlar kafedranın aparıcı dosentlərinə təhkim olunmuşlar.

Kafedranın müdiri dos. E.Y.Əhmədov Tarix fakültəsinin rəhbərliyinin dəvəti ilə Tarix fakültəsində keçirilən "Kitaba həvəs necə yaranır?" başlıqlı tələbələrin konfransında məruzə ilə çıxış etmişdir. Beləliklə, kitabxanaşünaslıq kafedrasının digər fakültələrlə əməkdaşlığı get-gedə genişlənir.

## 12. KAFEDRADA ELMİ VƏ ELMİ-PEDAQOJİ KADRLARIN HAZIRLANMASI

2017-ci ildə Kitabxanaçılıq-informasiya fakültəsində, o cümlədən Kitabxanaşünaslıq kafedrasında elmi və elmi-pedaqoji kadrların hazırlanması diqqət mərkəzində olmuşdur. Cari tədris ilində Kitabxanaşünaslıq ixtisası üzrə təhsil alan doktorant, dissertant və magistrantlar, onların mövzuları və elmi rəhbərləri haqqında məlumat belədir:

Kafedranın dissertantlarından E.Zərbəliyeva, C.Şirinov, N.Hüseynova müddətləri başa çatdıqlarına görə müdafiə hüquqları saxlanılmaqla dissertanturadan xaric olunmuşlar.

Kafedranın əməkdaşlarından baş müəllim N.İsmayılova, müəllim H.Zeynalova, müəllim C.Şirinov pedaqoji kadrların hazırlanması məqsədilə milli kitabxanaya 1 ay müddətinə stajkeçməyə göndərilmişlər.

1. Dissertant Məmmədova Sevda İsrafil qızı "Ali məktəb kitabxanalarında oxuculara elektron informasiya vasitələri ilə xidmətin təşkili" (Elmi rəhbər: prof.A.Xələfov) adlı dissertasiyası.

2. Dissertant Həsənova Aysel Vagif qızı "Müstəqillik illərində dövlət qulluqçularına kitabxana-informasiya xidmətinin müasir problemləri (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının iş təcrübəsi əsasında /2003-2015/)" adlı dissertasiyası (Elmi rəhbər prof. A.A.Xələfov)

3. Hacıyeva Mələkxanım Məmməd qızı "Müstəqillik illərində Azərbaycan Milli Kitabxanasının beynəlxalq əlaqələri" adlı dissertasiyası (Elmi rəhbər prof.A.A.Xələfov)

4. Dissertant Quliyeva Vəfa Bahadur qızı "Müstəqillik illərində Azərbaycan Respublikası kənd təsərrüfatı kitabxana şəbəkələrində oxuculara kitabxana informasiya xidmətinin təşkili /2000-2014/" adlı dissertasiyası (Elmi rəhbər prof.A.A.Xələfov)

Kitabxanaşünaslıq kafedrası üzrə doktorluq dissertasiyası üzərində işləyən müəllimlərin fəaliyyəti də bu il ərzində müvəffəqiyyətli olmuşdur. Bunlardan:

1.Pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Əhmədov Elcin Yusif oğlu** "Müstəqillik illərində Azərbaycanda uşaqlara və gənclərə kitabxana xidməti" adlı doktorluq dissertasiya mövzusu ( Tarix elmləri doktoru, professor,

Əməkdar elm xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademyasının akademiki, doktorluq dissertasiya üzrə məsləhətçi A.A.Xələfov)

2.Pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Məmmədov Mehmanəli Əkbər oğlu** "Müstəqillik illərində elmi-texniki kitabxanalarda mütəxəssislərə kitabxana informasiya xidmətinin optimallaşdırılması problemləri" adlı doktorluq dissertasiya mövzusu (Tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, doktorluq dissertasiyası üzrə məsləhətçi A.A.Xələfov)

3. Tarix elmləri üzrə fəlsəfə doktoru, dosent **Kazımi Pərviz Firudin oğlu** "Türk xalqlarının kitab və kitabxana mədəniyyəti" adlı doktorluq dissertasiya mövzusu (Tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, doktorluq dissertasiyası üzrə məsləhətci A.A.Xələfov)

4. Fizika riyaziyyat üzrə fəlsəfə doktoru, dosent **Qurbanov Azad İsa oğlu** "İnformasiya cəmiyyətində kitabxanacılıq informasiya təhsilinin informasiyalaşdırılmasının nəzəri problemləri (Xarici və respublika ali və orta ixtisas təhsil müəssisələrinin iş təcrübəsi əsasında)" adlı doktorluq dissertasiya mövzusu (Tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, doktorluq dissertasiyası üzrə məsləhətçi A.A.Xələfov)

Kitabxanaşünaslıq kafedrası üzrə magistratura şöbəsində təhsil alanların mövzuları və elmi rəhbərləri aşağıdakı kimi təsdiq edilib:

**I kurs əyani şöbə üzrə:**

1. Həsənli Könül İmamverdi qızı. "Respublika kitabxanalarında kitabxana -informasiya texnologiyalarının layihələşdirilməsi, planlaşdırılması və tətbiqi vəziyyəti". Dos. E.Y.Əhmədov
2. Qurbanova Şərqiyyə Asif qızı. "Kitabxana -informasiya fəaliyyətində RFİD texnologiyalarının tətbiqi məsələləri". Dos. A.İ.Qurbanov
3. Mahmudova Sevinc Ağamoğlan qızı. "İnformasiya cəmiyyəti şəraitində kitabxana-informasiya fəaliyyəinin qarşılıqlı əlaqələri və inteqrasiya prosesləri". Dos. A.İ.Qurbanov
4. Əsgərov Firudin Şakir oğlu. "Ənənəvi kitabxana – informasiya proseslərinin avtomatlaşdırılmasının müasir innovativ metodları". Dos. P.Kazımi
5. Ağamalıyeva Ləman Eldar qızı. "Kitabxana-informasiya sistemlərində Web texnologiyalarının tətbiqi" . Dos. N.Həsənova

**II kurs əyani şöbə üzrə:**

1. Şahmərdanov İlkin. “Regionun sosial-iqtisadi sistemində kitabxanaların yeri və rolu (Quba rayon Mərkəzləşmiş kitabxana sisteminin materialları əsasında. 1991-2016-cı illər)” prof. A.Xələfov.

1. Nəbiyev Sənan. “Z39.50 protokolu və avtomatlaşmış kitabxanalarda biblioqrafik informasiya mübadiləsi”. dos. A.Qurbanov.

## 13. DİSSERTASİYA MÜDAFİƏSİ VƏ DİSSERTASİYA ŞURALARININ FƏALİYYƏTİ

2017-cı ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Kommisiyasının 2 dekabr 2016-cı il tarixli 188 saylı əmrini əsas tutaraq BDU-da Əməkdar elm xadimi, Fəxri professor A.A.Xələfovun rəhbərliyi altında Birdəfəlik Müdafiə Şurası yaradılmışdır. Kitabxanaşünaslıq kafedrasının müəllimi Məmmədov Eldəniz Elman oğlu “M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondu: taixi, müasir vəziyyəti, oxuculara xidmət və inkişaf perspektivləri (1923-2007-ci illər)” mövzusunda 3356.01 - “Kitabxanaşünasliq, bibiloqrafiyaşünaslıq və kitabşünaslıq” ixtisasında tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işini müdafiə etmişdir.

Eyni zamanda qeyd etmək lazımdır ki, prof.A.Xələfovun rəhbərliyi altında Azərbaycan Milli Kitabxanasının əməkdaşı A.Abdullayeva da AMEA-da yaradılmış Birdəfəlik Dissertasiya Şurasında müdafiə etmişdir,

Fərəhli hal kimi qeyd etmək lazımdır ki, 2017-ci ildə Əməkdar elm xadimi BDU-nun Fəxri professoru A.A.Xələfovun rəhbərliyi altında kafedranın əməkdaşları E.Məmmədov, N.İsmayılova və Milli kitabxananın əməkdaşı A.Abdullayeva fəlsəfə doktoru üzrə təsdiqlərini almışlar. Bu da Kitabxanaşünaslıq kafedrasının 2017-ci il üçün elmi-tədqiqat sahəsindəki fəaliyyətinin səmərəlilik meyarında əsaslı təsir etmişdir.

## 14. ELMİ AVADANLIQLAR HAQQINDA MƏLUMAT
***(Cədvəl 16)***

## KİTABXANAŞÜNASLIQ KAFEDRASI ÜÇÜN LAZIM OLAN AVADANLIQLAR

| | *Avadanlıqlarnın adı* | *Avadanlığın sayı* | *Avadanlıqların təqribi qiyməti (manatla)* |
|---|---|---|---|
| 1. | Kompüter dəsti<br>Dual Core 2.6, Asus Hdd 250 Qb, DVD RW, 2 Qb RAM, VCD 512, Modem, Monitor 17', mause, klaviatura. | 7 | 585x7=4095 |
| 2. | Printer Canon LBP 3000 – A12 katrici ilə<br>HP Lazer Jet 1200 | 1 | 200<br>140 |
| 3. | Skaner A4 | | 100 |
| 4. | Kseroks Canon Toshiba | 1 | 250 |
| 5. | Proyektor<br>Dell | 1 | 500<br>1000 |
| 6. | UPS-daimi qidalandırma qurğusu Triplate | 7 | 150x7=1050 |
| 7. | HUB 8-lik Switch | 1 | 80 |
| 8. | Dəftərxana ləvazimatları (kağız, qələm, yapışqan, skoç və s.) | | |

## 15. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR

1. Kitabxanaşünaslıq kafedrası Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il tarixli 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi haqqında tədbirlər planı hazırlamışdır. Bu plana əsasən 2018-2020-ci illərdə Kitabxanaşünaslıq üzrə elmi-tədqiqatların mərhələli təşkili prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, kitabxana-informasiya təminatının təkmilləşdirilməsinə kömək edən elmi-tədqiqat işlərinin aparılmasının təmin edilməsi, tələbə və magistrantlar üçün elmi konfransların təşkilinin möhkəmləndirilməsi, kitabxanaşünaslıq fənlərinin tədrisində informasiya və telekommunikasiya vasitələrinin tətbiqinin təmin olunması,

kitabxanaşünaslıq fənlərinin tədrisinin yaxşılaşdırması məqsədilə fənlərin elektron məlumat bazasının yaradılması, BDU-nun elektron kitabxanasının təşkilində kafedranın iştirakının təmin edilməsi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Kafedranın qarşısında duran əsas vəzifələrdən biri ölkədə və xaricdə Kitabxanaşünaslıq mərkəzləri ilə əlaqələrin gücləndirilməsi, Boloniya prosesinə uyğun olaraq kitabxanaşünaslıq fənlərinin metodik təminatının yaxşılaşdırılması, kafedrada nəzəri seminarların işinin canlandırılması və aparıcı mütəxəssislərin cəlb edilməsi praktikasının tətbiqi, tələbə elmi-tədqiqat işlərinin səviyyəsinin qaldırılmasıdır.

Kitabxanaşünaslıq kafedrası üzrə aparılan elmi-tədqiqat işlərinin nəticələri bilavasitə kitabxanaçılıq təhsili üzrə bakalavr və magistr pilləsi üzrə tədris prosesinin təkmilləşməsinə, elmi cəhətdən yenilənməsinə yönəlir. Digər tərəfdən, alınan ən mühüm nəticələr ölkənin iri informasiya mərkəzlərinin sahə üzrə fəaliyyətlərinin yaxşılaşmasına kömək məqsədilə müvafiq icra hakimiyyəti orqanlarına tövsiyə şəklində təqdim olunur.

Elmi-tədqiqat işləri nəticəsində əldə edilən müddəalar belə bir qərara gəlməyə imkan verir ki, Kitabxanaşünaslıq kafedrasının gələcək tədqiqat istiqamətlərinin "İnformasiya cəmiyyəti şəraitində Azərbaycanda əhaliyə kitabxana informasiya xidmətinin təşkilinin təkmilləşdirilməsi yolları (Problemlər, vəzifələr)" mövzusu üzrə uzunmüddətli perspektiv araşdırma kimi müəyyənləşdirilməsi məqsədəuyğundur.

**2.** Əsas nəticələrə və təkliflərə əlavə olaraq qeyd etməyi lazım bilirik ki, BDU-nun "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalının redaksiya heyəti keçən ildən başlayaraq təsisçi, prof. A.A.Xələfovun təşəbbüsü ilə Kitabxanaşünaslıq kafedrasının yerinə yetirdiyi elmi-tədqiqat işinin nəticələrinin çap olunmasını məqsədəuyğun hesab etmişdir.

Yekun olaraq qeyd etmək lazımdır ki, fakültənin aparıcı kafedrası olan Kitabxanaşünaslıq kafedrası və onun əməkdaşları 2017-ci ilə dair elmi-tədqiqat işlərini müvəffəqiyyətlə yerinə yetirmiş, 2018-cı il üçün isə elmi-tədqiqat işi sahəsində qarşıya qoyulan vəzifələrin əzmlə yerinə yetirilməsinə çalışaçaqlar.

**Kitabxanaşünasliq kafedrasının müdiri:** **dos.E.Y.Əhmədov**

# İNFORMASİYA CƏMİYYƏTİ VƏ ALİ KİTABXANAÇILIQ TƏHSİLİNİN İNFORMASİYALAŞDIRILMASI

**QURBANOV A.İ.**
***Bakı Dövlət Universiteti, Kitabxanaçılıq-informasiya fakültəsininin dekanı, dosent***

*Məqalədə təhsilin informasiyalaşmasının təyinatı və cəmiyyətin peşə və ümumi mədəniyyət səviyyəsinin artırılmasında İKT-nin aparıcı rolu təhlil olunur. İKT əsasında yeni tədris formaları və təhsil modelləri haqqında məlumat verilir.*

***Açar sozlər***: *İKT, təhsilin informasiyalaşması, alternativ təhsil modelləri, bölünmüş sinif modeli, müstəqil təlim modeli, "Açıq təlim+sinif" modeli.*

Müasir dövrümüzdə informasiya və kommunikasiya texnologiyaları (İKT) müasir təhsil mühitinin formalaşmasında, təhsilin təməl prinsiplərinin - humanizm, effektivlik, elmi tutumluluq, universallıq prinsiplərinin yerinə yetirilməsində, təhsil sisteminin təkmilləşməsində aparıcı rol oynayır. Məhz bu texnologiya hesabına təhsilin informasiyalaşması həyata keçirilir.

Təhsilin informasiyalaşması cəmiyyətin informasiyalaşdırılması proseslərinin uğurlu inkişafının ən mühüm şərtlərindən biridir. Çünki təhsil sferasında yeni informasiya mühitini formalaşdıran və özü də bu mühitdə yaşayan və işləyən adamlar hazırlanır və tərbiyə olunur.

Təhsildə informasiyalaşma özündə elm-təhsil informasiya mühitinin (ETİM) yaradılması prosesini əks etdirir. Bu proses təkcə zəruri təhsil sisteminin maddi-texniki bazasının inkişafı ilə deyil, alternativ təhsil modellərinin tətbiq edilməsi, məlumatlı təhsil mühitinin tətbiqi şəraitində prinsipcə yeni tədris mədəniyyətinin formalaşdırılması ilə əlaqəlidir. Alternativ təhsil modelləri öz növbəsində informasiya cəmiyyətinin tələblərinə uyğun yeni təhsil resurslarının (təhsil platformaları, mobil təhsil, təhsildə bulud texnologiyaları, sosial media) yaradılmasını zəruri edir, müəllimlərin yeni bilik və bacarıqlara yiyələnməsinə, təhsil prosesinin təşkilinə, təhsil statistikasına yeni yanaşmaları, tədris proqramlarının və qiymətləndirmə metodlarının İKT-dən istifadə edərək formalaşdırılmasını müəyyənləşdirir.

Təhsildə informasiyalaşma aşağıdakılara imkan yaradır:

- biliklərin inkişafı, alınması və yayılması xarakterini dəyişmək;
- təlim və tədris metodları məzmununun yeniləşdirilməsi üçün imkanlar açmaq;

- ümumi və peşə təhsilinin yaranmasına çıxışın genişləndirilməsi;

- müəllimlərə olan tələbatı azaltmadan, tədris prosesində onların rolunu dəyişmək (daimi dialoq, bilik və anlayış);

- ali məktəbə azad daxil ola bilmək (bir qayda olaraq, qəbul sınaqları olmadan - "açıq qapı" siyasəti);

- tədris prosesinin açıq planlaşdırılması (fərdi təhsil trayektoriyasının tərtibi - müvafiq proqramın tədris kursları sistemində modulların ardıcıllığı);

- müəllim və iştirakçıların, müəllim və təlim qrupunun, ayrıca iştirakçıların və təlim qrupunun qarşılıqlı əlaqəsi zamanı interaktiv ünsiyyət problemini həll etmək;

- tədris materialının mənimsənilməsi səviyyəsinə daimi nəzarəti təmin etmək;

- iştirakçıların müxtəlif telekommunikasiya şəbəkələrinin informasiya serverlərində və bazalarında saxlanılan tədris materialları və tədris informasiyaları ilə təmini.

Yeni təhsil aləti olan İKT bilavasitə təlim texnologiyalarının dəyişməsinə gətirib çıxarır. Bu gün İKT-nin tətbiqinə əsaslanan tədris prosesinin təşkilinin bir neçə formasını qeyd etmək olar.

1. "Birin-birə" təlim forması. Bir tələbənin müəllim və ya digər tələbə ilə qarşılıqlı münasibəti ilə xarakterizə olunan fərdiləşdirilmiş tədris;

2. "Birin-çoxa" təlim formasının əsasında tələbələrə müəllim və ya ekspert tərəfindən tədris materiallarının təqdimatı durur, bu zaman iştirakçılar təlim prosesində fəal rol oynamır;

3. "Çoxun-çoxa" təlimində isə tədris prosesinin bütün iştirakçıları arasında fəal qarşılıqlı əlaqə xarakterikdir.

Bu üsulların əhəmiyyəti və onlardan istifadənin intensivliyi təlim telekommunikasiya texnologiyalarının inkişafı ilə əhəmiyyətli dərəcədə artır. Başqa sözlə, müəllim və təhsil alan arasında deyil, iştirakçıların özləri arasındakı interaktiv qarşılıqlı əlaqə bilik almaq üçün mühüm mənbə olur.

Tədris prosesində İKT-nin tətbiqinin üç modelini xüsusi qeyd etmək lazımdır:

*Bölünmüş sinif modeli* - İKT müxtəlif yerlərdə olan tələbə qrupu, sinifi üçün nəzərdə tutulmuş tədris prosesinə tətbiq edilir. Təhsil ocağı və dekanat davamiyyətə nəzarət edir.

Bu modelin fərqli cəhətləri:

- dərslərə sinxron kommunikasiyalar daxildir, yəni tələbələr və müəllimlər müəyyən yerdə, müəyyən zamanda olmalıdır (ən azı, həftədə bir dəfə);

- iştirakçıların sayı birdən beşə və daha çox dəyişir; texniki, məntiqi və idrak çətinliyi daha çox sayda iştirakçının olmasından aslıdır;

- bu və ya digər yerdə olan müəyyən sayda tələbəyə təhsil müəssisələri xidmət göstərə bilər.

*Müstəqil təlim modeli* tələbəni müəyyən vaxtda müəyyən yerdə olmaq zərurətindən azad edir. Tələbələr kursu və tədris proqramını əhatə edən materiallar toplusu ilə təmin olunur, eləcə də rəhbərliyi həyata keçirən, suallara cavab verə bilən və işi qiymətləndirməyi bacaran fakültənin əməkdaşına müraciət etmək imkanı əldə edir. Metodist və tələbə arasındakı əlaqə telefon, kompüter, elektron və adi poçt istifadəsi ilə həyata keçirilir.

Müstəqil təlim modelinin fərqli cəhətləri:

- dərslər sinifdə keçirilmir: tələbələr proqramın geniş təlimatlarına uyğun olaraq müstəqil təhsil alır;
- tələbələr metodist və digər tələbələrlə qarşılıqlı əlaqədə olur;
- kursun məzmununun çatdırılması tələbənin istənilən münasib vaxtında öyrənə biləcəyi çap materialları, kompüter diskləri və ya videoyazılar vasitəsilə baş tutur.

*"Açıq təlim+sinif"* modelinə çap materialları və digər vasitələrin (məsələn, video-yazıları və ya kompüter diskləri) istifadəsi daxildir. Bu model tələbənin kursu digər tələbələrlə distant qrup daxilində interaktiv telekommunikasiya texnologiyaları ilə ünsiyyət edərək daha sürətli mənimsəməsinə imkan verir.

Bu modelin xarakteristikası:

- kursun məzmunu haqqında təsəvvür tələbələrin istənilən münasib vaxtında, fərdi və ya qrup halında öyrənəcəkləri çap materialları, kompüter diskləri və ya video-yazılar vasitəsilə baş verir.
- tələbələr müəllimin iştirakı ilə məşğələlər keçirilməsi üçün birlikdə vaxtaşırı toplaşır, bu zaman interaktiv texnologiyalardan istifadə edilir (bölünmüş sinif modelinə uyğun olaraq);
- sinifdə dərslər tələbələrin əsas anlayışları müzakirə etmək və müəyyənləşdirmək, məsələlərin həlli yollarını tapmaq, qrup işi, laboratoriya işi, modelləşdirmə və digər tətbiqi tədqiqatlar yerinə yetirilməsi üçündür.

İKT-nin tətbiqi ilə tədris prosesinin təşkilində bütün modellər üçün ümumi tələblər formalaşdırmaq olar.

1. Tədris materiallarının yayılması sisteminin təşkilində bütün iştirakçıların vaxtında onları alması çox vacibdir.
2. İmtahanlar həmin təhsil ocağında və ya xüsusi təşkil olunmuş imtahan məntəqələrində keçirilə bilər. Bütün yerlərdə imtahan verənlər üçün bərabər şərait təmin olunmalı və imtahanlara xüsusi müşahidə texniki sistemləri vasitəsilə nəzarət olunmalıdır. İKT-nin istifadəsi zamanı müəllimlərin xüsusi diqqət yetirməsi lazım olduğu təhsilin aşağıdakı pedaqoji aspektlərinə əməl edilməlidir:

- Müəllim, sadəcə, kursun məzmun xəttinin çatdırılması mexanizmi olmamalıdır. Müəllim ilk növbədə tələbələrinə kursun materialını öz anlayışı ilə qavramağı öyrənməyə kömək etməlidir;

- Təlim yüksək dərəcəli interaktiv prosesdir. Tələbələr özü ilə bilik gətirir. Müəllim və tələbə dialoqun tamhüquqlu iştirakçılarıdır və onların ünsiyyəti zamanı hər birinin bilikləri yenilənir, dəqiqləşdirilir, materialın mənimsənilmə dərinliyi yoxlanılır;

- Birgə təhsil tələbələrin kiçik qruplarda ümumi bir problem üzərində işlədiyi sistemli strategiyadır. Qrupda işləyərkən tələbələr passiv müşahidəçi qala bilməz, iştirakçıların hər birinin verdiyi töhfə əhəmiyyətlidir. Komanda işi insan fəaliyyətinin əksər sahələrinin daha geniş istifadə olunan təşkilati strategiyası olur.

## ƏDƏBİYYAT

*1. Ившина Г.В. О преемственности инновационных технологий в обучении .- Тез.докл. VI Всероссийской научн.-практ. конф. "Проблемы педагогики творческого саморазвития личности и педагогического мониторинга".- Казань, Изд-во Каз.ун-та,1998,с.49-51.*

*2. Исламшин Р.А., Габдулхаков В.Ф. О новых педагогических технологиях обучения.: Тез. докл. Второй Всерос. науч. конф. "Новые технологии обучения, диагностики и творческого саморазвития личности.-Йошкар- Ола, 1994, с.75.*

*3. Кларин М.В. Педагогическая технология в учебном процессе: (Анализ заруб. опыта). - М.: Знание, 1989. - 75с.*

*4. Кожевников Ю.В. Проектирование информационных технологий обучения. // Аналитические методы анализа технических систем: Межвуз. Сб. /Казан. Авиац. Ин-т.- Казань, КАИ,1992.*

# ИНФОРМАЦИОННОЕ ОБЩЕСТВО И ИНФОРМАТИЗАЦИЯ ВЫСШЕГО БИБЛИОТЕЧНОГО ОБРАЗОВАНИЯ

**КУРБАНОВ А.И.**

***РЕЗЮМЕ***

*В статье анализируется роль ИКТ в информатизации образования и поощрении профессиональной и общей культуры общества. На основе ИКТ предоставляется информация о новых формах обучения и образовательных моделях.*

***Ключевые слова***: *ИКТ, информатизация образования, модели альтернативного образования, сплит-модель класса, независимая модель обучения, модель «Открытый тренинг + класс».*

## INFORMATION SOCIETY AND INFORMATIZATION OF HIGHER LIBRARY EDUCATION

**KURBANOV A.I.**

***SUMMARY***

*The article analyzes the role of ICT in the education informatization and the promotion of a professional and general culture of society. Information on new forms of education and educational models is provided on the basis of ICT.*

***Key words***: *ICT, education informatization, alternative education models, split class model, independent learning model, «Open training + class» model.*

# UŞAQ VƏ GƏNCLƏRİN MÜASİR SORĞULARI VƏ İNFORMASİYA TƏMİNATI

**ƏHMƏDOV E.Y.**
***Bakı Dövlət Universiteti,***
***Kitabxanaşünaslıq kafedrasının müdiri, dosent***

*İstənilən dövrdə uşaq və gənclərin mütaliəsi bəşəri xarakter daşımışdır. Müasir informasiya cəmiyyətində bu tip oxucuların mütaliə səviyyəsinin yüksəldilməsinə yeni aspektdən yanaşılır. Məqalədə uşaq və gənclərin kitabxana-informasiya təminatının ödənilməsində ənənəvi metodlarla yeni innovativ metodların inteqrasiyası təhlil edilmişdir.*

***Açar sözlər:*** *müstəqillik, uşaq, gənclər, kitabxana, informasiya, oxucu*

Cəmiyyətdə müntəzəm olaraq gənc nəslin, o cümlədən uşaqların və yeniyetmələrin dünyagörüşünün düzgün formalaşmasına, mənəvi tərbiyəsinə və əsl şəxsiyyət kimi yetkinləşməsinə xüsusi diqqət yetirilir. Bu sahədə digər sosial institutlarla yanaşı, uşaq və gənclər kitabxanalarının üzərinə də mühüm və təxirəsalınmaz vəzifələr düşür.

Əlbəttə, gənc nəslin mənəvi tərbiyəsi problemi kompleks problemdir. O, ayrı-ayrı təsisatlar tərəfindən təkbaşına və fərdi şəkildə həyata keçirilə bilməz. Oxucuların mənəvi tərbiyəsinin səmərəli təşkilində və düzgün qurulmasında kitabxanaların yaxından iştirakı ümumi problemin yalnız bir hissəsidir. Belə ki, hərtərəfli inkişaf etmiş şəxsiyyətin mənəvi tərbiyəsi prosesinin faydalı və məzmunlu təşkili onların dünyagörüşünü genişləndirməyə imkan verən şəraitin yaradılmasını tələb edir.

Hazırda sosial-iqtisadi və elmi-mədəni həyatın bütün sahələrini inkişaf etdirmək üçün hər şeydən əvvəl bu mühüm işləri uğurla həyata keçirə bilən insanın müstəqil olması, onun təfəkkür tərzinin dəyişdirilməsi və sovet dövrünün psixologiyasından uzaqlaşdırılması zərurəti meydana çıxır. Bu vəzifələrin yerinə yetirilməsində böyük rolu olan kitabxanalar gənc nəslin mədəni-intellektual səviyyəsinin yüksəldilməsinə kömək göstərməli, digər elm, təhsil və mədəniyyət müəssisələri ilə birlikdə onların vətənpərvər vətəndaş kimi yetkinləşməsinə səmərəli təsir göstərən müəssisə olmalıdır.

Azərbaycan milli kitabxanaşünaslıq elminin banisi, Əməkdar elm xadimi, professor A.Xələfovun qeyd etdiyi kimi, müasir cəmiyyətdə hər cür informasiyanı cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan, informasiya resurslarını toplayıb saxlayan, onu əsrdən-əsrə, nəsildən-nəslə ötürən informasiya daşıyıcısı kimi fəaliyyət göstərən informasiya müəssisələrinin ən mühüm vasitəsi kitabxana sistemləridir.

Əlbəttə, böyüməkdə olan nəslin əsl vətəndaş kimi formalaşması və hərtərəfli inkişaf etmiş şəxsiyyətlər kimi yetişməsi prosesi bütün dövrlərdə cəmiyyətin və dövlətin diqqət mərkəzində durmuşdur. Hələ 1990-cı illərin ortalarında ulu öndər Heydər Əliyev üzünü gənc nəslin nümayəndələrinə tutaraq belə deyir: "Bizim borcumuz gənclərə daha çox qayğı göstərməkdən, onların təhsil və tərbiyəsi işini, yaşayış şəraitini daha da yaxşılaşdırmaqdan və gələcək nəsil üçün daha yaxşı həyat qurmaqdan ibarətdir. ... Bu, bizim və şəxsən mənim ali məqsədimdir... Sizin borcunuz yaxşı təhsil, tərbiyə almaqdan, öz istedadlarından səmərəli istifadə etməkdən, həyat fəaliyyətinə, gələcəyinizə yaxşı hazırlaşmaqdan, öz əxlaqınızla, təhsilinizlə, tərbiyənizlə valideynlərinizi, cəmiyyətimizi və bizi sevindirməkdən ibarətdir... Mən inanıram ki, Azərbaycanın bu gün yetişən gənc nəsli bütün keçmiş nəsillərdən daha da yüksəklərə qalxacaqdır. Çünki siz müstəqil Azərbaycanda, öz azad Vətəninizdə yaşayırsınız".

Uşaq kitabxanaları fondlarının elmin müxtəlif sahələrinə aid yayılmış ən yeni ədəbiyyatla müntəzəm komplektləşdirilməsi, mütaliə işinə elmi-pedaqoji istiqamət verilməsi, kitab təbliğinin müxtəlif kütləvi formalarından və mütərrəqqi üsullarından istifadə edilməsi, habelə kitabxanaların maddi-texniki bazalarının möhkəmləndirilməsi və onların getdikcə daha bacarıqlı kadrlarla təmin edilməsi uşaqların tərbiyə işinin düzgün qurulmasına və dünyagörüşlərinin formalaşmasına öz müsbət təsirini göstərmişdir. Bu cəhətdən Firidun bəy Köçərli adına Azərbaycan Dövlət Uşaq Kitabxanasının (ADUK) fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir.

Artıq yeni müasir binada fəaliyyət göstərən F.Köçərli adına ADUK-un kitab fondu, son illərin məlumatına görə, təxminən 210 min nüsxə, oxucuların sayı 25 min nəfərdən çoxdur.

Respublika Uşaq Kitabxanası fəaliyyətinin məqsədlərinə müvafiq olaraq fondunda olan Azərbaycan və dünya uşaq ədəbiyyatı nümunələrinin, bütün kitab sərvətlərinin, digər informasiya daşıyıcılarının etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasını və onların geniş təbliğini təmin edir, fondlarını gələcək nəsillər üçün qoruyub saxlamaqla bəşəriyyətin məcmu mədəniyyətinə töhfə verir, fəaliyyətində partiyalara, ictimai hərəkatlara və dini konfessiyalara münasibətdə neytrallığa riayət edir, zəruri resurslardan, materiallardan və informasiyadan bərabərhüquqlu istifadə prinsiplərinə riayət etməklə kitabxananın bütün istifadəçilərinə yüksək keyfiyyətli xidmətlər təqdim edir, Respublika Uşaq Kitabxanası filiallarının fondlarının komplektləşdirilməsini təmin edir, istifadəyə yararsız kitabları müəyyən olunmuş qaydada fonddan çıxarır, fiziki və hüquqi şəxslər tərəfindən kitabxanaya dəymiş ziyanın ödənilməsi haqqında qanunvericiliklə nəzərdə tutulmuş qaydada nazirlik və dövlət statistika

orqanları qarşısında hesabat verir, İnternet sistemi vasitəsilə respublika və xarici ölkələrin kitabxanaları ilə işini əlaqələndirir, fondun qiymətli nəşrlərinin üzə çıxarılması, uçotu və mühafizəsi ilə məşğul olur, kitabxananın fəaliyyəti ilə bağlı ərizə və müraciətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada baxılmasını təmin edir, kitabxana-informasiya sahəsində kadr siyasətini həyata keçirir.

Ölkəmiz qədim dövrlərdən başlayaraq milli-mənəvi sərvətləri, xüsusilə kitab mədəniyyəti ilə seçilmiş və zəngin kitabxanaları ilə tanınmışdır. Belə kitabxanalardan biri də xalqımızın gələcəyi olan uşaqlara kitabxana xidmətinin təşkili sahəsində böyük təcrübəsi və xidmətləri olan, respublikada uşaq kitabxanaları üzrə elmi metodik mərkəz sayılan F.Köçərli adına Respublika Uşaq Kitabxanasıdır. Kitabxana öz fəaliyyətində xalqımızın ümumilli lideri Heydər Əliyevin gələcəyimiz olan uşaqlar haqqında müdrik kəlamını rəhbər tutmuş, öz işini bu kəlamın həyata keçirilməsi uğrunda mübarizəyə həsr etmişdir.

Ümummilli lider Heydər Əliyev deyir: ”Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır”. Müstəqillik illərində uşaqlara kitabxana-informasiya xidmətini daha da yaxşılaşdırmağı, informasiya cəmiyyətinin tələblərinə cavab verməyi qarşısına məqsəd qoyan F.Köçərli adına Respublika Uşaq Kitabxanasnın kollektivi kitabxana işinin informasiyalaşdrılması və kitabxananın informasiya texnologiyası ilə təmin edilməsi sahəsində müəyən uğurlar qazanmışdır. Belə ki, kitabxanaya xeyli miqdarda kompüter, elektron məlumat vasitələri, texniki avadanlıq alınmış və bu vasitələrin kitabxana işinə tətbiq edilməsi kitabxana işini qismən də olsa, kompüterləşdirmişdir. Hazırda fondunda 260 000 nüsxə ədəbiyyat olan kitabxananın ən böyük nailiyyətlərindən biri uşaqlar üçün kompüter zallarının açılması olmuşdur. Çünki uşaqlar və yeniyetmələrin mütaliəsi, dünyagörüşünün formalaşması, qlobal informasiya mühiti ilə səmərəli təması proseslərinin uğurla nəticələnməsi Azərbaycan dövlətinin kitabxana-informasiya sahəsində gələcəyə yönəlmiş inkişaf konsepsiyasının tərkib hissələrindən biridir.

Uşaq tərbiyə sistemi və onun informasiya təminatı uşaqların təfəkkür tərzinin formalaşmasına əsaslı təsir edir. Uşaq kitabxanalarında iş prosesinin səmərəlilik meyarı onun texnoloji modelindən asılıdır. Bu modelin yaradılması cəmiyyətin informasiyalaşdırılmasının əsas tərkib hissələrindən biridir. Məhz buna görə də informasiyalaşdırılma elə bir vasitədir ki, bunun köməyi nəticəsində cəmiyyət özünü kifayət qədər tez dərk edir, bu vasitə ilə müasir şəraitdə lazım olan əsas məsələlər həllini tam və effektiv tapa bilir. İnformasiya-başqa sözlə faktiki verilənlər haqqında

biliklərin toplusu və onlar arasındakı asılılığı təyin edir və sonda isə cəmiyyətdə tam strateji resurslara çevrilir. İnformasiyalaşdırma prosesləri təbiətdə və cəmiyyətdə həmişə çox mühüm rol oynamış və özünəməxsus sistem yaratmışdır. İnsana məxsus xüsusiyyətlər-nitq, təsəvvür, istehsal, elm və incəsənət, idrak, dərketmə, yadda saxlama, informasiyanın işlənib hazırlanması və ötürülməsi çoxobrazlı və mürəkkəb proseslərdir. Yazının yaranması və yayılması, kitab çapı, dövri mətbuat, teleqraf, telefon, fotoqrafiya, sonralar radio, televiziya və kompüter texnikasi bu yolda ən mühüm amillərdən sayıla bilər.

Son illər müasir uşaq kitabxanalarında mütaliəyə marağı artırmaq məqsədilə ənənəvi və texnoloji iş xüsusiyyətləri tətbiq edilir. Lakin uşaq mütaliəsinin təşkilində ənənəvi metodlardan daha çox istifadə olunur. Çünki hər bir kitabxanada müasir texniki avadanlıq və kompüter yoxdur. Bu gün kitabxanada texniki vasitələrlə (internet, elektron resurs) informasiyanın əldə edilməsi oxucular üçün daha vacib və əlverişlidir. Sözsüz ki, kompüterdən istifadə yeni savad formasını tələb edir və kompüterlə gündəlik iş oxucuları xüsusi metodla informasiya almağa yönəldir. Belə yeniləşmə mütaliəyə rəhbərlik edən kitabxana işçilərindən xüsusi tədqiqatlar aparılmasını və tövsiyələrin işlənməsini tələb edir. Bundan əlavə oxucularda mütaliəyə həvəsi artırmaq məqsədilə müasir kitabxanalarda multimedia zalının yaradılması olduqca vacibdir. Multimedia zalını yaratmaq, kitabxanalarda elektron oxu zallarının təşkili, bütün kitabxanaların internetə qoşulması, əhalinin müxtəlif təbəqələrinin internet vasitəsi ilə informasiya alması kitabxanalar qarşısında duran öndə vəzifələrdəndir.

Multimedia-interaktiv proqram təchizatının idarəsi, müasir texniki və proqram vasitələrinin köməkliyi ilə vizual və audio effektlərin qarşılıqlı əlaqəsidir. Onlar mətn, səs, qrafik, foto, videonu rəqəmsal təsəvvürdə birləşdirir. Multimedia termini, əsasən əhəmiyyətli dərəcədə iri həcmli məlumatları saxlayan və bu informasiyanı daha tez əldə etməyə imkan verən informasiya daşıyıcılarının istifadəsidir.

Multimedia zalı ilk növbədə kitabxananın geniş və işıqlı otaqlarından birində təşkil olunur. Zalın sahəsinə görə kompüter stolları və informasiya daşıyıcıları üçün xüsusi rəflər yerləşdirilir. Rəflərə CD, DVD diskləri, audio, video kasetlər düzülür. Yaxşı olardı ki, zalın tavan hissəsindən aşağıya doğru proyektor və ekran quraşdırılsın, çünki zalda təqdimatların keçirilməsində proyektordan istifadə olunur. Bundan başqa zalda audio, video maqnitofonlar, kamera, skaner, printer, televizor, surətçıxarma aparatının yerləşdirilməsi də vacibdir. Multimedia zalının fondunda müxtəlif yaş qrupuna aid oxucular üçün müxtəlif sahələr üzrə

məlumat nəşrləri (“Ayna” Mətbu Evi), ensiklopediyalar, lüğətlər, soraq kitabları, dərs proqramı əsasında hazırlanmış disklər, məntiqi oyun diskləri yer tutmalıdır. Multimedia zalına ayrılmış xətt üzrə daimi internet şəbəkəsi qoşulmalıdır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında “Biləyən” multimedia zalı 2002-ci ildən fəaliyyət göstərir. Kitabxana audio-vizual nəşrlərin komplektləşməsinə böyük diqqət ayırır. Multimedia zalı əsasən məktəbəqədər və kiçik yaşlı oxuculara xidmət göstərir. Zalın fondunu əsasən musiqi, təbiət və nağıllarla bağlı CD, DVD diskləri təşkil edir. Hal-hazırda multimedia oxu zalında 240-dan çox nüsxəsi olan CD-ROM üzrə nəşrlər fondu var. Fondun formalaşdırılması əsasən oxucu sorğularına görə həyata keçirilir. Bura elmi-tədris proqramları, ensiklopediyalar, lüğətlər, məlumat kitabçaları, intellektual oyun proqramları daxildir. CD-ROM fonduna həmçinin daxildir: xarici dillərin öyrənilməsi üçün nəşrlər və elmlər üzrə bir sıra ensiklopedik nəşrlər. Fondda dərs vəsaitləri, tarixi şəxsiyyətlər və incəsənət üzrə nəşrlər geniş yer tutur. (Azərbaycan tarixi, Zoologiya, Kimya, Biologiya, Botanika, Heydər Əliyev, Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, “O olmasın, bu olsun”, “Arşın mal alan”, “Leyli və Məcnun” və s ). Böyük Britaniyanın OXFAM beynəlxalq humanitar təşkilatı layihə əsasında kitabxananın multimedia zalında bir çox kitabların, qəzetlərdə dərc olunmuş maraqlı hekayələrin, nağılların audio kasetlərindən ibarət fond (700 nüsxə) təşkil etmişdir. Dəfələrlə kitabxananın ərazisində yerləşən 42, 258, 36, 152 saylı məktəblərin ibtidai sinif müəllimləri sinifləri ilə birlikdə qrup halında “Danışan kitablar”a qulaq asmışlar.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası universal profilli kitabxana olub, 14 yaşından 21 yaşına qədər oxuyan orta məktəb şagirdlərini, texniki-peşə məktəblərində təhsil alan şagirdləri, ali məktəblərin, texnikumların, kolleclərin, liseylərin tələbələrini, işləyən gəncləri əhatə edir. Gənclərin tərbiyəsi ilə məşğul olan müəllimlər, tərbiyəçilər, ictimai təşkilatların işçiləri də bu kitabxananın kitabxana-biblioqrafiya və informasiya xidmətindən istifadə edə bilirlər.

Gənc oxucuların müasir kitabxana-informasiya texnologiyalarından istifadə onların informasiyalaşdırılmış cəmiyyət üçün layiqli kadr kimi yetişməsinə stimul verir. Müasir dövrdə informasiya texnologiyalarının xarakterik inkişaf istiqamətləri içərisində müxtəlif növlü, tipli və məzmunlu sənədləri mühafizə edən elektron informasiya daşıyıcılarının hazırlanması, sistemləşdirilməsi, mühafizəsi və şəbəkə rejimində uzaq məsafədən istifadəsi vacib yer tutur. Bütün bu istiqamətlər kompleks şəkildə elektron kataloqun,elektron kitabxanaların yaradılmasında və elektron kitabxana-

informasiya təminatının təşkilində ifadə olunur. Ənənəvi kitabxanalar kitabxanalararası abonement, ölkədaxili və beynəlxalq kitab mübadiləsi və bir neçə fərdi xidmət formaları baxımından həmişə açıq və şəbəkə sənəd-informasiya sistemi olmuşdur. Elektron kitabxanaların təşkili sahəsində elektron kataloqlar informasiya sahəsinin növ müxtəlifliyindən biri kimi kitabxanalararası informasiyalaşdırılmış əlaqələrin yaradılmasında və istifadəsində mühüm rol oynayır. Elektron kataloqların internetdə tətbiqi nəticəsində tələbatçı təkcə biblioqrafik informasiyanı istənilən vaxta, istənilən yerdən almaqla kifayətlənmir, eyni zamanda müxtəlif kitabxanalarda mövcud olan külli miqdarda qiymətli nəşrlərlə tanış olur. Elektron kataloq oxuculara şəbəkə vasitəsilə kitabxananın ədəbiyyat fondunun tərkibi ilə tanış olmağı, öz sorğularına operativ və kitabxanaçı biblioqrafın köməkliyi olmadan uzaq məsafədən cavab almağı, ədəbiyyatı uzaq məsafədən sifariş verməyi təmin edir. Elektron kataloq kitabxana fondunun real uçotunun, oxucuların statistikasının, maraq dairəsinin müəyyən edilməsinə, kitabın hərəkətinin izlənilməsinə, ədəbiyyat fondunun oxucu sorğusuna uyğun komplektləşdirilməsinə və yeniləşdirilməsinə, oxuculara müasir səviyyədə onlayn olaraq xidmət təşkil etməyə imkan verir.

Ölkəmizdəki kitabxanaların dünya informasiya məkanına daxil olmasının təminatı müvafiq dünya standartlarına uyğun olaraq elektron formaya keçirilməsi, elektron kataloqlarının yaradılması və cəmiyyətin inkişafına birbaşa təsir göstərən elektron mənbələrin sərbəst istifadəsinin təmini məqsədilə 06 oktyabr 2008-ci il tarixdə qəbul edilmiş "Azerbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn tədbirlər sırasında Kitabxanaların avtomatlaşdırılması, elektron kitabxana, elektron kataloq yaradılması, internet istifadəçilərinin elektron kataloqlara və digər biblioqrafik verilənlər bazasına çıxışını təmin üçün İRBİS 64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi 2009-cu il mart ayından kitabxanada tətbiq edilmişdir. Respublika Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 27 dekabr 2004-cü il tarixli sərəncamlarına əsasən nəşr olunan və kitabxananın kolleksiyasına daxil edilən kitabların təsviri elektron kataloqda verilmişdir.[6] Ümumilikdə Prezident hədiyyəsi olan 6 698 adda 26 656 nüsxə ədəbiyyat internetdə yerləşdirilərək oxucuların istifadəsinə verilmişdir və bu istiqamətdə işlər davam etdirilir. Real informasiya tələbatçılarının sorğularını cavablandırmaq məqsədilə "sorğu-cavab" rejimində gündəlik 23 qəzet və 12 adda jurnaldan məlumatlar elektron kataloqa salınmışdır.

2009-2010-cu illər ərzində İRBİS AKİS-ində 3834 adda 4696 nüsxə kitab elektron daşıyıcıya köçürülmüşdür. Bu illər ərzində Azərbaycan dilində 1514 adda, rus dilində 2244 adda, ingilis dilində 97 adda, digər dillərdə 26 adda, 3231 adda bircildli, 320 adda çoxcildli, 9 adda not, 5 adda səsyazma elektron kataloqa keçirilib. 5563 məqalənin analitik təsviri (180 jurnal məqaləsi, 5383-qəzet məqaləsi) elektron kataloqa keçirilmişdir. Hal-hazırda elektron kataloqda Yeni kitablar (2009-2012-ci illər) bazasında 6989 adda 25548 nüsxə ədəbiyyatın biblioqrafik təsviri toplanıb.Onlardan 1234 adda 1290 nüsxə Azərbaycan dilində, 477 adda rus dilində, 56 adda digər dillərdə olan ədəbiyyatdır. Elektron kartotekada (2009-2012-ci illər) 39606 qəzet materialının analitik təsviri toplanıb ki,onlardan 8806 adda Azərbaycan dilində, 2856 adda rus dilində olan qəzetlərdir. Retro kataloqda 796 adda 1500 nüsxə retro kitabın biblioqrafik təsviri verilib ki,onlardan 526 adda Azərbaycan dilində, 105 adda Azərbaycan dilində, lakin kiril qrafikası ilə, 421 adda olan kitab isə rus dilindədir.

Elektron resurslar bazasında 113 adda 673 nüsxə kitabın biblioqrafik təsviri verilib ki, onlardan 103 adda Azərbaycan dilində, 10 adda resurs rus dilindədir. İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemində elektron kartotekaya Azərbaycan və rus dillərində ümumilikdə 50 109 material yerləşdirilmişdir. Kitabxanada müasir informasiya texnologiyalarının tətbiqi məqsədi ilə kitabxananın veb portalında elektron kitabxana bölməsi yaradılmışdır. Bu bölmə vasitəsilə oxucu saytın bazasına daxil edilmiş ədəbiyyatın tam mətninə baxış həyata keçirilə bilər. Kitabxananın əməkdaşları tərəfindən hazırlanan “Yeni kitabların biblioqrafik informasiya göstəricisi” kitabı tammətnli formada kitabxanın saytının “Biblioqrafiq göstəricilər” bölməsinə yerləşdirilmişdir. Oxucular arasında yeni ədəbiyyatı təbliğ etmək məqsədilə tərtib olunan “Yeni kitabların biblioqrafik informasiya göstəricisi”ndə təqdim olunan ədəbiyyatlar əlifba sırası və dillər üzrə düzülmüşdür. Sonda köməkçi aparat kimi müəllifin əlifba göstəricisi və kitabları çap edən nəşriyyatların siyahısı verilmişdir. İstifadəçilər kitabxananın veb saytının “Dünya kitabxanaları internetdə” linki vasitəsilə dünyanın ən böyük kitabxanalarının veb saytlarına daxil olmaq və onların məlumat bazalarından istifadə etmək imkanına malikdirlər. Saytdan Almaniya Bundestaq Kitabxanasına, Rusiya Dövlət Kitabxanasına, Fransa Milli Kitabxanasına, Amerika Birləşmiş Ştatlarının Konqres Kitabxanasına və dünya əhəmiyyətli kitabxana saytlarına birbaşa linklər vardır. Yeni kitabların biblioqrafik siyahı və göstəricisi işçi vəziyyətindədir. İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemində sərlövhə və sərlövhəaltı Azərbaycan dilində tərcümə edilmişdir. 20 fevral 2012-ci il tarixdə kitabxanada kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması

işinin daha da səmərəli həyata keçirilməsində xüsusi xidmətlərə malik respublikada ilk Toplu Kataloqun və AZLİBNET Milli Kitabxana İnformasiya Mərkəzinin təqdimat mərasimi keçirilmişdir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə yaradılan bu layihənin əsas məqsədi kitabxanalarda elektron informasiya resurslarının yaradılması, istifadəçilərə təqdim edilməsi, qlobal informasiya şəbəkələrində kitabxanaların korporativ işinin təşkilidir. Mərkəzdə iki sistem fəaliyyət göstərir. 1-ci sistem VEB Mərkəz, 2-ci sistem isə Elektron Toplu Kataloqdur. Veb Mərkəz bütün kitabxana elektron kataloqlarının fasiləsiz işlənməsini təmin edir. Bura İRBİS-64 sisteminin istifadəçiləri olan şəhər və rayon kitabxanaları daxildir. AZLİBNET vasitəsi respublikada mövcud olan elektron resursların fasiləsiz və uzaq məsafədən idarə edilməsi sistemi yaradılıb. Mərkəz respublikanın bütün kitabxanaları ilə əlaqələr qurur.

Uşaq və gənclərin mütaliəsinin yeni istiqamətləri yeni metodlarının texnoloji modelini müəyyən edir ki, bu da kitabxana işinin dövlət siyasətinin prinsiplərində özünə yer tapır.

## ƏDƏBİYYAT

1. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik: 3 hissədə. h.1-2.-B.: Bakı Universiteti Nəşriyyatı, 2001.- 400 s.
2. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. Dərslik. 3 hissədə.h.3.-B.Bakı Universiteti Nəşriyyatı, 2003.-314 s.
3. Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.- B.:Azərnəşr, 2006.-312 s
4. Xələfov A.A., Əhmədov E.Y. Məktəb kitabxanaları Azərbaycanın müstəqilliyi şəraitində // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. - 2004. - № 1. - S. 3-14.
5. Əhmədov E.Y. Azərbaycanda Kitabxana informasiya işinin hüquqi bazası. (Dərs vəsaiti) Bakı.-2012. 212s.
6. Əhmədov E.Y. Gənclərin peşə oriyentasiyasının müəyyənləşdirilməsində gənclər kitabxanalarının rolu. Kitabxanaşünaslıq və informasiya jurnalı. 2010 №2.

## СОВРЕМЕННЫЕ ЗАПРОСЫ И ИНФОРМАЦИОННОЕ ОБЕСПЕЧЕНИЕ ДЕТЕЙ И МОЛОДЕЖИ

**АХМЕДОВ Э.Ю.**

***РЕЗЮМЕ***

*Во всех периодах детское и малодежное чтение выделялся глобальным характером. Современный этап определяет новый характер чтение. В статье рассматривается интегративные формы чтение как традиционными методами, так и современными в том числе использование ИКТ.*

***Ключевые слова****: независимость, детское, молодежные, библиотека, информация, читатель.*

## CONTEMPORARY REQUESTS AND INFORMATION SUPPORT FOR CHILDREN AND YOUTH

**AKHMEDOV E.Y.**

***SUMMARY***

*At any given time, children's and youth's readings transported human character. In the modern information society, approach from a new aspect raising of reading of this type of readers. The article analyzes the integration of new innovative methods with traditional methods library-information provision for children and youth.*

***Key words:*** *children, new innovative methods, information, reader.*

# RESPUBLİKA PATENT FONDUNDA SƏNƏDLƏRİN KOMPLEKTLƏŞDİRİLMƏSİ VƏ MƏLUMAT SİSTEMLƏRİNİN TƏŞKİLİ

**MƏMMƏDOV M.Ə.**
***Bakı Dövlət Universiteti,***
***Kitabxanaçılıq-informasiya fakültəsinin dekan müavini, dosent***
m.mehmanali@gmail.com

*Elmi məqalədə Respublika Patent Fondunun komplektləşdirilməsi, komplektləşdirmə mənbələri və oxucu qrupları haqqında məlumat verilmiş, son illərdə fonda daxil olan sənədlərin tərkibi açıqlanmışdır. Burada həmçinin oxuculara göstərilən patent informasiya xidməti, oxucuların sayı, tərkibi, fonda gəliş və Respublika Patent Fondu ilə bağlı digər məlumatlar da öz əksini tapmışdır.*

***Açar sözlər:*** *Respublika Patent Fondu, komplektləşdirmə mənbələri, komplektləşdirmə, fondun uçotu, patent tədqiqatların aparılması.*

1957-ci ildə keçmiş Azərbaycan SSR Nazirlər Soveti Mərkəzi Texniki Kitabxananın informasiya fəaliyyətinin gucləndirilməsi məqsədilə bu kitabxanın Respublika Elmi-Texniki Kitabxanasına çevrilməsi və ona rəhbərliyin Azərbaycan SSR Nazirlər Sovetinin Elm və Texika Komitəsinə verilməsi haqqında qərar qəbul etdi. Bu qərarla həmçinin Respubika Elmi-Texniki Kitabxanalarına metodik rəhbərlik bu kitabxanaya həvalə edildi (2,s.17). Kitabxananın Respublika Elmi-Texniki Kitabxanasına çevrilməsi onun xidmət miqyasını, fondunun profilini və oxucuların tərkibini də dəyişdirdi. Kitabaxanın fondu universal xarakter daşımağa başladı və surətlə artdı. Əgər kitabxana fondunda 1953-cü ildə 89.010 nüsxə kitab var idisə, onun sayı 1958-ci ildə 221.149 nüsxəyə çatmışdı (2.s.17-18).

RETK statusu aldıqdan sonra qarşısında duran vəzifələrə və funksiyalara uyğun olaraq kitabxanın yeni şöbə və bölmələri yaradılmış, filialları açılmışdır.

Kitabxananın informasiya fəaliyyətini gücləndirmək məqsədilə 1967-ci ildə Patent Fondu yaradıldı. Bu fondun yaradılması mütəxəssislərə informasiya xidmətini xeyli yaxşılaşdırdı və onların vaxtına qənaət etmək imkanı yartdı.

İxtisaslaşmış Patent Fondu dünyanın 35 ölkəsinin 27 dildə Beynəlxalq və Avropa patent idarəsinin sənədləri, həmçinin müəllif şəhadətnamələri ilə

komplektləşdirildi. Respublikada yegane fond olan Patent Fondundan ölkənin müəssisə və təşkilatları müvəffəqiyyətlə istifadə edirdilər (2,s.21).

Respublikanın müxtəlif sənaye sahələrində fəaliyyət göstərən idarə və müəssisələrin, təşkilatların və yaradıcılıqla məşğul olan ayrı-ayrı şəxslərin patent standart və normativ texniki sənədlərinə olan tələbatını ödəmək üçün yaradılan bu filiallar respublikada yeganə patent və standartlar fondudur. Hazırda Respublika Patent Fondu 27 dildə dünyanın 35 ölkəsinin Beynəlxalq və Avropa Patent idarələrinin sənədləri ilə komplektləşdirilir.

Respublika Patent Fondu beynəlxalq ixtira təsnifatının butun mövzu rubrikalarına görə çapdan çıxan muəllif şəhadətnamələri ilə (kağız daşıyıcıda mikrofilm və mikrofiş halında) komplektləşdirilmişdir.

RPF-in tərkibinə aşağıda göstərilən növlərdə patent sənədləri daxildir:

- Keçmiş SSRİ-nin patent sənədləri fondu (Dövlət İxtiraçılıq Komitəsinin rəsmi bülletenləri, muəllif şəhadətnamələri və patenlərinə verilən ixtira təsvirləri );
- Xarici ölkə sənədlərinin fondu (xarici patent idarələrinin rəsmi bülletenlərinin sürətləri və xarici ölkə patentlərinin ixtira təsvirləri mikrofilm, mikrofiş və kağız daşıyıcıda);
- Rus dilində xarici ölkə ixtiraları haqqında biblioqrafik və referativ məlumatları əks etdirən bülletenlər;
- Sənaye nümunələri haqqında məlumat materialları( ayrı-ayrı ölkələrin sənaye nümunələri fototekası, beynəlxalq təsnifata görə sənaye numunələrinin mövzu fototekası halında) patent lisenziyası, patent məlumatı, ixtiraçılığa aid rəsmi və normativ sənədlər;
- Keçmiş SSRİ və xarici ölkə sənədlərinə soraq-axtarış aparatı materialları( ixtira sənədlərinin göstəricisi, nömrəli sistemli adlı göstəricilər, kataloq və kartotekalar);
- İxtiraçılığa, patent hüququ və patent lisenziya məsələlərinə dair tədris, metodik və axtarış ədəbiyyatı;
- İxtiraçılıq və patentşünaslığa dair dövri nəşrlər;
-soraq, lüğət ədəbiyyatı (4;s.11).

Normativ-texniki sənədlər dövlət əhəmiyyəti daşıdıqlarına görə dövlət əhəmiyyətli müəssisələrdə qorunub saxlanılır. Bir çox xarici ölkələrin beynəlxalq və dünya miqyaslı müəssisələrində, təşkilatlarında - Ümumdunya Əqli Mulkiyyət Təşkilatı, Beynəlxalq Patent Sənədləri Mərkəzi, Beynəlxalq Axtarış Orqanı, “Dervent” şirkəti və s. normativ texniki sənədlər və biblioqrafik informasiya ehtiyatları qorunub saxlanılır. Azərbaycanda bu ehtiyatların əksər hissəsi milli səviyyəli sənəd fondlarında təmərküzləşmişdir: Respublika Elmi-Texniki kitabxansı, Respublika Standartlaşdırma və Metrologiya Mərkəzi, Respublika Normativ-Texniki Sənədlər Fondu,

Depozitar Muhafizə Fondu və s. Əlbəttə, respublikamızda normativ-texniki sənədlər üzrə biblioqrafik ehtiyatlar təkcə adı çəkilən qurumlarla məhdudlaşmır. Qeyd etdiklərimizdən əlavə, respublikamızın bir çox tədris, elmi-tədqiqat, sənaye müəssisələrində standartlaşdırma şöbələri, elmi-texniki kitabxanalar mövcuddur ki, burada da böyük həcmdə biblioqrafik ehtiyatlar vardır.

Respublika Patent Fondunun təşkilində ilkin mərhələ fonda daxil olmuş ədəbiyyatın komplektləşdirilməsidir. Fonda daxil olan ədəbiyyatlar bəzi spesifik xüsusiyyətləri ilə texniki ədəbiyyatın digər növlərindən fəqlənirlər. Bu sənədlərdə göstərilən rəqəmlər, verilən məlumatlar tamamilə düzgun olmaqla bərabər, texniki tərəqqinin inkişaf surəti ilə dəyişilir, əlavələr edilir və yeniləri ilə əvəz olunurlar.

Fondun komplektləşdirilməsi vahid tematik plan əsasında aparılır. Bu plan fondun tabe olduğu müəssisə və təşkilatın rəhbərliyi tərəfindən təsdiq edilir.

Fondun komplektləşdirilməsi 2 növə bölünür:

1. Cari komplektləşdirmə - burada yeni alınmış təsdiq edilən sənədlər nəzərdə tutulur;

2. Komplektləşdirməyə qədər - burada isə fonda daxil olunmamış sənədlərin əldə edilməsi nəzərdə tutulur.

Respublika Patent Fondunda komplektləşmənin düzgün təşkili üçün bir çox biblioqrafik mənbələrdən sistemli istifadə edilir. Bunlar aşağıdakılardır: məlumat kitabçaları, normativ-texniki sənədlərin kitabçaları və siyahısı, biblioqrafik göstəricilər, sifarişlərin blankları, nəşriyyatların tematik planları və s.

Respublika Patent Fonduna daxil olan hər bir sənədin uçotu aparılır. Uçot işi ümumi və fərdi uçotdan ibarətdir. Ümumi uçot-uçot kitabında aparılır. Ümumi uçot kitabı aşağıdakı hissələrdən ibarətdir:

1. Yeni daxil olanlar;
2. Çıxarılanlar;
3. Fondun dövriyyəsinin yekunu.

Fərdi uçot isə fonda daxil olan hər bir sənəd haqqında məlumat verir.

Müasir dövrdə Respublika Patent Fondunun komplektləşdirilməsi mənbələri dedikdə Azərbaycanda "Sənaye Mülkiyyəti" jurnalını, xaricdən isə təkcə Rusiyadan alınan "İxtiraçı və Rasyonalizator", "Beynəlxalq, ictimai və xüsusi hüquq" və "Patent və lisenziya intellektual hüquq" jurnallarını qeyd etmək olar.

1. ”Beynəlxalq ictimai və xüsusi huquq “(Международное публичное и частное право) jurnalı 2001-ci ildən 2 aydan bir nəşr edilir. İnsan hüquqları şəbəkəsinin formalaşması insan və vətəndaş hüquq və azadlıqlarının

qorunması, MDB ölkələrində və xaricdə insan və vətəndaş hüquq və azadlıqlarının qorunması jurnalın əsas məzmununu təşkil edir.

2000- ci illərin əvvəllərində "Ümumrusiya ictimai təşkilatı" Rusiya vergi ödəyicilər birliyi "sosial əhəmiyyətli layihənin nəticəsi" kimi insan hüquqları şəbəkəsinin formalaşması, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, MDB ölkələrində və xaricdə insan və vətəndaş azadlıqlarının qorunması məqsədilə Yaxın Şərq ölkələrində vətəndaşların hüquq və azadlıqlarının vəziyyətini müəyyən edən müstəqil monitorinq sisteminin yaradılmasına kömək edən yeni bir layihə hazırlamışdı.

Qonşu ölkələrdə vətəndaşların hüquqlarını qoruyan qeyri-kommersiya hüquq-müdafiə təşkilatlarını dəstəkləmək üçün layihə Moskvada, Simferopolda, Minskdə, Sevastopolda ictimai hüquqların qorunması ilə əlaqədar vətəndaş cəmiyyəti təşkilatlarınım nümayəndəliklərində təhsil seminarları təşkil edilmişdir.Buna misal olaraq jurnalın 2015-ci il 3-cü nömrəsi məzmununu nəzərdən keçirmək məqsədəuyğun olardı. Bura daxildir:

Xarici əlaqələrin qanunu;
Beynəlxaq iqtisadi qanun;
Beynəlxalq sahədə qanun;
Müqayisəli qanun;
Gənc alimin tribunası;
Jurnal ingilis və rus dillərində 5-50 səhifə həcmində çap edilib.

2. "İxtiraçı və Rasyonalizator" (Изобретатель и Рационализатор )

"İxtiraçı və rasyonalizator jurnalı" 1923-cü ildən nəşr edilir. İndiyə qədər 783 buraxılışı çapdan çıxmışdır.

Jurnalın məzmununu aşağıdakı məsələlər təşkil edir:

Beynəlxalq ixtiraların buraxılışı, faydalı model, sənaye nümunələri və innovativ proyektlər:

Beynəlxalq əmtəə nişanlarının buraxılışı " Əmtəə nişan-Lider";
Beynəlxalq elmi-təcrübi konfranslar;
İntellektual fəaliyyətin nəticələrinin təhlukəsizliyi;
Böyük rəqabət proqramı;
Elmi əyləncə proqramı.

Qeyd edilməlidir ki, jurnalın hər yeni buraxılışında yeni aktual mövzular öz əksini tapır. Bunu jurnalın 2015-ci il 2-ci nömrəsində görmək olar:

Kosmodrom yerinə Aerostat;
Yanğından qaçmaq;
Elmin iki məqsədi var: fayda və qabaqcadan görmək;
Əsgər nağıllarına davam;
İdxal nə ilə əvəz edilir;
Təhlükəsiz küncdən vurmaq;

Mikroinformasiya ;
İxtiralar;
Problematika;
Açıq tribuna ;
Reklam hüquqları;
Sərgilər.

3.”Patent və lisenziya intellektual hüquq” jurnalı (Патенть и Лицензии)

“Patent və lisenziya intellektual hüquqları” jurnalı insanların fəaliyyətində onlara kömək etmək məqsədilə tərtib edilmişdir. Jurnal 1966-ci ildən “Patent-lisenziya işi” adı ilə fəaliyyətə başlamışdır. 1990-cı ildən isə adı “Patent və lisenziya intellektual hüquqları” adı ilə fəaliyyətini davam etdirir. Jurnalda aşağıdakı məsələlər əks olunur:

- Normativ aktları;
- Qanunvericilik aktları;
- İntellektual əmlak;
- İnformasiya qeydiyyat vəkilləri;
- Xarici təcrubələr və s.

Həmçinin qeyd etmək lazımdır ki, jurnal aylıq olaraq buraxılır. Jurnal ayda bir dəfə buraxılır. Bir illik məbləği 11880 rubl təşkil edir.

Respublika Patent Fondunun xarici komplektləşdirmə mənbələri ilə yanaşı, ölkədaxili komplektləşdirmə mənbəsi də vardır və həmin mənbə “Sənaye Mülkiyyəti: İxtiralar, Faydalı model və Sənaye nümunələri” rəsmi bülletenidir. Rəsmi bülleten 1996-cı ildən nəşr edilir və rus, azərbaycan dilindədir. Titul vərəqindən sonrakı, səhifədə ixtiralara aid biblioqrafik məlumatların muəyyənləşdirilməsi üçün Beynəlxalq indeks kodları verilmişdir.

(11) - Patentin nömrəsi
(19) - dərc edən idarə və ya təşkilatın kodu
(21) - iddia sənədinin qeydiyyat nömrəsi
(22) - iddia sənədinin verilmə tarixi
(23) - sərgi ilkinliyi tarixi
(31) - ilkin iddia sənədinin nömrəsi
(33) - ilkinlik ölkəsinin kodu
(44) - iddia sənədinin dərc edilmə tarixi
(45) - patentin dərc edilmə tarixi
(46) - ixtira düsturunun dərc edilmə tarixi
(51) - beynəlxalq patent təsnifatının indeksi
(54) - ixtiranın adı
(56) - informasiya mənbəyinin siyahısı
(57) - ixtiranın referatı və ya düsturu

(60) - keçmiş SSRİ-nin mühafizə sənədlərinin növ nömrəsi
(62) - ilk iddia sənədinin nömrəsi və verilmə tarixi
(66) - geri götürülmüş iddia sənədinin nömrəsi və verilmə tarixi
(71) - iddiaçı ölkənin kodu
(72) - ixtiranın müəllifi ölkənin kodu
(73) - patent sahibi ölkənin kodu
(74) - patent müvəkkili və ya nümayəndə barəsində iddia sənədi göstərilibsə, onun haqqında məlumat və ya yaşadığı yer
(86)-PCT üzrə iddia sənədinin qeydiyyat nömrəsi və verilmə tarixi.

Rəsmi bülletendə həmçinin göstəricilərdən də istifadə edilmişdir. Həmin göstəricilər aşağıdakılardır:

Əmtəə nişanı şəhadətnamələrinin sistematik göstəricisi.Burada əvvəlcə şəhadətnamənin nömrəsi və iddia sənədinin nömrəsi verilir.

Əmtəə nişanı üzrə iddia sənədlərinin say göstəricisində əvvəlcə iddia sənədinin nömrəsi, daha sonra isə şəhadətnamənin nömrəsi verilir.

Əmtəə nişanı şəhadətnamələrinin say göstəricisi. Burada da əvvəlcə şəhadətnamənin nömrəsi, daha sonra isə iddia sənədinin nömrəsi verilir.

Burada həmçinin bildirişlər də verilmişdir. Bildirişlərdə aşağıdakı məsələlər əks olunub:

1. Əmtəə nişanının sahibinin adının və ünvanının dəyişilməsi. Burada qeydiyyatın nömrəsi, iddia sənədinin nömrəsi, əmtəə nişanı sahibinin adı, əmtəə sahibinin yeni adı verilir;
2. Əmtəə nişanına dair hüquqların verilməsi barədə müqavilələrin qeydiyyatı. Burada qeydiyyat nömrəsi, iddia sənədinin nömrəsi, əmtəə nişanı sahibinin adı, əmtəə nişanının yeni sahibinin adı, müqavilənin tarixi və qeydiyyat nömrəsi verilir;
3. Qeydiyyata alınmış əmtəə nişanına aid əmtəələrin siyahısının dəyişdirilməsi. Burada qeydiyyat nömrəsi, iddia sənədinin nömrəsi, əmtəə nişanının yeni sahibinin adı və dəyişikliklərdən sonra əmtəələrin siyahısı verilir;
4. Əmtəə nişanının qeydiyyatının fəaliyyət müddətinin uzadılması. Burada qeydiyyat nömrəsi, iddia sənədinin nömrəsi, əmtəə nişanının yeni sahibinin adı və sonda qeydiyyat fəaliyyətinin bitdiyi tarix göstərilir;
5. Əmtəə nişanı üzrə şəhadətnamənin dublikatının verilməsi. Burada qeydiyyat nömrəsi, iddia sənədinin nömrəsi, əmtəə nişanının yeni sahibinin adı, dublikatın verilmə tarixi verilir.

Yarandığı gundən Respublika Patent Fondu keçmiş SSRİ və Azərbaycan standartları üçün mərkəz funksiyasını yerinə yetirmişdir. Respublika Patent Fondu mütəxəssislər, informasiya tələbatçıları,

tədqiqatlarının aparılması, patent sənədlərinin hazırlanması aşağıdakı məqsədləri daşıyır:

1. Müasir elmi-texniki səviyyəni və milli sənaye tendensiyasını müəyyən edir;

2. Daxili və xarici elmi-texniki nailiyyətlər əsasında hazırlanıb işlənmiş və digər texnoloji proseslərin mükəmməl səviyyəyə çatdırılması;

3.İxtiraların əvvəlcədən ekspertizadan keçirilməsi;

4. Patent təmizliyinin yoxlanması, texniki obyektlərin işlənməsi, məqalələrin hazırlanması, ölkə ərazisində patent sənədlərinin ekspertizadan keçirilməsi, sərgilər və yarmarkaların təşkili;

5. Ölkə daxilində ixtiranın seçilməsi və tətbiqi;

6. Texniki iqtisadi ixtiraların təşkil edilməsi;

7. Xarici mütəxəssislərin informasiya tələbatlarının ödənilməsi, lisenziyaların satışı və alışı, texniki kommersiya sənədlərinin icrası, biznes əməliyyatları və lisenziya müqavilələri.

Respublika Patent Fonduna tematik buraxılışlar, daxili ixtira qeydləri, müəssisələr və qurumlar üçün İnformasiya Günü, Mütəxəssis Günü və digər elmi texniki ədəbiyyatlar daxildir.

Fondda məsləhətləşmələr keçirilir, patent sənədləri üzrə müxtəlif axtarış növləri, sorğular üzrə komplektləşdirilmə, hesabatlar, patent sənədlərinin saxlanması və yenidən işlənməsi, SBA-nın yaradılması məsələləri müzakirə edilir.

Kömək edir

- Birbaşa patent sənədləri və patent məlumat sənədləri, ixtiraların qeydiyyatı;
- Patent işlənmə vaxtı, ixtiralar və patent yeniliklər və dəyişikliklərin əlavə edilməsi;
- Rəsmi normativ sənədlər, ixtiralar, patent məqalələri, patent lisenziya işləri;
- Soraq Biblioqrafiya Aparatı: daxili və xarici patent sənədləri;
- Dərslik, metodik və köməkçi göstəricilər, patent qanunları, patent lisenziya işləri;
- Patent elmi və ixtiralara dair suallar əsasında dövri nəşrlər;
- Lüğət istinad ədəbiyyatı.

Oxu zalında bütün növ patent sənədləri verilir. Respublika Patent Fondunda KAA -ya əsasən 30 gün ərzində ixtiralar və xarici ölkələrin qeydləri verilir. Patent hüquqları, dərslik metodik ədəbiyyat, dövri nəşrlər və s. Yeni müraciət edənlərə 10 gün müddətində ədəbiyyat verilir. Sorğu-cavab rejimində sorğu qəbul edilir. SSRİ və xarici ölkə ixtiraların sürəti hazırlanır və tələbatçılara çatdırılır.

Soraq Biblioqrafiya Aparatı oxucuların patent sənədləri üzrə axtarışını təmin edir. Bura daxildir:

1. Nömrəli axtarış;
2. Tematik axtarış;
3. Ad axtarışı.

Oxuculara xidmətin mərkəzi elementi SBA-dır. Burada müxtəlif axtarış vasitəsindən də istifadə edilir:

1. Sistemli kataloq və kartoteka;
2. Nömrəli kataloq və kartoteka;
3. Əlifba kataloq və kartoteka.

Respublika Patent Fondu patent müəssisələrə və ayrı-ayrı qurumlara yardım göstərir. Burada patent sənədləri ilə əlaqədar seminarlar, görüşlər və sərgilər keçirilir. Xidmət saat 08:00-dan 16:30-a kimi həyata keçirilir. İstirahət günü bazar, sanitariya günü isə ayın axırıncı günü keçirilir.

Patent fondunda olan sənədlərin sosial istifadəsi çoxaspektlidir.Oxucu kontengenti üzrə tədqiqat aparan mütəxəssislər əvvəlcə oxucuların əsas tipoloji oxşarlığını, sonra isə onları fəqləndirən cəhətləri müəyyənləşdirir.

Patent Fondunda sənədlərin xarakteri patent tədqiqatlarından asılıdır. Tədqiqatların vəziyyətinin müəyyən edilməsi, riyazi statistika və anket sorğuları, tədqiqatların çoxaspektli analizi, oxucuların tərkibi və xarakteri oxucular üzərində iş və onların fonda müraciəti ilə müəyyənləşdirilir.

Respublika Patent Fondunda 1960-1970-ci illərdə oxucuları müşahidə etməklə, onların sayının artdığını görürük. Son illərdə oxucuların sayı stabilləşib. Bu da sovetlər dönəmində şişirdilmiş rəqəmlərin son illərdə reallığa uyğunlaşdırılması ilə əlaqədardır.

1985-ci ildə Respublika Patent Fonduna daxil olan tədqiqatların 853-ü spesifik oxuculara, sənaye agentliyi və müəssisələrinə, o cümlədən Moskva və Moskva ətrafına aid olmuşdur.

Respublika Patent Fonduna müraciət edərək, oxucu kontingentini öyrənən mütəxəssislər onları şərti olaraq 3 qrupa bölmüşlər. Oxucuların 3 kateqoriyası iş yerinə uyğun olaraq 7 kateqoriya üzrə qruplaşdırılmışdır. Oxucuların 3 kateqoriyasına aşağıdakılar aid edilir:

1. Adlarına və elmi dərəcələrinə görə;
2. Cinsinə və əməyinə görə;
3. Tutduğu mövqeyə görə.

Üçüncü kateqoriyaya istinad edərək oxucular aşağıdakı şəkildə qruplaşdırılır:

1. Elmi qurumların və müəssisələrin nümayəndələri;
2. Sənaye müəssisələri və nəqliyyat müəssisələrinin nümayəndələri;

3. Təşkilati-kommunikasiya müəssisələri və digər qurumların nümayəndələri.

Professional səviyyədə patent sənədlərini tədqiq edənlər hər şeydən əvvəl rəsmi vəzifələrdə çalışan ekspertlərdir ki, yeni ixtiraların qərar və ərizələri üzərində çalışırlar.

Patent sənədlərinin mürəkkəbliyi buraya alimlərin cəlb olunmasına səbəb olmuşdur. Lakin burada mühəndislər, texniki işçilər istisna olmuş və hüquqşünaslar, kitabxanaçılar, informatorlar, tərcüməçilər və digər mütəxəssislər, tədqiqatçılar informasiya materialı ilə mütəmadi təmin olunmuşlar.

Yuxarıda deyilənlər imkan verir ki, Respublika Patent Fondunda oxucuların 3 tipoloji qrupunu müəyyənləşdirək:

1. Ekspertlər və patent sahəsində çalışan mütəxəssislər. Onlar daimi olaraq öz vəzifələrində patent sənədləri üzrə tədqiqat aparırlar;

2. Mühəndis və texniki işçilər-Patent sənədləri üzrə axtarış aparanlar;

3. Kitabxana işçiləri.

Bəzi kitabxanaçılar isə xüsusi tipoloji qrup yaradırlar:

1. İxtiraçılar;

2. Rasyonalistlər.

Lakin bu, bizim nəzərimizdən düzgün deyil, çünki bizim ölkədə belə bir peşə, yəni "İxtiraçılar peşəsi" yoxdur.

1984-cü ildən etibarən QOST 15.011-82 "Patent tədqiqatının aparılması qaydası" işin həcmini genişləndirir, patent tədqiqatı aparılması, istehsalı və proseslərin işlənməsi, texniki obyekt, texnoloji qərarların qəbul edilməsi işini asanlaşdırır. QOST- da 8 növ iş müəyyənləşdirilmışdir ki, patent tədqiqatların keçirilməsində istifadə edilir:

1. Tədqiqatın texnoloji səviyyəsi, texniki tipi;

2. Texnoloji obyektin texniki səviyyəsinin əsaslandırılması;

3. Aparıcı firmaların elmi və texniki fəaliyyətinin təhlili;

4. Patent-lisenziyalaşdırma fəaliyyətinin təhlili;

5. Texniki-iqtisadi həllərin texniki həlli;

6. Yeni obyektlər və onların komponentlərinin patent təmizliyinin tədqiqi;

7. Texnoloji obyektlər və onun komponentlərinin patent təmizliyinin tədqiqi;

8.Xarici sənaye mülkiyyəti obyektinin hüquqi müdafiəsinin məqsədəuyğunlaşdırılması və lisenziyalaşdırılması, lisenziyaların satışının əsaslandırılması.

Patent tədqiqatı zamanı kitabxanalar 4 nəzəri müddəanı sintez edir:

1. Kitabxana elmləri;

2. Biblioqrafiya elmləri;
3. Patent elmləri;
4. Kitab elmləri, multidispliner və disiplinlərarası bilik sahəsi olan bir çox sahələr.

Bu nəzəriyyə çərçivəsində təcrid olunmuş problem qruplarını ayırmaq mümkündür:

1. Kitabxana xidmətləri;
2. Sənaye tərəfindən fondların formalaşması və ərazi prinsipləri;
3. Patent sənədlərinin biblioqrafiyası;
4. Patent tədqiqatları zamanı müasir texniki resurslardan istifadə və s.

Tədqiqat zamanı aşağıdakılar müəyyən olunmuşdur:

- Hüquqi baxımdan formalaşdırılmış patent sənədlərinin ərazi və sənaye kitabxanaları üçün sənaye mülkiyyətinin qorunması, mütəxəssislərin patent sənədləşdirmə və patent-lisenziyalaşdırma işləri;
- Öz təbiətinə görə bütün bu problemlər praktiki cəhətdən üzvi şəkildə bağlıdır, lakin nəzəri olaraq onlar bir-birindən yalnız şərti olaraq ayrılmışdır;
- Müxtəlif problemlər qrupunun əsas məzmunu bütünlükdə xüsusi bir elmi istiqamət kimi verilən nəzəriyyənin ayrılmaz xüsusiyyəti olmasıdır.

Qeyd etməliyik ki, Respublika Patent Fondunda tədqiqatlar predmet və obyektinə görə prinsiplərə ayrılır. Həmin prinsiplərə aşağıdakılar daxildir:

Birincisi, mütəxəssisləri hamsının milli sənaye filiallarının informasiya sferası ilə təmin edilməsi;

İkincisi, müasir dövrdə tədqiqat obyekti çoxtərəfli əhəmiyyət kəsb edir. O, elmi-texniki sosial sfera ilə yeni kəşflərlə şərtlənmişdir ki, bu da kitabxana proseslərində patent tədqiqatların təhlükəsizliyini təmin edir;

Üçüncüsü, predmet tədqiqatları özündə xüsusi dinamik nəticələri əks etdirir ki, hər yeni səviyyədə metod və formalar kitabxanada tez-tez yenilənir.Belə formatlaşma əsasən ayrı-ayrı kitabxana prosseslərinin öyrənilməsi sayəsində olub. Bu proseslərə informasiyalaşma və patent işi, ölkənin iqtisadi vəziyyətinin öyrənilməsi aid edilir. Tədqiqatın predmet quruluşu yer və mənbələrin rolundan, patent məlumatından, müasir cəmiyyətin optimist metodlarından və sosial tələbatdan asılıdır.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, patent sənədlərinin yenidən formalaşdırılmasında əsas prinsip patent sənədlərinin bazası və patent-lisenziyalaşdırma işi bütün sahələrdə informasiya mənbəyi rolunu oynayır.

Tədqiqat obyektinin elementləri imkan verir ki, o, sistem kimi yazılsın. Tədqiqat obyektinin strukturuya, yəni quruluşuna aşağıdakılar daxildir:

1. Patent fondu;
2. Biblioqrafik informasiya;

3. Oxucu kontingenti və s.

Bütün bunlar göstərir ki, Respublika Patent Fondu öz fəaliyyət istiqamətini günün tələbləri səviyyəsində qurmağa çalışır və buna əsasən nail olur. Ancaq Respublika Patent Fondu öz informasiya ehtiyatlarını dünya informasiya ehtiyatlarına inteqrasiya etmək üçün aşağıdakı məsələlərin həllinə fikir verməlidir:

-Respublika Patent Fondunun maddi-texniki bazasının möhkəmləndirilməsi;

-Fondun istifadəçiləri ilə işi günün tələbləri səviyyəsində təşkil etməklə onlara yüksək səviyyədə xidmət göstərmək;

-Respublika Patent Fondunun fəaliyyətinin canlandırılması və bütövlükdə xidmətin keyfiyyətinin yüksəldilməsi;

-Ölkənin bütün kitabxanaları, o cümlədən Respublika Elmi-Texniki Kitabxanası və onun Respublika Patent Fondu öz fəaliyyətini daha da təkmilləşdirməli və bununla informasiya cəmiyyətinin tələbatına uyğun kitabxana informasiya xidməti həyata keçirməlidir.

2005-2015-ci illərdə Respublika Patent Fonduna gəlmələrin sayı

| İllər | Cəmi | Abonement və qiraət zalı | Kitabxanalararası abonement |
|---|---|---|---|
| 2005 | 127 | 124 | 3 |
| 2006 | 375 | 360 | 15 |
| 2007 | 653 | 624 | 29 |
| 2008 | 147 | 171 | 16 |
| 2009 | 131 | 116 | 15 |
| 2010 | 95 | 86 | 9 |
| 2011 | 44 | 40 | 4 |
| 2012 | 55 | 51 | 4 |
| 2013 | 68 | 55 | 3 |
| 2014 | 43 | 43 | - |
| 2015 | 52 | 49 | 3 |

2005-2015-ci illərdə Respublika Patent Fondunda oxucuların sayı

| İllər | Cəmi | Abonement və qiraət zalı | Kitabxanalararası abonement |
|---|---|---|---|
| 2005 | 458 | 455 | 3 |
| 2006 | 591 | 579 | 12 |
| 2007 | 867 | 857 | 25 |
| 2008 | 96 | 89 | 17 |
| 2009 | 78 | 60 | 17 |
| 2010 | 84 | 78 | 10 |
| 2011 | 42 | 39 | 4 |
| 2012 | 52 | 48 | 4 |
| 2013 | 69 | 65 | 3 |
| 2014 | 51 | 50 | 1 |
| 2015 | 43 | 40 | 3 |

2005-2015-ci illərdə Respublika Patent Fondunda ədəbiyyat verilişi

| İllər | Cəmi | Rusiya Federasi-yasının ixtiraları | Kapitalist ölkələrin ixtiraları | Kapitalist ölkələrin bülleteni | Sənaye nümu-nələri sənəd-ləri | Rusiya Federasiya-sının bülleteni | Biblio qrafik göstəri cilər | Başqa dövrün nəşrlər | Patent hüquqi ədəbiy-yat |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2005 | 491890 | 29380 | 2360 | 2655 | 55450 | 254 | 273 | 142 | 4 |
| 2006 | 221552 | 69490 | 5140 | 869 | 4640 | 150730 | 371 | 301 | 11 |
| 2007 | 417868 | 134560 | 8710 | 69660 | 11308 | 201400 | 7839 | 5954 | 17 |
| 2008 | 262825 | 131056 | 7515 | 38350 | 5305 | 133700 | 4420 | 2900 | 17 |
| 2009 | 156186 | 34190 | 3384 | 2360 | 2693 | 90480 | 22904 | 2030 | 6 |
| 2010 | 213566 | 58520 | 4084 | 2812 | 3250 | 40250 | 2966 | 1720 | 23 |
| 2011 | 115314 | 22380 | 7530 | 5242 | 7315 | 121300 | 22272 | 3225 | 32 |
| 2012 | 95166 | 20870 | 2081 | 14420 | 1524 | 53700 | 1269 | 1129 | 7 |
| 2013 | 92482 | 16515 | 4298 | 11247 | 2648 | 47321 | 2689 | 1249 | 8 |
| 2014 | 108467 | 16320 | 4060 | 1924 | 2326 | 63630 | 19610 | 1241 | 13 |
| 2015 | 95219 | 18270 | 2110 | 1296 | 1995 | 49050 | 16494 | 1050 | 10 |

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi Respublika Elmi-Texniki Kitabxanasının əsasnaməsi.-2003.-6s
2. Xələfov A.A. Respublika Elmi-Texniki Kitabxanası-70.-B.:Bakı,2001.-37s
3. Əliyev A. Normativ-texniki sənədlərin təşkilinin ümumi qaydaları//Mədəni-maarif işi.-1999.-N2.-9.37-38
4. Məmmədov M.Ə. Respublika Elmi-Texniki Kitabxanasının inkişafı B.;2016.-285s
5. Respublika Elmi-Texniki Kitabxanasının hesabatları(2005-2015)

## КОМПЛЕКТАЦИЯ ДОКУМЕНТОВ И ОРГАНИЗАЦИЯ ИНФОРМАЦИОННЫХ СИСТЕМ В РЕСПУБЛИКАНСКОМ ПАТЕНТНОМ ФОНДЕ

**МАМЕДОВ М.А.**

### РЕЗЮМЕ

*Статья рассматривает проблемы и источники комплектации в Республиканском Патентном фонде. Изучает вопросы потребления читателей и исследоваеться поступления и информационные потоки последных лет.*

***Ключевые слова:*** *Республиканский патентный фонд, источники комплектации, текущее и ретроспективное комплектование, введения патентных исследовании.*

## ACQUISITION OF DOCUMENTS AND ORGANIZATION OF INFORMATION SYSTEMS IN THE REPUBLICAN PATENT FUND

**MAMMADOV M.A.**

### *SUMMARY*

*The article presents information on acquisition, on sources of acquisition and on readers of the Republican Patent Fund, and also discloses the content of arrivals in recent years. It also studied issues of information*

*services, the quantity and composition of readers, and other information related to the Republican Patent Fund.*

***Key words:*** *Republican Patent Fund, sources of acquisition, acquisition, funds accounting, realization of patent researches*

## MÜASİR İNFORMASİYA CƏMİYYƏTİNDƏ TÜRK MİLLİ KİTABXANALARI
### (tarixi, müasir vəziyyəti və inkişaf istiqamətləri)

**KAZIMİ P.F.**
***Bakı Dövlət Universiteti, Kitabxanaşünaslıq kafedrası, tarix üzrə fəlsəfə doktoru, dosent***

*Türkiyə yaxın və orta şərqin ən böyük dövlətlərindən biridir.IVX əsrdə Kiçik Asiya ərazisində formalaşan türk dövləti XV əsrdə Osmanlı imperiyasına çevrildi,XX əsrin əvvəllərində Türkiyə cumhuriyyəti yaradıldı.Hall-hazırda demoktatik və hüquqi dövlət olan Türkiyə Cumhuriyyəti türkdilli dövlətlərin önündə gedən müasir informasiya texnologiyalarını tətbiq edən qabaqcıl ölkədir.*

***Açar sözlər:*** *Türkdilli dövlətlər, milli kitabxana, kitabxana-informasiya fəaliyyəti.*

Osmanlıların hakimiyyəti illərində Fateh Sultan Məhmədin, Qanuni Sultan Suleymanın, Sultan I Mahmudun, Sultan III Əhmədin, Sultan I Həmidin, Sultan III Mustafanın, eləcə də Validə sultanlarından (Osmanlı sultanlarının həyat yoldaşı) Esmihan Sultan, Nurbanu Sultan, Pertevniyal Validə Sultan, sədrəzəmlərdən (baş nazirlər) Köprülü Kara Racip Paşa, Nevşehirli Damat İbrahim Paşa, Kılığ Ali Paşa və digərləri mədəniyyəti himayə etmiş, kitaba daim böyük önəm vermiş, şəxsi kitabxanalar yaratmış və zəngin kitab kolleksiyalarına malik olmuşdular. Sultan sarayında fəaliyyət göstərən kitabxanalar daim daha önəmli hesab edilmiş, bu kitabxanalar Sultanın himayəsində və bütün dövlətin diqqət mərkəzində olmuşdu.

Bəyazid adına Dövlət Kitabxanasının direktoru N.Dumanın 1984-cü ildə kitabxananın 100 illiyi ilə əlaqədar çap etdirdiyi kitabda Türkiyədə yeni dövrün kitabxana mədəniyyətinin yaranması, təşəkkülü və inkişafı öz əksini tapmışdır. İstanbulun paytaxt olduğu zamanlarda Saray kitabxanasının ümumaçıq fəaliyyətini təmin etmək üçün Sultan II Əbdülhəmid sərəncam verdi. Bu dövrdə Osmanlı hakimiyyətinin baş naziri "Məmləkətin bütün

nahiyələrində kitabxanalar qurulmalıdır" deyən marifpərvər bir şəxs Sədrəzəm (baş nazir) Səid Paşa idi.

Dövrün maarif naziri Mustafa Paşa Sultan II Bəyazidin 1506-cı ildə təsis etdiyi kitabxananın tarixi idarə binasının restavrasiyasına başladı. Sultan II Əbdülhəmid dövlət xəzinəsindən lazım olan vəsaiti ayırdı və 1884-cü ilin iyun ayının 24-də kitabxana yeni statusla istifadəyə açıldı.

Kitabxananın açılışı zamanı rəsmi sənədlərlə "Kitabxaneyi-ümumi" yazıldığı halda, bir çox mətbuat səhifələrində bu kitabxanaya "Kitabxaneyi-milli" deyə də müraciət olunurdu. Kitabxananın daş kitabəsində "Kitabxaneyi-ümumi-Osmani" yazılmasına baxmayaraq, tədqiqatçı N.Duman da hesab edir ki, bu yazılış dövrün şərtləri ilə belə bir şəkil almışdır. Belə ki, həqiqətdə bu, əsl milli kitabxana statusu daşımış və funksiyalarını yerinə yetirmişdi.

1884-cü ildə təmir olunmuş tarixi bina alimlərin və xalqın nümayəndələrinin iştirakı ilə təntənəli şəkildə açılır. Kitabxananın ilk rəhbəri dövrünün görkəmli maarifpərvəri Tahsin Əfəndi olmuşdur. Açılış zamanı 4164 kitabdan ibarət kitab fonduna malik bu kitabxana sonrakı illərdə öz fondunu sürətlə artırmağa başlayır. Baş verən, ardı kəsilməyən müharibələr kitabxananın fondunun zənginləşməsinə imkan vermir, eləcə də kitabxana xidmətinin inkişaf etməsinə fürsət yaranmır.

Kitabxananın Türkiyə Cumhuriyyəti dövründə fəaliyyəti daha da genişlənir. Qəbul olunmuş yeni qanunlar kitabxananın həm fondunun həm də xidmət işinin inkişaf etməsini təmin etdi.

## TÜRKİYƏ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ MİLLİ KİTABXANA

Türk xalqının Antanta dövlətlərinin (1918-1923) hərbi qüvvələrinə qarşı apardığı milli azadlıq hərəkatı Türkiyə Cümhuriyyətinin yaranması ilə sona çatdı. Türkiyə Cümhuriyyəti I Dünya Müharibəsindən sonra məğlub olan və torpaqları paylaşdırılan Osmanlı dövlətinin son ordusu və polis qüvvələrindən ibarət olan "Kuvayi-Milliyə" deyilən bir xalq mübarizəsi təşkilatının Atatürk tərəfindən təşkil edilərək işğalçı dövlətlərə qarşı mübarizəyə qalxması nəticəsində yarandı. Türkiyə milli azadlıq hərəkatının rəhbəri, Türkiyə Böyük Millət Məclisinin ilk sədri və ölkənin ilk prezidenti Mustafa Kamal Atatürk (1881-1938) böyük siyasi xadim, vətənini və millətini təmiz və ali duyğularla sevən, gerçəkci öndər, türk millətinin yetişdirdiyi ən böyük türklərdən biri idi. O, Türkiyə tarixində çox böyük, önəmli dəyişikliklərin həyata keçirilməsində mühüm rol oynamış, Vahid Milli Ordunun yaradılması, Konstitusiyanın (Anayasa) qəbulu (20 yanvar 1921), Türk Mədəni Qanunu və Türk Cəza Qanununun qəbulu (1926), Tədris Birliyi Qanunu və mədrəsələrin ləğv edilməsi (1924), Yeni türk (latın əlifbası) hərflərinin qəbulu (1928), geyimdə dəyişiklik (1925-ci il 25 noyabrda Şapka geyilməsi haqqında qanunun qəbul

edilməsi), təqvimdə dəyişiklik (1925-ci il 26 dekabr tarixində çıxan qanunla miladi təqvim qəbul edildi), ölçü vahidlərində dəyişiklik (1 aprel 1931). Soyadı qanununun qəbulu, türk qadınlarına seçkilərdə iştirak etmə haqqının verilməsi (1930) və iqtisadi, ticarət, sənaye, tibb və bir sıra başqa sahələrdə olan yeniliklər Atatürkün adı ilə bağlıdır.

Yeni yaranmış dövlətin qarşısında iqtisadi problemlərlə yanaşı, əhalinin maariflənməsi məsələləri də kəskin şəkildə dururdu. Əhalinin çox hissəsi savadsız idi, yüksək ixtisaslı kadrlara böyük ehtiyac olduğu aydın şəkildə hiss olunurdu.

Türk dövlətinin başçısı Atatürkün ən böyük idealı Türk millətini «ən mədəni və rifah səviyyəsi yüksək bir millət olaraq varlığını yüksəltmək» idi. O, yaxşı bilirdi ki, milli təhsili gücsüz olan bir millət heç bir şəkildə inkişaf edə bilməz, «Təhsil bir milləti ya azad, şanlı, yüksək bir cəmiyyət olaraq yaşadar, ya da bir milləti əsarət və səfalətə sürükləyər» deyə qeyd edirdi.

Hər bir cəmiyyətdə və hər bir dövlətdə olduğu kimi, burda da maarifin və mədəniyyətin inkişafında ən mühüm rolu türk kitabxanaları oynamalı idilər. Belə ki, Osmanlı imperiyasından Türkiyəyə miras qalmış kütləvi və təhsil müəssisələrinin kitabxanaları qarşılarında duran vəzifələri yerinə yetirəcək səviyyədə deyildi. Kitabxana işində köklü dəyişikliklərə, yenidənqurmaya ehtiyac vardı. Bu da müəyyən qanunvericilik aktlarının qəbulunu tələb edirdi.

1920-ci ildə Maarif Nazirliyi nəzdində Mədəniyyət İdarəsi (Hars dairesi) yaradıldı. Onun vəzifəsi əsasən kitabxana və muzeylərin təşkili və onlara rəhbərlikdən ibarət idi.

1921-ci ildə Kitabxana Müfəttişliyi yaradıldı. 1924-cü ildə Vahid təhsil haqqında qanuna əsasən əvvəllər Şəriət və Vəqflər Nazirliyinin tərkibində olan bütün mədəni-maarif müəssisələri (o cümlədən kitabxanalar) dövlət müəssisəsi elan edildi və Maarif Nazirliyinə verildi.

Vəqf (dini qurumların nəzdində) kitabxanalarının yenidən təşkili və kitabxana fondlarının inventarlaşdırılması ilə əlaqədar olaraq maddi vəsaitin ümumi uçot və təlimatı haqqında 1927-ci ildə qanun qəbul edildi. Bütün bu qərar və qətnamələr ölkənin milli xəzinəsi olan kitabxana fondlarının qorunub saxlanılmasını və mühafizəsini təmin edirdi.

1928-ci ildə həyata keçirilən əlifba islahatı (ərəb əlifbasının latın əlifbası ilə əvəz olunması) ölkədə mədəniyyətin və maarifin inkişafına xeyli təsir göstərdi və nəşr olunan kitabların tirajı çoxaldı (çap texnikası, mətnlərin yığımı asanlaşdı).

1929-cu ildə Türkiyə kitabxanalarına rəhbərlik edən bir müəssisə — Kitabxana İdarəsi (Kütüphaneler genel müdürlüyü) yaradıldı. 1930-cu ildə

bütün bölgələrdə kitabxanalar, oxu zalları və muzeylərin yaradılmasını diktə edən Qanun nəşr olundu.

1934-cü ildə çox vacib bir qanun - "Basma, Yazı və Rəsmləri Toplama" qanunu çıxdı. Bu qanunla mətbəələr nəşr etdikləri hər məhsuldan (kitab, jurnal, buklet, qəzet, elan və başqaları) 5 nüsxə (1976-cı ildən sonra 6 nüsxə) dövlətə verməyə borclu hesab edilirdi. Yığma Qanunu hazırlanarkən müvəqqəti bir maddə əlavə edilərək, toplanacaq hər nüsxədən bir ədədinin yaxın zamanlarda qurulacaq Milli Kitabxanaya təhvil verilməsi məqsədilə qorunması nəzərdə tutulurdu.

Toplama Qanununun təmin etdiyi imkanla nəşrlərin 5 ayrı kitbxanada toplanması və milli bir biblioqrafiyanın daim dərc olunması imkanı yaranmış olurdu. Adnan Ötükən Almaniyada kitabxanaçılıq təhsili aldığı illərdə (1936-40) oradakı məlum olan əsas kitabxanaları, müxtəlif jurnal və qəzetlərdə nəşr olunan yazıları ilə tanıdaraq, ölkədə də ona oxşarlarının qurulması fikrini yaymağa çalışmışdır.

1939-cu ilin iyul ayında Ankarada toplanan birinci Nəşriyyat Konqresində M.Emin Erişirgil Milli Kitabxana və personal mövzusunda belə demişdir: "Ankaranın ən mühüm ehtiyaclarından olan Milli Kitabxana ehtiyacı da təmin olunmalıdır. Kitabxana direktorları üçün də bir qanun çıxarmağı arzu etdik. Bunu şərəfli bir peşə halına gətirməliyik".

Ötükən 9.8.1939 tarixli "Cumhuriyyət" qəzetində nəşr olunan yazısında demişdir: "Mükəmməl və modern kitabxanaları qurmaq üçün hər şeydən əvvəl canını bu işə qoyacaq kitabxana direktorları və ekspert kitabxanaçılar yetişdirmək lazımdır".

Ötükən 1 oktyabr 1941-ci ildə Nəşriyyat Müdiri olaraq təyin olunduqdan qısa bir müddət sonra peşə təhsili almış kitabxanaçılar yetişdirmək məqsədilə Dil və Tarix-Coğrafiya fakültəsində bir kitabxanaçılıq kursu açmaq üçün o günlərdə dekan müavini olan M.Emin Erişirgili razı salmaq çox da çətin olmadı. Çünki yuxarıda qeyd etdiyimiz kimi, Erişirgildə eyni düşüncədə idi. Beləliklə, 1942-ci ildə Dil və Tarix-Coğrafiya fakültəsi tərkibində A və B bölmələrindən yaranan bir "Kitabxanaçılıq kursu" açılır. Növbəti il Türk Dili və Ədəbiyyatı kürsüsünə bağlı, ixtiyari bir dərs halında davamı uyğun görülür. Bu vəziyyət fakültədə kitabxanaçılıq bölməsi açılana qədər (1954) davam edir. Ötükən, 1938-ci ildə nəşr olunan bir yazısında qeyd etdiyi kimi, "İşə öncə kadr yetişdirməklə" başlamışdı.

Milli Təhsil Nazirliyi Nəşriyyat Müdirliyinin giriş mərtəbəsində əvvəllər qəhvəxana olaraq işlədilən bir salona Ötükən tərəfindən stol və kitab rəfləri düzüldükdən sonra 15 aprel 1946-cı ildə Müdirlik Məmurlarının iştirakı ilə təşkil olunan kiçik bir tədbirdə Ötükən bir kitab rəfinə bir neçə kitab qoyaraq demişdir: "Bu kitablar yaxın zamanlarda qurulacaq olan Milli Kitabxananın

nüvəsini təşkil edəcəkdir. Bura da bundan sonra qeyri-rəsmi olaraq Milli Kitabxana Hazırlıq Bürosudur. Bu Büronun işlərini görməyə Leman Şenalpı vəzifəyə təyin edirəm".

Qısa müddətdə rəsmi nəşrlər və ianələr yolu ilə kitabların sayı 8000-ə çatdı. İşlərin artması səbəbi ilə kursun tələbələrindən bir neçəsi vaxtları olduqca, yarım gün kömək etməyə gedirdilər. Bu tələbələrin xidmətlərini və Büronun bəzi məcburi xərclərini ödəyə bilmək məqsədilə Ötükənin şəxsi səyləri ilə 21 fevral 1947-ci ildə "Milli Kitabxanaya Yardım Dərnəyi" quruldu. Bu dərnək özəlliklə dovlətə yardım dərnəkləri arasına alındıqdan sonra Milli Kitabxananın quruluş illərində böyük pullu dəstək təmin olunmuşdu. Milli Kitabxana Hazırlıq Bürosunda işlər davam edərkən, Baş Nazir Rəcəb Pekerin 14 avqust 1946-cı ildə Hökümət Proqramını oxuyarkən: "bir Milli Kitabxananın qurulması üçün lazımlı islərə həmin vaxt başlanacağı" vədindən Ötükən cəsarət alaraq, qurulacaq Milli Kitabxananın işləriylə daha rahat məşğul olmaq üçün 21 dekabr 1946-cı ildə Nəşriyyat Müdirliyi vəzifəsindən ayrıldı. Milli Kitabxana Hazırlıq Bürosunun nə rəsmi bir ünvanı, nə də bir kadr heyəti mövcud olmadığı üçün o, Nəşriyyat Şöbə Müdirliyinə təyin olunmuşdu.

Nəşriyyat Müdirliyi binasındakı büro darısqal hala gəldikdə, 1 aprel 1947-ci ildə Qocatəpə Səmti Mithat Paşa küçəsində 5 otaqlı 1 mərtəbəli bir villaya köçürüldü və qapısına "Milli Kitabxana Hazırlıq Bürosu" lövhəsi yazıldı.

Burada Adnan Ötükənlə birlikdə Leman Şenalp, Nezahat Amaçan (katib) və Sanih Sarıdal (fotoqraf) olmaqla 4 nəfər işə başladı. O günlərdə də təsirli bir ianə kampaniyası davam etdirildiyindən, qısa müddətdə toplanan kitab sayı 60.000-ə çatdı. Bu dəfə də başqa bir binaya köçmək lazım gəldi. O zaman Saraçoğlu Məhəlləsində kazino olaraq düzəldilmiş və bütün təchizatı tamamlanmış olan bir binanın Ötükənin kitabxana olaraq istifadə edə biləcəyi deyildi. 1948-ci ilin əvvəllərində bu binaya köçdülər və 16 avqust 1948-ci ildə Milli Kitabxana xalqın xidmətinə verildi.

1949-cu ilin oktyabr ayında Milli Kitabxananın ilk ekspert kitabxanaçısı Milli Təhsil Nazirliyi, başda Milli Kitabxana olmaqla müxtəlif kitabxanalarda staj və tədqiqatlar aparmaqla 2 il müddətində İsveçrəyə göndərildi.

23 mart 1950-ci ildə "Milli Kitabxana Quruluş Qanunu" qəbul edildi. Yəni Milli Təhsil Nazirliyinə bağlı bir müdirlik olaraq qanunvericilik və hüquqi bir kimlik qazanan Milli Kitabxana Türkiyədə qanunla qurulan ilk kitabxanadır. Həmin qanunun II maddəsində Milli Kitabxananın vəzifələri belə göstərilmişdir: "Milli mədəniyyət tədqiqatlarını aparmaq, bu məqsədlə əlverişli əsərləri, arayışları bir araya toplayaraq əsaslı bir mərkəz yaratmaq və

eyni zamanda hər cür elm və sənət işləmə və tədqiqatlarını asanlaşdırmaq vəzifəsi daşıyır. Bu vəzifələri yerinə yetirməklə Milli Kitabxana lazımlı əsərləri və arayışları ala və ya başqa yollarla təmin edə və bunların təsnifatı, qorunması və ümumi istifadəyə verilməsi üçün lazımlı hər növ obyektləri və vasitələri almağa səlahiyyətlidir".

7-10 noyabr 1950-ci ildə Parisdə təşkil olunan UNESCO iclasında hər ölkədə bir "biblioqrafiya və informasiya" mərkəzi qurulması qərarı alındı. UNESCO-nun dəstəyi ilə Milli Kitabxana tərkibində bir "biblioqrafiya institutu" açmaqla, Fransa Milli Kitabxana ekspertlərindən olan Rauks 1952-ci ilin mart ayında Ankaraya gəldi. Bir neçə ay Rauksla işləyən Behirə Abacıoğlu UNESCO-nun təmin etdiyi bir illik təqaüdlə Parisə getdikdə, o günlərdə Basma Yazı və Rəsmləri Yığma Müdirliyi vəzifəsini davam etdirməkdə olan Leman Şenalp təkrar Milli Kitabxanaya işə qəbul edilir və institutun quruluşunda vəzifəyə təyin edildi. Bir il ərzində Türkiyə Məqalələr Biblioqrafiyasının ilk 5 nömrəsi çap edildi.

Türkiyə biblioqrafiyası 1955-ci ildən etibarən Milli Kitabxana quruluş qanununa əlavə edilən bir maddə ilə qurulan "Biblioqrafiya institutu"nda hazırlanıb nəşr edilirdi. Daha sonrakı illərdə hətta Türkiyə Dövlət Nəşrləri Biblioqrafiyası, Seçilmiş Qəzet Yazıları Biblioqrafiyası (1989-1990) kimi biblioqrafik işlərin aparılması Milli Kitabxananın əsas vəzifələrindən biri kimi göstərilirdi.

1952-ci ildə Basma Yazı və Rəsmləri Yığma Müdirliyi Milli Kitabxananın tərkibinə daxil oldu. 1952-53-cü illərdə Milli Kitabxananın əsas vəzifələrindən olmasa da, "Uşaq Kitabxanası" və "Evlərə borc kitab vermə xidmətləri" quruldu. 1955-ci ildə Görmə qüsurluları üçün kitabxana xidməti işə başladı. Brayl əlifbasına görə yazılmış 300 cildlik bir kolleksiya gözdən əlil oxucuların istifadəsinə təqdim olundu. 1991-ci ildə çap materiallarının kompüterdə səsli olaraq oxuna bildiyi və kompüterdə Brayl əlifbasından istifadə edərək kağıza yazılan bir sistem də tətbiq olundu.

Milli Kitabxanada 1958-ci ildə "Xəritələr" və "Musiqi əsərləri" bölmələri açıldı. 1959-cu ildə rəsm-heykəl bölməsi yaradıldı. 1985-ci ildən etibarən türk tərcüməsi və uyğunlaşması aparılan Anql-Amerika Kataloqlaşdırma Qaydaları 2 (AACR2) tətbiq edilmiş və hazırda AACR2-nin 1988-ci ildə ciddi yenilənmiş forması işlənməkdədir.

1965-1973-cü illəri əhatə edən uzun bir planlaşdırma mərhələsi nəticəsində inşa işlərinin təməli qoyulmuş və bina 1982-ci ildə tamamlanmışdır. Milli Kitabxana 5 Avqust 1983-cü ildə yeni binasında istifadəçilərinə xidmət etməyə başlamışdır.

Milli Kitabxana kitab, əlyazması, nadir əsər, ərəb hərfli çap əsərləri, günlük qəzet, jurnal, bülleten, illik, afişa, xəritə, not, səs yazısı (CD və kaset),

rəsm və s. materiallardan ibarət olan 2.560.372 əsərlik bir fonda sahibdir. MK-nın fondunda kitabların sayı 1.120.940 ədəd olub, günlük qəzet, jurnal, bülleten, illik və buna bənzər materiallardan ibarət olan 1.302.528 cildlik bir dövri nəşr fondu da mövcuddur. Bundan başqa, 26.262 ədəd əlyazma əsəri olan kitabxanada afişa, xəritə, not, səs yazısı (disk və kaset), rəsm, atlas, video kaset, tablo, pul kimi xüsusi qaydada yığılmış 85.809 əsərdən ibarət bir qeyri-kağız material fondu vardır.

1975-ci ildə Milli Kitabxananın fondunda türk və xarici dillərdə 560 min çap kitabı, 3522 əlyazma, 9137 əlyazmanın mikrofilmləri, 955555 ardı davam edən nəşr vardı. Kitabxanada xəritələr, atlaslar, notlar, afişalar, təsviri incəsənət əsərləri, qrammofon valları və digər audiovizual nəşrlər də saxlanılır.

1980-cı ilin ortalarındakı məlumata görə, Milli Kitabxananın ümumi fondu 1 milyon nüsxədən çox idi. Onlardan 680 minini elmin bütün sahələrinə dair kitablar, 6600-dən çoxunu ərəb, fars və türk dilində olan qədim əlyazmalar, 6300-nü coğrafi xəritələr, 329-nu atlaslar, 5200-nü not məcmuələri, 29300-dən çoxunu müxtəlif plakat və afişalar, 193 mindən çoxunu türk və xarici dillərdə olan dövri nəşrlər, 9400-dən çoxunu mikrofilmlər və s. təşkil edirdi.

Milli Kitabxananın ölkədə bir məlumat şəbəkəsi qurulması və məlumat axınının təyin edilməsi prosesi birinci Milli Mədəniyyət Şurasında (1982) tövsiyə edilmişdi.

1986-cı ildə Milli Kitabxanada komputerlərin tətbiqinə başlansa da, kifayət qədər yetişmiş kadr heyətinin olmamasından kataloqlaşdırma əməliyyatları 1987-ci ilin sonlarına qədər əllə həyata keçirilirdi. 1990-cı ildən etibarən kataloqlaşdırma əməliyyatları avtomatikaya əsaslanaraq yeniləşdi.

1997-ci ildə əlyazma əsərlərin və ardı davam edən nəşrlərin köhnəlməsinin dayandırılması və qorunması məqsədilə mikrofilm arxivinin inkişaf etdirilməsi istiqamətindəki işlərə başlanılmışdı.

Mədəniyyət və Turizm Nazirliyi tərkibində 1978-ci ildə başlanan “Türkiyə əlyazmaları Toplu Kataloqu” layihəsi çərçivəsində hazırlanan əlyazması əsərləri kataloqları ilə “Milli Kitabxana əlyazma Əsərlər Kataloqunda” yer alan 25.653 biblioqrafik təsvir göstərilmiş, müxtəlif növlü fondlara aid təxminən 60.000 ədəd əlyazma CD daşıyıcılarına köçürülmüş, TÜYATOK CD (1-2) adıyla göstərilmişdi. Layihənin davamı olaraq 2005-ci ildə ölkədaxili və ölkəxarici bəzi kitabxanalarda mövcud olan 40.250 türk dilində əlyazma əsərinə aid biblioqrafik təsvirləri ifafə edən TÜYATOK layihəsi ilə əlaqəli olaraq, Milli Kitabxanalar fondunda saxlanılan əlyazma və nadir əsərlərin rəqəmsal mühitdə arxivləşməsinə 2004-cü ildə başlanmış, 2008-ci ildə oxucuların xidmətinə verilmişdi. Mübadilə Proqramları ilə

Kitabxanalararası əməkdaşlıq çərçivəsində xaricdəki kitabxanalar, Türkologiya İnstitutu və müxtəlif təşkilatlarla qarşılıqlı əlaqələr əsasında kitab mübadiləsi aparılmaqdadır.

Milli Kitabxana 39.000 kvadrat metrlik yeni layihəyə əlavələr etməyə imkan verəcək genişlikdə bir sahədə tikilmişdir. Modern bir quruluş tərzində üç blokdan ibarət olan Milli Kitabxana binası rəhbər bürolardan, ümumi və xüsusi təyinatlı oxu zallarından, qrupla işləmə otaqlarından, personal bürolarından, gözəl sənətlərlə bağlı iş otaqlarından, havalandırma və siqnalizasiya ilə təmin olunmuş depolardan ibarətdir. Ayrıca bir sərgi zalı ilə bir çox məqsədlər üçün istifadə oluna biləcək iki iclas zalı da mövcuddur. Eyni zamanda yeni binada İnformasiya İşləm Mərkəzi, Danışan Kitablıq, Atatürk Belgəliyi (Sənəd), Kitab Təmiri və Restavrasiya Laboratoriyası, Mikrofilm Arxivi ilə ofset çap texnikasını istifadə edən tam təminatlı bir Nəşriyyat, Mikrofilm və Foto Laboratoriyası yeni vəzifələr həyata keçirməyə başlamışdır.

Milli Kitabxana Türk mədəniyyətinin aynası, milli mədəni xəzinə və Türk millətinin yaddaşıdır. Milli Kitabxananın qarşıya qoyduğu məqsəd beynəlxalq informasiya axınının mərkəzi halına gələrək, cəmiyyətin mədəni inkişafına və iqtisadi cəhətdən genişlənməsində, informasiya cəmiyyətinin yaradılmasında mühüm rol oynamaqdır.

Milli Kitabxanada həftənin müəyyən günlərində kütləvi tədbirlər olaraq konsertlər və konfranslar təşkil edilir.

Milli Kitabxana müxtəlif kolleksiyalardakı 11546 əlyazma əsərdən başqa, ayrı-ayrı kitabxanalardan toplanılmış 14218 əsərə və 8934 ədəd “Şəriyə Sicil” dəftərinə malikdir.

1988-ci ilə qədər Milli Kitabxanada bəzi nəşrlər qadağan olunmuş kitablar kimi xüsusi bir anbarda saxlanılırdı. Sonralar kitablar “qadagan olunmuşdur” qrifindən azad olunur və ümumi istifadəyə verilir.

Türkiyə Milli Kitabxanası ilin təxminən 350 günü səhər saat 9-dan axşam saat 22-yə qədər pulsuz olaraq bütün oxucuların üzünə açıqdır. Adnan Ötüken, Müjgan, Respublika, İbn Sina oxu zalları eyni zamanda 1000 oxucuya xidmət göstərir. Kitabxanadan hər gün orta hesabla 1500-2000 oxucu faydalanır.

Milli Kitabxananın müasir texniki avadanlıqlarla təchiz edilmiş oxu zallarından və abonement şöbəsindən hər il təxminən 50-55 milyon oxucu istifadə edir.

Hazırda təxminən 40 min kv.m-lik istifadə sahəsi ilə Türkiyənin ən böyük kitabxanası mövqeyinə çıxan Milli Kitabxananın fondu təxminən 3 milyon nüsxə ədəbiyyatdan ibarətdir. Bu əsərlər təhlükəsizlik və iqlimləndirmə baxımından xüsusi olaraq tikilmiş kitabsaxlayıcıda qorunur.

Bununla belə, gündən-günə artan kitab fondu üçün mövcud kitabsaxlayıcı da kifayət deyil. Təkcə bu faktı göstərmək kifayətdir ki, hazırda Türkiyədə ildə təqribən 20 min kitab nəşr olunur. Deməli, hər il orta hesabla Milli Kitabxananın fonduna ən azı 20 min vahid çap məhsulu və digər materiallar daxil edilir.

Ona görə də Milli Kitabxananın səlahiyyətli şəxsləri kitabxananın bağçasındakı yerin altında nəhəng bir kitabsaxlayıcısı inşa edilərək istifadəyə verilməsi ilə bu problemi həll etməyə qərar verdi. Milli Kitabxananın keçmiş direktoru Tuncel Acarın təklifi ilə ortaya çıxan yeraltı arxiv üçün Dövlət Planlaşdırma Təşkilatına müraciət edildi. Dövlət Planlama Təşkilatı müraciəti qəbul edərək, inşaat işlərini 2008-ci ilin Dövlət sərmayə proqramına daxil etdi. İnşaatın tender və maliyyə işlərinə də həmin ildən başlanıldı. Kitabsaxlayıcıda iqlimləndirmə və təhlükəsizlik sistemlərinin yanında lift və relsli daşıma sistemləri kimi müasir texnologiyanın bütün imkanları da istifadə edilir.

Hazırda Türkiyə Milli Kitabxanasının missiyası milli mədəniyyət araşdırmalarını dəstəkləmək, bu məqsədə yararlı ölkə daxilində çap olunmuş bütün əsər və sənədləri, ölkədən xaricdə türk mədəniyyətinə aid bütün nəşrləri bir araya toplayaraq əsaslı bir mərkəz meydana gətirmək, dünyada Türk dövlətini maraqlandıran nəşrləri izləmək və təmin etmək, eyni zamanda hər növ elm və sənət çalışmalarını asanlaşdırmaq məqsədilə tədqiqatçılara və oxuculara xidmət etmək, milli mədəni xəzinə mərkəzi olaraq ölkə daxili və xaricində informasiya axınını izləmək, toplayıb saxlamaq, bütün bunlarla bağlı olaraq ölkənin milli mədəni əlaqələrinin siyasi təsirlərdən uzaq olaraq yönəldilməsində iştirak etməkdən ibarətdir.

Türkiyə Milli Kitabxanasının qarşıya qoyduğu məqsəd beynəlxalq informasiya axınının mərkəzinə çevrilərək, cəmiyyətin mədəni inkişafında, iqtisadi cəhətdən genişlənməsində, informasiya cəmiyyətinin yaradılmasında mühüm rol oynamaqdadır.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Azərbaycanda kitabxana işinin inkişaf konsepsiyası.*
2. *Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik. I hissə. Bakı. BDU, 2004. 328 səh.*
3. *Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik. III hissə.*
4. *Xələfov A.A. Kitabxana və cəmiyyət. Bakı, "Azərnəşr". 2011, 348 səh.*
5. *Xələfov A.A., Mehdiyeva N.D. XX əsrdə Türkiyədə kitabxana işi. Bakı Universiteti xəbərləri. Humanitar elmlər seriyası. 2008, №3. 231-242 səh.*

*6. Казими П.Ф. О демократичности библиотечной работы. Журнал научных публикаций аспирантов и доктарантов. Курск, 2011. №4, с. 49-51.*

*7. Казими П.Ф., Курбанов А.И., Княз Аслан. Некоторые проблемы информационного пространства в контексте библиотечной деятельности. Журнал научных публикаций аспирантов и доктарантов. Курск, 2012. №3, с.102-105.*

*8. Исмаилова Н.Н., Курбанов А.И., Казими П.Ф. Оценка информации в библиотечно-информационной деле. Тольяттинский Государствунный Университет, Вектор науки, 2013, №1(12), с. 58-60.*

## ТУРКСКИЕ НАЦИОНАЛЬНЫЕ БИБЛИОТЕКИ В СОРЕМЕННОМ ИНФОРМАЦИОННОМ ОБЩЕСТВЕ

**(история, соременное состояние и тенденции развития)**

**КАЗЫМИ П.Ф.**

### *РЕЗЮМЕ*

*Статя рассматривает появление национальной библиотеки в Турецких стран в частности в Османском Империи в начале XVI вв. каторая в начале XX века стал и развивался как Национальная Библиотека Турецкой Республики.*

***Ключевые слова**: Турецкие Республики, Национальная Библиотека, библиотечная-информационная деятельность.*

## TURKISH NATIONAL LIBRARYS IN THE PERFORMANCE INFORMATION SOCIETY

**(history, current state and development trends)**

**KAZIMI P.F.**

### *SUMMARY*

*Turkey is one of the largest states in the Middle and Near East. The Turkish state formed in Asia Minor in the 15th century turned into the Ottoman Empire in the 15th century and the Republic of Turkey was established in the early 20th century. The Turkish Republic of Democrats and Legal States, the state of modern Turkey, is a leading country.*

***Key words:** Turkic-speaking countries, national library, library-information activity.*

# KİTABXANALARDA İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARI VASİTƏSİLƏ OXUCULARA XİDMƏTİN TƏŞKİLİ

**İSMAYILOVA N.N.**
***Bakı Dövlət Universiteti, Kitabxanaşünaslıq kafedrası, baş müəllim, tarix üzrə fəlsəfə doktoru***
***n.musaeva@rambler.ru***

*Məqalədə informasiya cəmiyyəti şəraitində əksər fəaliyyət sahələrində olduğu kimi, kitabxana işində də informasiya kommunikasiya texnologiyalarının tətbiqi məsələlərinə toxunulmuşdur. Oxuculara xidmət işinin daha yüksək səviyyədə təşkili üçün kompüter texnologiyalarının köməyi ilə yaradılan elektron kataloqlar, elektron kitabxanalar, elektron sənəd göndərişi xidmətləri haqqında məlumat verilmişdir.*

***Açar sözlər:*** *kitabxanalarda informasiya kommunikasiya texnologiyalarının tətbiqi, oxuculara xidmət, elektron kataloq, elektron kitabxana, elektron sənəd göndərişi xidməti*

İnformasiya cəmiyyəti şəraitində informasiya kommunikasiya texnologiyalarının (İKT) əksər fəaliyyət sahələrinə tətbiqi ölkənin ümumdünya elektron məkanına daha sürətli inteqrasiyasına, cəmiyyətin intellektual və elmi potensialının yüksəldilməsinə, sosial və iqtisadi fəaliyyətin yeni formalarının (e-hökumət, e-ticarət, distant təhsil və s.) təşəkkül tapmasına, informasiya və bilik bazarının yaradılmasına, iqtisadiyyatın müxtəlif sahələrində səmərəliliyin artırılmasına, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə səbəb olmuşdur. Ölkəmizdə İKT-nin inkişafı, informasiya cəmiyyətinin formalaşması Heydər Əliyevin 17 fevral 2003-cü ildə imzaladığı "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə (2003-2012-ci illər) Milli Strategiya" ilə başlamış, müasir informasiya texnologiyalarının Azərbaycanda tətbiqi sahəsində prioritet vəzifələri müəyyənləşdirmişdir. 2003-cü ilin dekabrında isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT və UNESCO-nun Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammitində çıxış edərək, ölkəmizdə İKT-nin gündəlik həyatımızın tərkib hissəsinə çevrildiyini, mütəxəssislərimizin informasiya və kompüter texnologiyaları üzrə müxtəlif layihələri həyata keçirdiklərini bildirmişdir. Ölkə başçısı tərəfindən təsdiq edilən Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya bu sahədə həyata keçirilən ən vacid tədbirlərdəndir. Strategiyanın "Milli

kontentin inkişaf etdirilməsi" ilə bağlı bəndində qeyd edilir ki, informasiya cəmiyyətinin inkişafı şəraitində milli kontentin genişləndirilməsinə, ölkəmizin milli-mədəni irsinin qorunub saxlanılmasına və inkişafına, əhalinin ondan müasir texnologiyalar vasitəsilə istifadəsinə və bilik səviyyəsinin artırılmasına diqqət yetirilməsi vacibdir. Bu sahədə əsas fəaliyyət istiqamətlərindən biri də kitabxana, arxiv və muzeylərdə İKT-nin tətbiqinin, elektron kitabxana şəbəkəsinin genişləndirilməsidir.

Kompüter-telekommunikasiya texnologiyasının yaranması və sürətli inkişafı şəraitində kitabxanaların xidmət və informasiya axtarışı işində də yeni texnika və texnologiyaların tətbiqi kitabxanaların avtomatlaşdırılmasının tərkib hissəsi olub, kitabxanalarda yerinə yetirilən mürəkkəb, bir-biri ilə əlaqəli texnoloji proseslərin informasiya-telekommunikasiya texnologiyaları əsasında yerinə yetirilməsidir.

Bütün sivilizasiyalarda cəmiyyət insanlara xidmət etmək, onların tələbatını ödəmək üçün müxtəlif xidmət növlərindən və formalarından istifadə etmişdir. Bu xidmət növləri içərisində "kitabxana xidməti", "biblioqrafiya xidməti", "informasiya xidməti" həmişə mədəni və elmi səviyyəyə malik insanların diqqət mərkəzində olmuş, bilik və zəka daşıyıcıları kimi nəsildən-nəsilə ötürülməklə elmi-texniki tərəqqinin sürətlənməsinə xidmət etmişdir. İnformasiya xidməti oxucuların informasiya təlabatlarına cavab verə bilən, oxucular qarşısında böyük informasiya məkanı yaradan xidmət növüdür. Kitabxana informasiya xidməti heç də yeni bir xidmət növü olmayıb, qədim zamanlarda meydana gəlmiş, tarixən inkişaf edib formalaşmış, zaman keçdikcə zənginləşmiş kitabxana-biblioqrafiya xidmətinin yeni, inkişaf etmiş, təkmilləşmiş, müasir informasiya texnologiyası ilə silahlanmış mərhələsidir.

Kitabxanalarda informasiya xidməti oxucuların informasiya tələbatına tam cavab verə bilən müasir informasiya texnologiyasının tətbiqi və ondan istifadə əsasında internet vasitəsilə dünya müstəvisinə çıxan, elektron vasitələrin köməyi ilə oxucuların qarşısında böyük informasiya məkanı açan, bəşəri biliklər xəzinəsi, elektron – virtual kitabxanaların köməyi ilə oxucuların malına çevirə bilən xidmət növüdür. Hazırda kitabxanalarda oxuculara xidmətin müasir informasiya texnologiyası ilə təmin edilməsi sahəsində xeyli tədbirlər: kitabxanalarda internet zalların yaradılması, oxucular üçün ümumaçıq informasiya məkanının formalaşdırılması, elektron kataloqlar və elektron kitabxanaların yaradılması, elektron sənədlərlə xidmət və s. informasiya texnologiyasının tətbiqini təmin edən tədbirlər həyata keçirir.

Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemlərinin yaradılması kitabxanaçı əməyinin, xidmət prosesinin avtomatlaşdırılmasına, qısa zaman kəsiyində istifadəçilərin uzaq məsafədən lazımi ədəbiyyatla tәmininə, informasiyanın çoxcəhətli axtarışına, oxucu sorğusunun onlayn yerinə

yetirilməsinə, ədəbiyyatın oxucu tələbatına uyğun komplektləşdirilməsinə, kitabxana hesabatının, planlarının, statistikasının, uçotunun aparılmasına elektron nəzarəti artırır. İnformasiyalaşdırılmış cəmiyyətdə oxucu sorğularının ödənilməsi sahəsində həm ənənəvi, həm də elektron informasiya xidmətindən qarşılıqlı şəkildə istifadə edilir.

İnformasiya texnologiyası verilənlər üzərində əməllərin, əməliyyatların, mərhələlərin aparılması üçün dəqiq reqlamentlənmiş qaydalardan ibarət olan prosesdir. İnformasiya texnologiyasınm əsas məqsədi ilkin informasiyanın məqsədyönlü emalı nəticəsində istifadəçi üçün lazımi informasiyanı almaqdır. İnformasiya sistemi kompüterlərdən, kompüter şəbəkələrindən, proqram məhsullarından, verilənlər bazalarından, müxtəlif növ rabitə vasitələrindən və s. ibarət olan muhitdir. İnformasiya sistemi informasiya emalı sistemidir və burada əsas məqsəd informasiyanın saxlanması, sorğulara görə axtarışı və seçilən informasiyanı lazımi formaya salıb, istifadəçiyə çatdırmaqdır. Aydındır ki, informasiya məhsullarının mövcudluğu informasiya bazarını yaradır. İnformasiya bazarı - informasiya məhsullarının və xidmətlərinin, informasiya texnologiyalarının satışı üzrə iqtisadi, hüquqi və təşkilati münasibətlərin sistemidir. İnformasiya bazarı nöqteyi-nəzərindən informasiya məhsullarını iki sinfə ayırmaq olar: informasiya məhsulları və informasiya xidmətləri. İnformasiya məhsulu istifadəçinin tələbinə uyğun hazırlanmış və mal formasinda təqdim edilmiş, sənədləşdirilmiş informasiyadır. İnformasiya məhsullarına proqram məhsulları, verilənlər bazası və bankları və digər informasiyalar aiddir. İnformasiya xidmətləri informasiya məhsullarını təqdim etməklə istifadəçinin informasiya tələbini ödəməyə yönəldilmiş xidmətlərdir.

Kitabxana xidməti tarixən formalaşan və inkişaf edən sorğuların ödənilməsinə yonəldilib. Belə demək olarsa, sorğu xidməti yaradır, xidmət məhsulu. Əgər sorğu varsa, xidmət məhsulu törədir. Prosesin ardıcıllığını belə qeyd edək: 1. İnformasiya tələbatı; 2. İnformasiya sorğusu; 3. İnformasiya xidməti; 4. İnformasiya məhsulu.

Kitabxana işi ilə məşğul olan rus mütəxəssisləri kitabxana xidmətini kitabxananın sosial təyinatının reallaşdırılması ilə əlaqələndirərək, “kitabxana xidmətlərinin standart spektri”ni müəyyənləşdirmişlər: abonentin kitabxana fondundan, soraq-biblioqrafiya aparatından, kitabxana binasından, avadanlıq və digər vasitələrdən istifadə etmək hüququ; sənədlər haqqında vacib məlumatların axtarışında abonentə kömək edilməsi; tələb olunan sənədlərin axtarışı və çatdırılması; oxucuların tələbatlarına müvafiq sənədlər və onlarla bağlı rəylər haqqında abonentlərin məlumatlandırılması; abonentlər arasında, həmçinin onların mütəxəssislərlə maraqlandıqları mənbələr haqqında ünsiyyət aparmalarının təmin edilməsi; oxuculara kitabxana-biblioqrafiya biliklərinin

öyrədilməsi, onlarda oxucu mədəniyyətinin formalaşdırılması prosesləri bura daxildir.

Kitabxana təcrübəsinə avtomatlaşdırılmış informasiya texnologiyalarının tətbiqi effekti ilk növbədə kitabxana məhsulları nomenklaturasının inkişafına və kitabxananın biblioqrafik xidmətlərinin informasiya bazasının genişlənməsinə təsir etmiş oldu. Beləliklə, ənənəvi kataloq və kartotekalar, ədəbiyyatın biblioqrafik göstəriciləri ilə yanaşı, onların maşınla oxunan variantları da meydana gəldi: kitabların, dövri nəşrlərin, yeni daxil olan ədəbiyyatların, nəşrlərin xüsusi növlərinin elektron kataloqları, elektron kitabxanalar, tammətnli verilənlər bazası və s. Kitabxanalarda xidmət "elektron" erasından əvvəl lokal fondlarla məhdudlaşmış, region, ölkə, zərurət olduqda isə az hallarda daha geniş hüdudlar miqyasında sənəd kütləsi və axınına istiqamətlənmişdisə, hazırda onların daim yenilənən elektron variantları, biblioqrafik yazının istənilən elementi üzrə geniş axtarış imkanlarına, informasiyanın çox rahat təqdimedilmə üsuluna və uzaq məsafə də daxil olmaqla istənilən daxilolma rejimində verilənlər bazası axtarış mənbəyidir.

Müasir dövrdə informasiyanın sürətlə artması və tez köhnəlməsi oxuculara operativ və coğrafi uzaqlıqdan asılı olmayaraq xidmət göstərilməsini diqtə etdiyindən, ənənəvi ximətdən fərqli olaraq, elektron kataloqların köməyi ilə xidmət oxuculara şəbəkə vasitəsilə kitabxananın ədəbiyyat fondunun tərkibi ilə daha tez tanış olmağa, öz sorğularına operativ və kitabxanaçı-biblioqrafın köməkliyi olmadan uzaq məsafədən cavab almağa, ədəbiyyatı onlayn sifariş verməyə imkan verir. Elektron kataloq kitabxana fondunun real uçotunun, oxucuların statistikasının, maraq dairəsinin müəyyən edilməsinə, kitabın hərəkətinin izlənilməsinə, ədəbiyyat fondunun oxucu sorğusuna uyğun komplektləşdirilməsinə və yeniləşdirilməsinə, oxuculara müasir səviyyədə virtual xidmət təşkil etməyə imkan verir. Elektron kataloqun ənənəvi kitabxana kataloqlarından əsas üstünlüklərindən biri oxucu sorğusunun daha dolğun yerinə yetirilməsidir. Bu gün rəqəmli texnologiyaların inkişafı kağız üzərindəki informasiyanın elektron formaya çevrilməsinə imkan verdiyindən, elektron kataloqdan istifadə edən oxucu onlayn olaraq öz tələbatına uyğun ədəbiyyatın kitabxanada mövcudluğu haqqında biblioqrafik məlumat almaqla yanaşı, onun elektron versiyasını da əldə edə bilər.

Müasir informasiya və kompüter texnologiyalarının xarakterik inkişaf istiqamətləri içərisində müxtəlif növlü, tipli və məzmunlu sənədləri mühafizə edən elektron informasiya daşıyıcılarının hazırlanması, sistemləşdirilməsi, mühafizəsi və şəbəkə rejimində uzaq məsafədən istifadəsi xüsusi yer tutur. Sadalanan bu istiqamətlər kompleks şəkildə

elektron kitabxanaların yaradılmasında və elektron kitabxanaların informasiya təminatının təşkilində ifadə olunur. İstifadəçilərin informasiya təminatının daha perspektivli üsullarından biri də elektron kitabxana xidmətindən istifadə olunmasıdır. Elektron kitabxanaların formalaşdırılmasına dünyanın inkişaf etmiş ölkələrində XX əsrin 90-cı illərinin ortalarında başlanmışdır. Elektron kitabxanaların yaradılmasının əsas məqsədləri informasiya xidmətinin keyfiyyətinin yüksəldilməsi, informasiya xidmətləri nomenklaturasının, istənilən növ və mövzulu informasiyadan istifadənin genişləndirilməsi, elektron resurslara keçid zamanı istifadəçilərin sayının artırılmasıdır ki, bu da aşağıdakı üsullar vasitəsilə həyata keçirilir:

- İstənilən növ informasiyadan istifadənin təmin olunması;
- Müxtəlif kolleksiya və fondlarda olan materiallara, o cümlədən aztirajlı və unikal nəşrlərə növ və mövzu məhdudiyyəti olmadan, milli sərhədlər və müəssisə mənsubiyyəti nəzərə alınmadan istifadənin təmin olunması;
- İnformasiya ötürücüləri və alıcıları dairəsinin genişləndirilməsi;
- Fiziki və ya sosial əngəlli istifadəçilərin informasiya almasına məhdudiyyətlərin aradan qaldırılması;
- İnformasiyanın istənilən yerə, o cümlədən iş masasına və ya evə çatdırılması imkanlarının genişləndirilməsi;
- İnformasiyaya müraciət və onun alınma vaxtına məhdudiyyətlərin ləğvi - hər gün sutkada 24 saat iş.

Kitabxanalarda elektron sənəd göndərişi xidməti kitabxanalarda elektron xidmətin ilk forması olmaqla, müasir dövrdə ən yeni informasiya xidməti olan elektron kitabxanaların yaradılması üçün baza rolu oynamışdır. Bu xidmət ilk dəfə ədəbiyyat yayımı və kitab ticarəti təşkilatlarında tətbiq edilmişdir. Elektron sənəd göndərişi kitabxanalararası abonement xidmətinə alternativ xidmət kimi yaradılmışdır. Bu xidmət növü kağız üzərində maddiləşmiş informasiyaların elektron obrazının sifarişçiyə - kitabxanalara və oxuculara çatdırılmasını təmin edir. Onun vasitəsilə kitabxanalar operativ tammətnli informasiya mübadiləsi edir, oxucular isə öz informasiya tələbatını uzaq məsafədən ödəyə bilirlər. Elektron sənəd göndərişi ödənişli xidmət növüdür.

Kitabxanalarda elektron sənəd göndərişi ilk dəfə Kaliforniya Universitetinin kitabxanasında, Avropada isə İsveçin Höteborq şəhərində yerləşən Çelmers Texniki Universitetində, daha sonra 1982-ci ildə Britaniya Milli Kitabxanasında faksla həyata keçirilmişdir. Elektron sənəd göndərişi sürətli təkamül yolu keçərək, bu gün demək olar ki, bütün ölkələrdə uzaq məsafədən informasiya mübadiləsi vasitəsi kimi istifadə olunur və müasir kitabxanalarda tətbiq edilən əsas və sərfəli xidmət növüdür. Bu gün elektron sənəd göndərişi müasir informasiya texnologiyaları böyük və sürətli informasiya ötürmə qabiliyyətli telekommunikasiya vasitələri əsasında

fəaliyyət göstərən xidmət növüdür. Elektron sənəd göndərişi böyük texniki təminat tələb etmir.

Ümumiyyətlə, elm və texnika üzrə elektron sənədlərlə xidmət ilk dəfə XX əsrin 70-ci illərində ABŞ-ın iri kitabxanalarmda başlanmışdır. Bu dövrdə «Adonis» layihəsi işlənmiş və tətbiq edilmişdi. Layihəyə görə elmi jurnallar elektron formatma keçirilirdi, maqnit lentinə, bir qədər sonra (70-ci illərin ortalarında) maqnit diskinə yazılırdı və sənədlərin kitabxanadaxili (şöbələrarası) elektron göndərişi sistemində istifadə olunurdu. İlk illərdə tətbiq üçün baha olan bu layihə 80-ci illərdə daha imkanlı və məhsuldar kompüterlərin və telerabitə vasitələrinin, həmçinin optik disklərin yaradılması ilə əlaqədar olaraq kitabxana xidmətində əhəmiyyətli yer tutdu. Layihənin əsas təcrübi prinsipləri ABŞ kitabxana xidmətində 1991-ci ilə qədərki dövrdə davam etdi. Sonrakı addım "TULIB" adlanan və 1991-95-ci illərdə tətbiq edilən Avropa-ABŞ birgə layihəsi olmuşdur. Bu layihə əsasında tətbiq edilən sistem Avropa və ABŞ-da fəaliyyət göstərən universitet kitabxanalarmın elmi jurnallara lisenziyalaşdırılmış müraciətini (istifadəni) təmin edirdi. Web protokolu yaradıldıqdan sonra, yəni XX əsrin 90-cı illərin ortalarından başlayaraq elektron sənədlərlə xidmət işi daha sürətlə inkişaf etdi və əhatə dairəsi xeyli genişləndi, şəbəkə məlumat bazaları və elektron kitabxanalar yaradıldı. Nəşriyyatlar, müxtəlif tip ənənəvi kitabxanalar, peşəkar elmi cəmiyyətlər, biznes qurumları, ali məktəblər, elmi-tədqiqat idarələri və s. bu prosesə daha fəal qoşuldular.

Qeyd edək ki, elektron informasiya resursları ilə kitabxana xidməti sahəsində aşağıdakı problemlər öz təcrübi həllini tapmışdır:

1. Vahid müraciət məntəqəsindən vahid istifadəçi interfeysinin yaradılması;
2. Axtarış zamanı biblioqrafik məlumatlarla, elektron kataloqdan sənədlərin tam mətni ilə (ilkin sənədlə) əlaqələrin avtomatik təyini və istifadəçiyə verilməsi;
3. İstifadəçinin audentifıkasiyası, yəni müxtəlif növ elektron informasiya resurslarına onun müraciət (axtarış, istifadə) hüququnun olmasının avtomatik olaraq yoxlanması;
4. Onlayn rejimdə elektron informasiyalardan istifadə üçün pul ödənilməsinə mərkəzləşdirilmiş elektron nəzarət sisteminın yaradılması;
5. Kitabxanalar və istehsalat konsorsiumları ilə naşirlər arasında daha sıx və dinamik əlaqələrin yaradılması, hazır informasiya sistemlərinin istifadəsinin lisenziyalaşdırılması, pul ödənişi sahəsində məsləhət və kömək göstərilməsi;
6. Kitabxanaçılara və digər istifadəçilərə elektron informasiyalardan istifadənin öyrədilməsi, bu sahədə onların ixtisasının artırılması;

7. Elektron informasiyaların hazırlanması sahəsində kitabxanalara və nəşriyyatlara kömək göstərilməsi;
8. Elektron sənədlər arxivinin formalaşdırılması, yəni elektron sənədlərin depozitar fondunun yaradılması və s.

Kitabxanaların çap sənədləri fondu əsasmda elektron sənədlərlə xidmətin ümumiləşdirilmiş sxemi belədir:

Ümumiyyətlə, kitabxanalarda informasiya kommunikasiya texnologiyaları ilə xidmət işinin təşkili əsasən oxu zalları vasitəsilə həyata keçirilir. Kitabxanaların elektron resurslarından istifadə üçün kitabxananın hər hansı işçi stansiyasından, konkret kitabxananın internet ünvanından, kitabxananın elektron kataloqundan axtarış göstəriciləri ilə müraciət etmək olar. Axtarış açar sözlərlə predmet rubrikaları ilə, sənədin adı ilə və mühafizə nömrələri ilə aparıla bilər.

## ƏDƏBİYYAT

*1. Azərbaycan Respublikasında inkişaf naminə İKT-ın tətbiqi və inkişaf etdirilməsi üzrə (2003-2012-ci illər) milli strategiya (İKTMS) [Mətn]: 17 fevral 2003-cü ildə qəbul edilmişdir. Bakı, 2003. www.mincom.gov.az/qanunvericilik/dovlet-proqramlari/*

*2. Xələfov A.A. Kitabxana və cəmiyyət. Baki. Azərnəşr, 2012, 360 s.*

*3. Xələfov A.A., Qurbanov A.İ. Kitabxanaların kompüterləşməsinin əsasları: dərslik. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006, 200 s.*

*4. Kazimi P.F. İnformasiya mühəndisliyi. Baki, BDU,2011, 260 s.*

*5. Zülfüqaroğlu Ə. Texnologiyaların tətbiqi sahəsində dövlət siyasəti www.eco.gov.az/.../Ibrahimov%20Ali%20Zulfuqar%20oglu-Hefte%20Ichi-qa*

*6. Rüstəmov Ə., Mustafayeva N.: Avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri və şəbəkələri (nəzəri və metodiki məsələlər). - B., 2007. 250 s.*

*7. Пилко, И.С. Информационные и библиотечные технологии [Текст]: Учеб. пособие / И.С.Пилко.- СПБ.: Профессия, 2006.-342 с.-*

# ОРГАНИЗАЦИЯ ОБСЛУЖИВАНИЯ ЧИТАТЕЛЕЙ В БИБЛИОТЕКАХ ПОСРЕДСТВОМ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ

**ИСМАИЛОВА Н.Н.**

***РЕЗЮМЕ***

*В статье затронуты вопросы внедрения информационно-коммуникационных технологий в библиотеках в условиях информационного общества. Представлена информация об электронных каталогах, электронных библиотеках, службе электронной отправки документов для организации обслуживания читателей в библиотеках на более высоком уровне.*

***Ключевые слова:*** *внедрение информационно-коммуникационных технологий в библиотеках, обслуживание читателей, электронный каталог, электронная библиотека, служба электронной отправки документов*

## PROVIDING SERVICE TO READERS THROUGH INFORMATION AND COMMUNICATIOON TECHNOLOGY IN LIBRARIES

**ISMAYİLOVA N.N.**

***SUMMARY***

*The article covers issues of application of information and communication technologies in library as in other fields of activity. In order to provide much higher services to readers, the article gives information about e-catalogues, e-libraries, service of sending an e-document created with the help of the computer technology.*

***Keywords:*** *Application of information and communication technologies in libraries, service to readers, e-catalogue, e-library, service of sending an e-document*

# RƏQƏMSAL KİTABXANALARIN İNFORMASİYA SİSTEMİ KİMİ FƏALİYYƏTİ

**HƏSƏNOVA N.Ə.**
***Bakı Dövlət Universitetinin dosenti***
***Texnika üzrə fəlsəfə doktoru***
**n_gasanova@hotmail.com**

*Elmi tədqiqat işində müasir rəqəmsal kitabxanaların korporativ informasiya sistemi kimi çıxış etməsinin tədqiqi məsələlərinə baxılmışdır. Müasir təhsil texnologiyalarının xarakterik xüsusiyyətləri əks edilmiş, informasiya kommunikasiya texnologiyalarının təhsil mühitinə tətbiqində rəqəmsal kitabxanaların rolu vurğulanmışdır. Elektron təhsilin yeni paradiqmaları göstərilmişdir. Distant texnologiyalarının yayılmasında hər zaman və hər yerdə mövcud olan rəqəmsal kitabxananın rolu ön plana çəkilmişdir.*

***Açar sözlər.*** *Kitabxana informasiya sistemi, informasiya kommunikasiya texnologiyaları, distant təhsil, müasir təhsil texnologiyaları, təhsilin müasir modeli, yeni təhsil paradiqması, rəqəmsal kitabxanalar.*

Müasir cəmiyyətdə insanların sosial həyatında informasiyanın qiyməti artmış və o, vacib resursa çevrilmişdir. Çoxsaylı kanallar təqdim edən televiziya və radiostansiyalar, İnternetə çıxış vasitələri informasiyalaşmış mühitin əsas elementləri kimi özünü büruzə verir. Bu zaman böyük həcmli informasiya kütləsi və massivləri cəmiyyətin bütün sahələrinə nüfuz edir, informasiya özü isə kütləvi və həyat üçün zəruri istehlak məhsuluna çevrilir. İnformasiyanın böyük həcmlə artan istehsalı və istehlakı prosesi, eləcə də onun mühüm resurslara transformasiya edilməsi cəmiyyətin informasiyalaşdırılması adını almışdır. Cəmiyyətin informasiyalaşdırılması - yalnız iqtisadi və sosial dəyişikliklər deyil, həm də yeni həyat tərzi və cəmiyyətdə yaşayan insanlara yeni tələblərdir. Belə bir təsirin mövcudluğu ictimai-siyasi quruluşdan asılı olmayıb, universal qanun olaraq təzahür edir. O, nəinki informasiya həcminin artmasına, lokal və qlobal sistemlərin və şəbəkələrin, verilənlər və bilik bazalarının yaradılmasına səbəb oldu, həm də prinsip etibarilə yeni texnologiyaların, yeni mədəniyyət və yeni cəmiyyət növünün yaranmasına gətirib çıxardı [1].

İnformasiyalaşdırılmış cəmiyyətdə bütün həyat tərzi, dəyərlər sistemi dəyişir, maddi nemətlərə nisbətən asudə vaxtların dəyəri artır. İndustrial cəmiyyətdə hər şey məhsulların istehsalı və istifadəsinə yönəldiyi halda, informasiyalaşdırılmış cəmiyyətdə intellekt, biliklər istehsal və istifadə

olunur. Bu da əqli əmək hissəsinin artırılmasına gətirir. İnsandan yaradıcılıq qabiliyyəti tələb olunur, biliklərə tələbat artır. Təhsilin informasiyalaşdırılması kifayət qədər çətin bir proses olub müəyyən vaxt tələb etməklə mərhələlərlə həyata keçirilir. İnformasiya və kommunikasiya texnologiyalarının (İKT) dinamik inkişafı elektron təhsilin yaranmasına səbəb olmuşdur. Bununla əlaqədar olaraq təhsil prosesinin inkişafının müasir şərtləri kimi yeni tədris texnologiyalarından istifadə edilir [4]. Bu məqsədlərin reallaşdırılmasında İnternet mühitinin resurslarından geniş istifadə edilir: müəyyən predmet sahəsi üzrə yenilənən tədris saytları, virtual tədris mərkəzləri, virtual mediatekalar, on-line və off-line ünsiyyət. Müasir internet texnologiyaların təsnifatını aşağıdakı kimi vermək mümkündür:

- Distant təhsil texnologiyaları (CASE texnologiyaları, TV texnologiyalar, şəbəkə texnologiyaları);
- İnternet resursları (tədris portalları, rəqəmsal tədris resursları, virtual laboratoriyalar, biliklər bazası, verilənlər bazası, elektron elanlar lövhəsi, elektron kitabxanalar);
- Hipermətn texnologiyaları;
- Virtual reallıq texnologiyaları;
- Telekommunikasiya texnologiyaları (elektron poçt, səsli-görüntülü elektron poçt, forum, çat, skype, telekonfrans, audio konfrans, audioqrafik konfrans, video konfrans, virtual auditoriya lövhəsi).

Elmə, iqtisadiyyata, istehsala tətbiq edilən informasiya proseslərinin intensivləşdirilməsi yeni təhsil modelini, insanın öz yaradıcı potensialını aşkarlayan, bacarıqlarını inkişaf etdirən, müntəzəm özünütəkmilləşdirməyə sövq edən informasiya-təhsil mühiti tələb edir. Yeni təhsil paradiqmasının məqsədi azad və kritik düşüncə tərzinə malik, öz şəxsi təhsil və mədəniyyət səviyyəsini müntəzəm təkmilləşdirə bilən, informasiyalaşmış dünya fəzasına inteqrasiya olunmuş şəxsiyyətlərin tərbiyəsi, təhsili və inkişafını təmin etməkdir. Yeni təhsil modelinin vəzifələri kimi aşağıdakıları qeyd edə bilərik:

- azad və kritik düşüncə tərzinə malik şəxsiyyətin inkişaf şəraitinin yaradılması;
- təhsildə şəxsə yönəlmiş çoxsəviyyəli yanaşmanın təmin edilməsi;
- daimi və müntəzəm olaraq müstəqil təhsilə tələbatin formalaşması;
- istifadəçilərə lazım olan informasiyalara azad müraciətin təmin edilməsi;
- dünyanı dərk etmənin metodoloji və inteqrasiya edilmiş yanaşmasının işlənməsi və tətbiq edilməsi;

– heç bir məhdudiyyət olmadan təhsil alma, müntəzəm olaraq mədəniyyət, təhsil və səviyyənin artırılması imkanlarının təmin edilməsi.

Müasir kompüter texnikasının imkanlarını və telekommunikasiya əlaqələrinin vasitələrini nəzərə alaraq təhsilin müasir modelinin qurulması cəhdlərini etmək olar. Təhsilin müasir modeli dünyanı müxtəlif yollarla fəth etmənin inteqrasiyasını təmin etməlidir. Bununla da azad və dərk edilmiş hərəkətlər üçün insanın yaradıcılıq potensialı açılır və genişlənir, kütləvi təhsilə innovativ proseslərin tətbiq edilməsi genişlənir. Təhsilin müasir modelinin işlənib hazırlanmasındakı problem əlverişli təşkilati formaların tapılması və müxtəlif təhsil səviyyələrində prosesin şəffaflığının saxlanması və inkişaf etdirilməsidir. Təhsil ayrı-ayrı şəxslər və ya qruplar tərəfindən tam olaraq müəyyən edilə bilməz. Məqsədlərin, təhsil proqramları və planlarının təyin edilməsi təhsili təşkil edənlərin, müəllimlərin və tədris alanların birgə yaradıcılıq işi olmalıdır. Digər tərəfdən, təhsilə insan üçün həyatda qarşıya qoyulan məqsəd və məsələlərin prizmasından baxmaq olmaz, şəxsiyyətin inkişafı zamanı onun tələblərini də nəzərə almaq zəruridir.

Təhsilin yeni paradiqmasının xüsusiyyətləri – özünü inkişaf üçün şəraitin yaradılması, qərarların müstəqil verilməsi, məsuliyyətin inkişaf etdirilməsi, tədris fəaliyyətinin fərdi stilinin hazırlanması təhsil alanın şəxsi keyfiyyət göstəricilərindən çox asılıdır. Özünü inkişaf etdirmənin əvəzedilməz şərtləri kimi distant təhsil alan şəxslərdə bu və ya digər səviyyədə görünən müstəqillik, məsuliyyət, təşəbbüs çıxış edir. Distant təhsil müxtəlif faktorların konvergensiyasını özündə əks etdirir. Konvergensiyanın səbəbi özündə texnoloji, iqtisadi, sosial faktorları və elektron təhsilin yeni paradiqmalarını birləşdirir. Onun effektivliyi akademik sektorun, korporativ tədrisin və ömür boyu davam edən təhsilin səviyyəsindən asılıdır [5].

İnformasiya və informasiya iqtisadiyyatının önə keçdiyi informasiya cəmiyyətində istifadəçilərin fərdi şəkildə informasiyaya müraciət etməsi, onu emal etməsi, yeniləməsi, istifadəsi və bununla əlaqədar olaraq informasiya savadının artırılması ilə birlikdə ömür boyu təhsil konsepsiyası da genişləndirilir [2]. Müasir informasiya cəmiyyətinin çoxsaylı istifadəçiləri (şagirdlər, tələbələr, magistrantlar, tədqiqatçılar və s.) informasiya mənbələrinə uzaqdan müraciət etmək imkanı əldə etmək istəyirlər. Bu baxımdan informasiya cəmiyyətində kitabxanalar xüsusi funksiyaya malikdirlər. Çünki informasiyanın toplandığı, aqreqatlaşdırıldığı, paylandığı qurumların əsası kimi müasir kitabxanalar çıxış etməkdədir.




Kitabxanaçılıq anlayışında önəmli dəyişikliklər yaradan İKT kitabxanaların strukturunda, xidmətlərin təqdim olunma formalarında, texniki xidmətlərdə, kitabxana binalarında və kitabxanaçılarda da yeni keyfiyyət xüsusiyyətləri tələb edir. Xüsusən də distant təhsil texnologiyalarının daha geniş yayılması kitabxanaların istifadəçi konsepsiyası və xidmət fəlsəfəsinə bu dəyişikliklərlə paralel olaraq yenidən nəzər salmasına gətirib çıxarmışdır. Hər zaman və hər yerdə mövcud olan kitabxana (*ubiquitous library*) strukturu gələcəyə yönələrək düşünüldüyündə, informasiyanın hər bir şəxs tərəfindən əldə edilə bilməsi və istifadəsinə şəraiti dəstəkləyən "sədsiz kitabxana" zəmini yaradılır [3]. İKT-nin inkişaf sürəti ilə bərabər rəqəmsal dövrdə bu kitabxanaların sahib olduqları xüsusiyyətlər aşağıdakılardır:

– Web texnologiyalara əsaslanması: resurslara İnternet və ya İntranet vasitəsilə müraciət təşkil olunur;
– Vaxt məhdudiyyətinin olmaması: coğrafi məhdudiyyət olmadan 7 gün 24 saat arzu olunan informasiyaya müraciət etmək mümkündür;
– Müxtəlif formatların dəstəklənməsi: istənilən məlumat mətn, pdf, video slayd və ya audio informasiya olaraq əldə edilə bilməlidir;

– Müxtəlif dildə informasiyanın mövcudluğu: kitabxana xidmətləri qlobal ölçüdə təqdim edilərək fərqli mədəniyyət və dilə sahib olan istifadəçilərə xitab edilməsi;
– Qlobal xidmətlərin təklif edilməsi: XXI əsrin kitabxanaları dil, din, irq və cinsiyyət fərqi qoymadan qlobal ölçüdə istifadəçi kütləsinə yönəlməlidir.

Günümüzdə hələ sınaq mərhələsində olan virtual kitabxanalarda virtual reallıq texnologiyası istifadə olunur. Bu yeni quruluşun məqsədi informasiya cəmiyyətinin təqdim etdiyi bütün imkanlardan yararlanaraq məkan və zaman mənasında ənənəvi kitabxanaya getmədən, sanki gerçək bir kitabxanaya getmiş kimi: kataloqun yoxlanması, rəflərin arası ilə gəzişmə, istənilən informasiya mənbəyinin səhifələrinin açılıb oxunması, səsyazmaların dinlənilməsi kimi əməliyyatların virtual mühitdə edilməsini təmin edir.

## ƏDƏBİYYAT

1. *Həsənova N.Ə., İsrafilova E.N. İnformasiya texnologiyaları və sistemləri //Dərs vəsaiti, Bakı - Mütərcim nəşriyyatı 2015, 312 səh.*
2. *Rhode, J. F. (2009). Interaction equivalency in self-paced online learning environments: An exploration of learner preferences.The International Review of Research in Open and Distance Learning, 10(1). Retrieved from http://www.irrodl.org/index.php/irrodl/article/view/603/1179*
3. *Li, L. (2006). Building the ubiquitous library in the 21st century. World Library and Information Congress: 72nd IFLA General Conference and Council. Seul, Korea.*
4. *Красильникова В.А. Информатизация и образование. – 2003. - №4. – С. 21-27*
5. *Təhsildə informasiya kommunikasiya texnologiyaları, Kitabxanaşünaslıq və informasiya (elmi-nəzəri və praktiki jurnal), ISSN 2219-5882, Bakı-2014, №2 (14), səh 79-86*

# ДЕЯТЕЛЬНОСТЬ ЦИФРОВЫХ БИБЛИОТЕК КАК ИНФОРМАЦИОННАЯ СИСТЕМА

ГАСАНОВА Н.А.

***РЕЗЮМЕ***

*В научно исследовательской работе рассмотрены вопросы исследования деятельности цифровых библиотек как корпоративные информационные системы. Отображены особенности современных*

*образовательных технологий и роль цифровых библиотек в применении информационно коммуникационных технологий в образовательную среду. Показаны новые парадигмы электронного образования. Рассмотрена значимость цифровых библиотек в распространении дистанционных технологий.*

***Ключевые слова:*** *Библиотечно информационные системы, информационно коммуникационные технологии, дистанционное образование, современные образовательные технологии, современная модель образования, новые парадигмы образования, цифровые библиотеки.*

## THE WORK OF DIGITAL LIBRARIES AS AN INFORMATION SYSTEM

**HASANOVA N.A.**

***SUMMARY***

*In the research work there are questions about studying of digital libraries as a corporate information system. This paper considered the application of information and communication technologies in education. The new paradigms of E-education were studied. The prevalence of distance learning technologies and the characteristics of the structure shown ubiquitous library.*

***Keywords****: Library information systems, information and communication technology, distance learning, model of modern education, a new paradigm of education, digital library.*

# RESPUBLİKA ELMİ TİBB KİTABXANASI MÜSTƏQİLLİK İLLƏRİNDƏ (1991-2015)

**ZEYNALOVA H.O.**
***Bakı Dövlət Universiteti,***
***Kitabxanaşünaslıq kafedrasının müəllimi***

*Məqalə Azərbaycanda Mərkəzi Elmi Tibb kitabxanasının müstəqillik illərində kitab və informasiya fondunun formalaşması və öz fəaliyyətini inkişaf etdirməsi mərhələlərini öyrənir. Elmi Tibbi Kitabxananın beynəlxalq əməkdaşlığı hesabına müasir xidmət işinin təşkili göstərilir.*

***Acar sözlər:*** *Elmi tibb kitabxanası, kitabxana-informasiya xidməti, səhiyyə, elmi informasiya.*

Respublikamız müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası Elmi Tibb Kitabxanası öz işini bilavasitə müstəqilliyin qarşıda qoyduğu vəzifələrə uyğun qurdu. Müstəqillik respublikanın baş tibb kitabxanası kimi onun qarşısında tibb ədəbiyyatını toplamaq, qoruyub saxlamaq, oxucuların istifadəsinə vermək, bütün səhiyyə işçilərinə və tibb ictimaiyyətinə kitabxana-informasiya xidmətini təşkil etmək, tibbə dair elmi informasiya mərkəzinə çevrilmək vəzifəsi qoymuşdur. Kitabxana bu vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmək üçün bütün imkanlarını səfərbərliyə almışdır.

Doğrudur, müstəqilliyin ilk illərində kitabxana respublikamızda baş verən iqtisadi çətinlik və müharibə şəraiti ilə əlaqədar başqa mədəniyyət müəssisələri kimi böyük çətinliklərlə qarşılaşdı. Kitabxanaya 1983-cü ildə verilən dördmərtəbəli binanın əlindən alınması və maliyyə çətinlikləri kitabxananın işini xeyli ləngitdi. 1990-cı illərin ikinci yarısından başlayaraq kitabxanaya ayrılan maliyyə vəsaitinin tədricən artması kitabxananın oxuculara xidmət işinin təşkilinə müsbət təsir göstərdi. Kitabxana respublikamızda keçirilən tibb islahatlarında yaxından iştirak edir, tibb elminin informasiya mərkəzi rolunu həyata keçirir. Səhiyyə Nazirliyinin həyata keçirdiyi bütün islahatların və tədbirlərin elmi-informasiya bazası kimi çıxış edir.

Hazırda kitabxana özünün bütün potensial imkanlarından uğurla istifadə edərək əhaliyə kitabxana-biblioqrafiya xidmətinin təşkilində yaxından iştirak edir. 2005-ci ildə kitabxana yenicə təmirdən çıxmış, dörd mərtəbəli binaya köçürülmüş və burada oxucular üçün hər bir şərait yaradılmışdır. Elmi Tibb Kitabxanası tibbə və səhiyyəyə aid zəngin kolleksiyanı özündə cəmləşdirən

dövlət kitab saxlayıcısı kimi fəaliyyət göstərir. Eyni zamanda kitabxana informasiya texnologiyalarının işlənməsi və tətbiq edilməsi ilə də məşğul olur.

Respublika Elmi-Tibb Kitabxanasının işi müasir dövrün tələblərinə uyğun aparılır və Azərbaycan Səhiyyə Nazirliyinin elmi tədqiqat işlərinin planına əsaslanır.

Başqa tip kitabxanalarda olduğu kimi, bu kitabxanalarda da biblioqrafik işin əsas istiqamətləri aşağıdakı kimi müəyyən edilir:

- Soraq-biblioqrafiya aparatının təşkili və aparılması;
- müxtəlif məqsəd və oxucu istiqamətinə malik biblioqrafik göstəricilərin tərtibi;
- biblioqrafik informasiya xidməti;
- soraq biblioqrafiya xidməti;
- tövsiyə biblioqrafiya fəaliyyəti;
- məsləhət və metodiki iş;
- biblioqrafik biliklərin təbliği;
- elmi-tədqiqat işi.

Respublika Elmi-Tibb Kitabxanası-biblioqrafik fəaliyyətin təşkilində bu əsas istiqamətləri əldə rəhbər tutmağa çalışır.

2010-cu ildə RETK-nın vahid oxucu bileti üzrə 97 nəfər oxucu, 3541 oxucu gəlişi, 21405 kitab verilişi qeydə alınmışdır. Fond 476.827 nüsxə milli və xarici dillərdə olan kitab, jurnal, avtoreferatlardan ibarət hesablanmışdır. Məzmununa görə əsas fond tibbi elmi fəaliyyətlə və tibbi təcrübə ilə məşğul olan, tibb sahəsində təhsil alan oxucular üçün nəzərdə tutulmuşdur. Bu baxımdan fond əsasən elmi və praktiki tibbi ədəbiyyatdan ibarətdir.

Biblioqrafiya şöbəsi demək olar ki, kitabxana ilə eyni vaxtda yaranmış və kitabxanaya daxil olan nəşrlərin təsvir edilməsi, müxtəlif oxucu sorğuları üzrə biblioqrafik arayışların (şifahi, yazılı, faktoqrafik) tərtibi, müxtəlif səpkili biblioqrafik göstəricilərin (yeni daxil olan ədəbiyyat, mövzu, şəxsi, əlamətdar günlər və s.) tərtibi, soraq-biblioqrafiya, biblioqrafik informasiya, biblioqrafik biliklərin təbliği ilə məşğul olur. Şöbənin daxilində ölkəşünaslıq bölməsi fəaliyyət göstərir. Bölmə kitabxanaya daxil olan respublikamızda çıxan nəşrlərin (kitablar, avtoreferatlar, qəzet, jurnal və elmi toplular məqalələri və s.) təsviri, KBT üzrə indeksasiyası, ölkəşünaslıq sistemli və əlifba kataloquna daxil olunmasını təmin edir. Ölkəşünaslıq sistemli və əlifba kataloqları dil baxımından iki yerə ayrılmışdır: rus və azərbaycan dilləri. Bölmənin üzərinə düşən bir vəzifə müntəzəm olaraq həmin kataloqun redaktə olunması və bu kataloq üzrə oxuculara xidmət göstərməsindən ibarətdir. Şöbə tərəfindən son 10 ildə alınan dövri nəşrlər və fəal fond, eləcə də soraq-informasiya fondu ilə iş aparılmışdır. Fonda daxil olan yeni dövri nəşrlər və ədəbiyyatın qəbulu və qeydiyyatı aparılır. 01.01.2011-cu il tarixində fond 479.252 nüsxə milli və

xarici dillərdə olan kitab, jurnal, avtoreferatlardan ibarət hesablanmışdır. Məzmununa görə əsas fond tibbi elmi fəalliyyəti və tibbi təcrübə ilə məşgul olan, tibb sahəsində təhsil alan oxucular üçün nəzərdə tutulmuşdur. Bu baxımdan fond əsasən elmi və praktiki tibbi ədəbiyyatdan ibarətdir. Kitabxana fondunun komplektləşdirilməsi tematik-tipoloji plan əsasında həyata keçirilir. 2010-cu il ərzində elmi işləmə və kataloqlaşdırma şöbəsi komplektləşdirmə şöbəsindən 2425 nüsxə ədəbiyyat almışdır. Bütün bu nəşrlərin elmi işlənməsi aparılmışdır. Həmin nəşrlər indeksləşdirilmiş, təsvir olunmuş, təsvirlərin dubletləri yazılmış, əlifba, sistemli, "Yeni nəşrlər", "Avtoreferatlar" kataloquna əlavə edilmişdir. Ümumilikdə 2010-cu ildə 15.100 kartoçka təsvir edilmişdir. Şöbədə təsvir olunan kartoçkaların sayı 7.100 nüsxə olmuşdur. Alınan nəşrlərin sayının çox olması ilə əlaqədar olaraq təsvir olunan kartoçkaların sayı da çox olmuşdur. Oxuculara kitabxana-biblioqrafiya biliklərinin aşılanması da biblioqrafiya şöbəsinin, eləcə də xidmət, kataloqlaşdırma şöbələrinin fəaliyyət dairəsinə daxildir. Xüsusilə elmi iş yazan aspirantlar, dissertantlarla daha dərindən iş aparılır, kitabxananın, soraq-axtarış aparatından, soraq-informasiya fondundan düzgün istifadə etmək bilikləri aşılanır. Biblioqrafiya şöbəsinin tərkibinə ölkəşünaslıq bölməsi də daxildir. Bu bölmə alimlərimizin tibb üzrə rus və azərbaycan dillərində dərc olunan əsərlərinin elmi işlənməsi, təsvir edilməsi, işlənmiş kartoçkaların ölkəşünaslıq, əlifba və sistemli kataloquna əlavə edilməsi ilə məşgul olur. Yalnız milli tibb ədəbiyyatı ilə iş aparan, eləcə də sorguları milli ədəbiyyatla əlaqəli olan oxuculara adətən bu bölmənin əməkdaşı yardım göstərir. Şöbə tərəfindən 5 biblioqrafik göstərici tərtib edilmiş və tibb kitabxanaları şəbəkəsinə paylanmışdır. Biblioqrafiya şöbəsində 585 nüsxə jurnal, 287 kitab, 50 metodik vəsait, 185 avtoreferat təsvir olunmuşdur. Təsvir olunan kartoçkaların 7624 kartoçka elmi işlənərək indeksasiya olunmuş və kataloqlara düzülmüşdür.

Daxil olan ədəbiyyat növünə görə:

Kitab-1046 nüsxə

Jurnal-786 (Rus dilində) nüsxə, 35 (başqa xarici dillərdə)

Avtoreferat-188 nüsxə

Dövri nəşrlərə abunəçilik «Qasid» firması vasitəsilə həyata keçirilir.

2009-cu ildə kitabxana 43 adda jurnala, 4 adda qəzetə abunə yazılmış, 100 adda 100 nüsxə ədəbiyyat fonda alınmışdır. 2473 adda 952 nüsxə ədəbiyyat kitabxana fonduna hədiyyə verilmişdir. Onlardan 52 adda/52 nüsxə metodiki vəsait, 188 adda/188nüsxə avtoreferat, 6 adda/6 nüsxə kompakt disklərdir. Bu ədəbiyyat Azərbaycan Respublikası Səhiyyə Nazirliyindən, Milli Onkologiya Mərkəzindən, Azərbaycan Tibb Universitetindən, eləcə də Azərbaycanın elmi-tədqiqat institutları, görkəmli alimləri, həkimləri

tərəfindən hədiyyə verilmişdir. Hər göndərilən kitab bağlamasına ayrıca akt tərtib edilmiş, bu aktların bir nüsxəsi həmin kitabxanalara verilmişdir.

Fondun mühafizəsi, istifadəsinin təşkili ilə bağlı ənənəvi tədbirlər davam etdirilmişdir. Fonddan sifariş üzrə ədəbiyyatın seçilməsi, geri qaytarılan nəşrlərin yenidən rəflərdə öz yerlərinə düzülüşü, kitabsaxlayıcının təmizliyinə nəzarət, lazımi mühafizə qaydalarına riayət olunmasının təşkili və s. bu kimi işlərlə məşğul olur. 2012-ci ildə oxucu sifarişləri üzrə əsas fonddan 21.882 nüsxə ədəbiyyat verilmişdir. Bu ədəbiyyatın içərisində aşağıdakılar vardır:

Monoqrafiyalar - 6761 nüsxə

Elmi məcmuələr - 3420 nüsxə

Jurnallar - 11100 nüsxə

Avtoreferatlar - 128 nüsxə

Qəzetlər - 473 nüsxə

Kitabxananın öhdəsinə düşən ən başlıca vəzifə depozitar fondun yenidən təşkili olmuşdur. Depozitar fondda olan ədəbiyyatın xronoloji baxımdan son dərəcə müxtəlif olduğunu nəzərə alaraq 1802-1930-cu illəri əhatə edən ədəbiyyat arxiv fonduna seçilmişdir. Şöbənin işçiləri tərəfindən arxiv fondunda stellajların düzülüşü, ədəbiyyatın UOT və əlifba üzrə düzülüşü həyata keçirilmiş, fondun formalaşdırılması məsələləri həll edilmişdir. Bununla yanaşı, şöbə kitabxanada nadir nüsxələr fondunun yaradılması ilə də məşğul olmuşdur. Həmin fonda məzmun və format baxımındın uyğun olaraq ədəbiyyat seçilmiş, texniki və elmi bərpası aparılmışdır. 2006-cı ildən başlayaraq cari işlərlə paralel aparılan bu işlər 2009-cu ildə tam sona yetirilmişdir.

Xarici ədəbiyyat şöbəsi də fondun təşkili və mühafizəsi ilə məşğul olur. Xarici ədəbiyyat şöbəsinə məxsus fond ingilis, fransız, alman və s. xarici dillərdə olan dövri nəşrlər və kitablardan ibarətdir. 2013-cü ildə xarici ədəbiyyat fonduna daxil olan nəşrlərin bölgüsü belədir: ÜST materialları-458 nüsxə, CD-6. Bu nəşrlərin 98 nüsxəsi xarici ədəbiyyat şöbəsinin təşəbbüsü ilə aktlaşdırılaraq rayonlarda yerləşən tibb kitabxanalarına hədiyyə verilmişdir. 2008-ci ildən etibarən xarici ədəbiyyat şöbəsində də depozitar fond təşkil edilmişdir. Əsas fond əsasında yaradılan depozitar fond XX əsrin əvvələrində nəşr edilmiş materiallardan ibarətdir. 2013-cü ildə həmin fondun yoxlanması, düzülüşü yenidən aparılmış, mühafizəsinə xüsusi diqqət ayrılmışdır.

Xarici ədəbiyyat şöbəsi tərəfindən də kataloq və kartoteka sisteminin təşkili və təkmilləşdirilməsi sahəsində bir sıra işlər görülmüşdür. 2010-cu ildən kataloqun redaktəsi başlanmış və 2015-ci ildən bərpa olunmuş kataloq və katoteka sistemi oxucuların istifadəsinə verilmişdir. Kataloqun redaktəsi,

bir sıra indeksasiya olunmamış kartoçkaların indeksasiyası, təmizlənməsi və s. bu kimi işlər həyata keçirilmişdir. Bütün kartoçkalar KBT üzrə indeksləşdirilmiş sistemli və əlifba kataloqu üzrə düzülmüşdür. Şöbənin əməkdaşları oxuculara kataloqdan düzgün istifadə edilməsi üçün metodiki yardım göstərmiş, bundan əlavə, qarşıya çıxan bir sıra tərcümə işləri ilə də məşğul olmuşlar.

Xarici şöbənin işçiləri Amerika Mərkəzi ilə əlaqə yaratmış, mərkəzin internet vasitəsilə EBSCO verilənlər bazasından oxucuları maraqlandıran və fondda olmayan yeni tibbi elmi dövri nəşrlərdən istifadə etməyə yardım etmiş və həmin mərkəzlə əməkdaşlıq etmişlər. Daha bir xidmət forması yaxın və uzaq məsafədən elektron resurslarından istifadənin təşkilindən ibarətdir. Kitabxananın kompüter zalı vasitəsilə oxucular internet resurslarından istifadə etmək imkanı əldə etmişlər. Burada çalışan əməkdaşlar onlara adi axtarış saytları ilə yanaşı, xüsusi tibb saytlarından istifadə edilməsində də köməkçi olmuşlar. Kitabxananın bu xidmətindən 155 nəfər oxucu yararlanmışdır.

2011-ci ildə bu şöbənin 110 nəfər oxucusu olmuşdur. Onlardan: elmi işçilər 30, həkimlər 26, tələbələr 54 nəfər olmuşlar. Oxucuların içərisində 1 nəfər xarici vətəndaş da olmuşdur. Şöbənin oxucuları tibbi ədəbiyyatla yanaşı, Ümumdünya Səhiyyə Təşkilatının materiallarına da böyük maraq göstərmişlər. Şöbənin əməkdaşları Ümumdünya Səhiyyə Təşkilatlarının materiallarından ibarət ayrıca bir fond yaratmış, onun texniki və elmi işlənməsi ilə məşğul olmuşlar. Bu şöbədə ənənəvi kitabxana xidməti ilə yanaşı, oxucular üçün bəzi materialların tərcüməsi ilə də məşğul olmuşlar. Oxucuların sifarişi ilə kitabxana əməkdaşları hissə-hissə tərcümələr etmiş, oxuculara yardımçı olmuşlar. Hər il orta hesabla 4 belə tərcümə işi hazırlanıb, oxuculara təhvil verilir.

Azərbaycan informasiya məkanında mühüm rol oynayan RETK-nın xidmət şöbəsi böyük oxu zalı (48 oxucu yeri), ona bitişik növbətçi otağı, kiçik oxu zalı (18 oxucu yeri), son 15 ili əhatə edən dövrü nəşrlər fondu, fəal fond və qeydiyyat otağından ibarətdir.

Təkcə bir ili götürsək, 2009-cu ildə xidmət şöbəsinə 3768 nəfər oxucu gəlmiş, 21882 nüsxə ədəbiyyat verilişi qeydə alınmışdır.(28)

Kitabxanada hər il rədd cavabları ilə iş aparılır və rədd cavablarının verilmə səbəbləri aydınlaşdırılır. 2005-2015-ci illərin hesabatına əsasən demək olar ki, bu illər ərzində cəmi 50-yə qədər rədd cavabı olmuşdur. Rədd cavablarının təhlili aşağıdakı proseslərdən ibarət olmuşdur: kataloq üzrə ədəbiyyat sifarişinin səhihliyinin yoxlanılması, inventar kitabı üzrə, KAA və köhnə borclar üzrə yoxlama, təkrarən rəfdə yoxlama. Yoxlama nəticəsində 4 nüsxə kitabın yoxlamadan keçməməsi, 1 nüsxə yoxlamadan keçsə də, yerində olmaması, 1 nüsxə kitabın inventar kitabında olmaması, 1 nüsxə isə sifarişin

düzgün yazılmaması aşkar olunmuşdur. Jurnallardan 1 nüsxə kitabxanaya alınmamış, 1 nüsxə yerində olmamış, 1 nüsxə isə depozitarda olmuşdur.

Şöbə tərəfindən 2010- cu ildə son 10 ildə alınan dövri nəşrlər və fəal fond, eləcə də soraq-informasiya fondu ilə iş aparılmışdır. Keçən il isə bu fondda olan ədəbiyyat 15 ili, əhatə etmişdir. Şöbənin əməkdaşları tərəfindən 5 ili yəni 1990-1997-ci illəri əhatə edən ədəbiyyat fonddan çıxarılmış və ümumi fonda verilmişdir. Fonda daxil olan yeni dövri nəşrlər və ədəbiyyatın qəbulu və qeydiyyatı aparılır. İl ərzində müntəzəm olaraq xidmət şöbəsinə həvalə edilmiş fondun düzülüşü və yoxlanması həyata keçirilir. 01.01.2010 tarixinə olan son məlumata əsasən, fondda 4048 nüsxə ədəbiyyat var. Bunlardan 805 nüsxə azərbaycan dilində, 3243 nüsxə rus dilindədir. Ümumi kitabsaxlayıcıya 183 nüsxə ədəbiyyat göndərilmişdir. Yeni dövri nəşrlər zalında 3388 nüsxə jurnal vardır ki, onlardan 393 nüsxə azərbaycan dilində, 2995 nüsxə rus dilindədir.

Kitabxanaya il ərzində Azərbaycanın müxtəlif regionlarından tibbi mütəxəssislər müraciət edir. İl ərzində oxucu gəlişi 4000 nəfərə bərabərdir. Burada onların ixtiyarına rahat oxu zalları verilmişdir. 2010-2015-ci illərdə kitabxananın kitab verilişi 23000 vahid nüsxə olmuşdur. Oxuculara xidmət müasir səviyyəli informasiya texnologiyası əsasında aparılır. Burada İnternet vasitəsilə müxtəlif verilənlər bazasına girişi təmin edən iki müxtəlif kompüter zalı fəalliyyət göstərir.

Oxucuların sorğularının tam ödənilməsi məqsədilə kitabxana fondunda olmayan ədəbiyyat kitabxanalararası abonement (KAA) vasitəsilə əldə edilir.

Kitabxananın soraq-biblioqrafiya aparatına 3 milyona yaxın kartoçka daxildir.

Son illər RETK tibb üzrə ədəbiyyatın toplanması, mühafizəsi və istifadəsilə məşğul olan mədəni-maarif müəssisələrindən respublikanın tibb və səhiyyə üzrə həqiqi informasiya və kitabxana xidməti mərkəzinə çevrilmişdir. Kitabxana həm də elmi-tədqiqat fəaliyyəti ilə məşğuldur. Burada müxtəlif səpkili biblioqrafik göstəricilər işlənib hazırlanır.

Kitabxananın fəaliyyət sahəsinə həmçinin biblioqrafik və informasiya materialları əsasında tibb mütəxəssislərinə ən son nailiyyətlər haqqında informasiyanın çatdırılması, informasiyanın seçilib yayılması (İSA), səhiyyə rəhbərlərinə differensial xidmət, «İnformasiya günü», «Mütəxəssis günü» kimi operativ xidmət formalarını müstəqillik illərində də həyata keçirir.

İldən-ilə kitabxana öz xidmət dairəsini genişləndirir. Burada hər il tibb müəssisələri və abonentlərin fərdi sorğuları əsasında ayrı-ayrı məqalələrin surətinin çıxarılması, yazılı və şifahi tərcümələr həyata keçirilir.

Kitabxana ölkənin tibb müəssisələrinin kitabxanalarına təcrübi kömək göstərir və tibb kitabxana işçilərinin peşə səviyyəsinin artırılmasına yardım edir.

Respublika Elmi-Tibb Kitabxanasında aparılan kitabxana işinin əsas vəzifəsini tibb sahəsi üzrə elmi fəaliyyətin və tədris-tərbiyə prosesinin kitabxana təminatı təşkil edir. Bunlar orada aparılan kitabxana işinin əsas funksiyalarını təyin edir. Tibb sahəsi üzrə ali məktəbin, şəbəkəyə daxil olan digər kitabxanaların, aparılan elmi fəaliyyətin kitabxana təminatı elmi informasiya şöbəsi ilə əlaqələndirilir.

Respublika Elmi-Tibb Kitabxanasında 50 nəfər işçi çalışır. Onlardan 22 nəfəri ali təhsilli (ixtisaslı) kitabxanaçı, 15 nəfəri orta ixtisas təhsilli, 13 nəfəri isə qeyri–ixtisas ali təhsilli kadrlardır. Kitabxanada işin təşkilində ilk növbədə həmin kitabxananın tabe olduğu müəssisənin spesifikası, profili nəzərə alınır. Belə ki, tibb sahəsinin özünəməxsus xarakterik xüsusiyyətləri ədəbiyyatın komplektləşdirilməsi və biblioqrafik işin təşkili prosesində əsaslı şəkildə nəzərə alınır.

Son illər kitabxananın fondu əsasən nəqd pulla satınalma və hədiyyə vasitəsilə komplektləşdirilir. Bununla belə, dərslik və dərs vəsaitlərinin sayı az olduğundan, əsas ağırlıq oxu zalına düşür. 2010-cu ildə bu zalın xidmətlərindən istifadə edən oxucuların sayı 8418 nəfər olmuşdur.

Kitabxanada işin səmərəli təşkilində mühüm əhəmiyyət kəsb edən oxucu kontingentinin tərkibi haqqında daha aydın təsəvvür yaratmaq vacibdir.

Məlumdur ki, ayrı-ayrı sahələr üzrə mütəxəssislərə və elmi işçilərə xidməti təkmilləşdirmək üçün onların informasiya tələbatının müntəzəm olaraq öyrənilməsi və alınan nəticələrin praktikaya tətbiqi mühüm əhəmiyyət kəsb edir.

İnformasiya tələbatının subyekti informasiyanı tələb edən ayrı-ayrı şəxs, eləcə də kollektiv ola bilər. Tibb sahəsi üzrə informasiyanın kollektiv tələbatçısı respublikamızın müvafiq müəssisələri hesab olunur. Azərbaycanda tibb üzrə mütəxəssislərin təbabətin ayrı-ayrı sahələri üzrə məşğul olması onları informasiya istifadəçisi kimi qruplaşdırmağa imkan verir. Bu informasiya istifadəçilərini təsnifləşdirən zaman peşə fəaliyyət sahəsi də mühüm rol oynayır. Buna uyğun olaraq tibb üzrə tələbatçıları aşağıdakı qruplara bölmək olar:

Rəhbər işçilər, tədqiqatçılar, ali və orta ixtisas tibb məktəblərinin pedaqoji kadrları, praktiki işçilər, həkimlər, orta tibb işçiləri.

Bu informasiya istifadəçiləri də öz növbəsində tutduqları peşə fəaliyyət sahəsinə görə daha kiçik qruplara bölünürlər. Məsələn, tədqiqatçılar qrupu öz növbəsində tibb sahəsində fundamental tədqiqatlar aparan alim nəzəriyyəçilərə, müxtəlif təcrübələr aparan alim praktiklərə bölünür. Ali və

orta məktəblərdən olan informasiya istifadəçiləri isə öz növbəsində müəllim, tədqiqatçı və laborantlara bölünür. Tibb işçilərini vəzifəyə görə qruplaşdırmaq ən geniş yayılmış təsnifatdır. Bu vaxt tələbatçıları üç qrupa bölürlər:

1. Tibb üzrə elmi-tədqiqat müəssisələrinin direktoru, onun müavinləri, elmi katib.
2. Şöbə, sektor, qrup müdirləri.
3. Elmi işçilər, aspirantlar, magistrantlar.

Kollektiv tələbatçıları təsnifləşdirdikdə, əsasən kollektivin əmək fəaliyyəti tipini, məqsədini, informasiya istifadəçisinin fəaliyyət vəzifələrini və s. nəzərə almaq lazımdır. Belə hallarda tələbatçılar rolunu elmi-tədqiqat müəssisələri, elmi ocaqlar, laboratoriyalar, şöbələr, müəyyən mövzu ətrafında işləyən bir qrup alim oynayır.

Tibb üzrə avtomatldaşdırılmış məlumat axtarış sisteminin mənimsənilməsi mütəxəssislər tərəfindən xüsusilə qiymətləndirilir. Belə ki, bu sistemin köməyi ilə tədqiqatçı ona lazım olan informasiyanı daha dolğun və operativ surətdə alır. Belə olan surətdə tədqiqatçı daha düzgün və tezliklə nəticə əldə edib, onu praktikaya tətbiq edir. Belə hallarda biblioqrafik xidmətin yüksək keyfiyyəti biblioqraifk məlumatlara tələbatı stimullaşdırır, tədqiqatçıda bu məlumatlara qarşı xüsusi maraq yaradır.

Tibb elmi ilə məşğul olan şəxslərdə xarici ədəbiyyata daha çox maraq olur. Tədqiqatlar göstərir ki, yüksək ixtisaslı kadrlar daha çox xarici ədəbiyyatla maraqlanırlar. Tibb sahəsində biblioqrafik informasiyaya olan münasibət xüsusi xarakter daşıyır. Ümumiyyətlə, biblioqrafik axtarış elmi axtarışla əlaqədardır. Tibb sahəsində çalışan tədqiqatçıların maraq və tələbi çox olur. Bu da onunla əlaqədardır ki, bu sahədə çoxlu əsərlər dərc olunur. Belə tələbat yüksək inkişafla əlaqədardır.

RETK-da oxucu marağını dərindən tədqiq etmək üçün oxucu anketləri tətbiq edilməyə başlanmışdır. Bu anketlərin təhlili zamanı həkim-oxucuları narahat edən bir çox məsələlər aydın olmuşdur. "Kataloq və kartoteka sistemindən sərbəst istifadə edə bilirsinizmi" sualına oxucuların 40%-bəli, 60%-xeyr cavabı vermişlər. İnkar cavabı bildirən oxucular kitabxanaçı ilə işləmək arzusunda olduğunu da bildirmişdilər. Anketi dolduran oxuculardan 20%-tələbə, 80%-praktiki və elmi fəaliyyətdə olan həkimlərdir. Əfsus ki, onların içərisində fasiləsiz şəxsi təhsillə məşğul olanlar çox azdır. Oxuculardan "öz arzularınızı bildirin" təklifinə 90%-i yeni ədəbiyyatın çox olması və iş müddətinin uzadılması ilə bağlı istəklərini bildirmişlər. Bu anketlərdə heç bir əməkdaşdan şikayət, narazılıq və s. bildirilməmişdir. Bunun səbəbi əməkdaşların həqiqətən də oxucularla nəzakətli və səbrlə davranmasıdır. Bu məsələ ilə hər şöbə daxilində təlim-tərbiyə işləri aparılarkən rəhbərlik xüsusilə məşğul olur.

Kitabxanaçıların qarşısında duran daha bir məsələ tibbə dair ümumi terminləri, anlayışları bilmək, ölkəmizdə fəaliyyət göstərən tibb və səhiyyə ocaqlarını tanımaq, tibbə dair respublikamızda çıxan dövri nəşrlərdən, tibb və elmlə bağlı çıxan hər bir qərardan xəbərdar olmaqdır. Göründüyü kimi, tibb kitabxanasında iş bir qədər mürəkkəb olsa da, çox maraqlı və rəngarəngdir. Oxucularla daha çox ünsiyyətdə olan şöbələrin (oxuculara xidmət, elmi işləmə və kataloqlaşdırma, biblioqrafiya şöbələri) əməkdaşları bu işin öhdəsindən gəlməyə çalışırlar. Gənc kadrlarla bu istiqamətdə xüsusi işlər də aparılır. Onlar üçün kitabxana daxilində müxtəlif məşğələlər, məsələn, ədəbiyyatın təsviri, ədəbiyyatın UOT və KBT üzrə indeksasiyası, fondun quruluşu və təyinatı, ümumi tibbi terminlərlə tanışlıq və s. keçirilir. Bütün bu tədbirlər oxucuların sistemli və ardıcıl mütaliəsini təmin etmək, bu sahədə oxuculara dəstək olmaqdır.

Respublika Elmi-Tibb Kitabxanası öz fəaliyyətində Azərbaycan Respublikasının müvafiq qanunlarına "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununa, habelə elmi-metodiki rəhbər orqanların materiallarına və tabeliyində olduğu Səhiyyə Nazirliyinin rəhbər göstərişlərinə əsaslanır.

Respublika Elmi-Tibb Kitabxanasının fəaliyyətində tibb sahəsinin özünəməxsus səciyyəvi xüsusiyyəti həm ədəbiyyatın komplektləşdirilməsi, həm soraq-biblioqrafiya aparatının təşkili, həm kitabxananın xidmət prosesində, həm də digər sahələrdə əsaslı şəkildə nəzərə alınır.

Artıq qeyd etdiyimiz kimi, kitabxana işinin məzmunu və vəzifələri kitabxananın tipindən, onun xidmət etdiyi oxucu kontingentindən, yerləşdiyi ərazinin xüsusiyyətlərindən asılıdır. Təşkilati baxımdan ümumi olan cəhətlər hər bir tipdən olan kitabxananın fəaliyyət göstərdiyi şəraitə uyğun olaraq konkretləşir. Kitabxana fondunun tərkibi və həcmi, idarə tabeliyi, müasir texniki vasitələrdən, yeni texnoloji proseslərdən istifadə və digər bu kimi amillər kitabxana işinin təşkilinə, məzmununa və həcminə əhəmiyyətli dərəcədə təsir göstərir.

## ƏDƏBİYYAT

1. *Azərbaycan Respublikasının Konstitusiyası: 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələrlə). B.: Qanun, 2004, 48 s.*

2. *"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan, 1999, 14 mart.*

3. *"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"//Bakı, Respublika qəz., 2008, 7 oktyabr.*

4. *"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu //Azərbaycan Respublikası Qanunvericilik toplusu, 1998, №6, s. 1214-1222*

5. *Xələfov A.A. Cəmiyyətin informasiya təminatında kitabxanaların tarixi rolu //BDU-nun Xəbərləri: Humanitar elmlər seriyası. B.,1999, №4, s.221-227.*

6. *Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri //Respublika, 2002, 17 aprel.*

7. *Pirəliyeva Y. ADRETK-da oxucularla işin spesifik xüsusiyyətləri //Kitabxanaşünaslıq və biblioqrafiya. 2008, №2,s.110-113.*

8. *Respublika Elmi-Tibb Kitabxanasının hesabatları. 1990-2015.*

9. *www.sehiyye.gov.az*

10. *www.anl.az*

11. *azdretk.ucoz.net.*

## РЕСПУБЛИКАНСКАЯ НАУЧНАЯ МЕДИЦИНСКАЯ БИБЛИОТЕКА В ГОДЫ НЕЗАВИСИМОСТИ

**ЗЕЙНАЛОВА Х.О.**

***РЕЗЮМЕ***

*Статья рассматривает формирование Республиканской Научной Библиотеки в годы независимости, создание новых международных контактов с целью содержательной комплектации библиотечного фонда, обеспечение качественного обслуживания специалистов. Оценивается уровень обслуживание специалистов соответственно международным нормам.*

***Ключевые слова:*** *Республиканская Научная Медицинская Библиотека, библиотечное информационное обеспечение, научная информация, здравоохранение.*

# REPUBLICAN SCIENTIFIC MEDICAL LIBRARY DURINQ THE YEARS OF INDEPENDENCE (1991-2015)

**ZEYNALOVA H.O.**

***SUMMARY***

*The article explores the staqes of the Central Science Medical Library is formation in Azerbaijan durinq the years of independence and the development of its own book and information fund. The orqanization of the modern service is provided by the international cooperation of the Scientific Medical Library.*

***Key words:*** *Scientific medical library, library information service, health, scientific information*

# ELMİ KİTABXANALARDA İNFORMASİYALAŞDIRMANIN İNKİŞAF PERSPEKTİVLƏRİ

**ŞİRİNOV C.R.**
**Bakı Dövlət Universiteti, Kitabxanaşünaslıq kafedrası, müəllim**
csirinzade@mail.ru

*İnformasiyalaşdırma – informasiya-kommunikasiya texnologiyalarını (İKT) tətbiq etməklə istifadəçilərin informasiya tələbatlarının ödənilməsi üçün optimal şəraitin yaradılması daha da aktual məsələyə çevrilir. Bu prosesdə ilkin olaraq informasiyanın toplanması, emalı, onun saxlanması və analizi üçün böyük işlərin görülməsi zəruridir. İstənilən sahədə rasional həll yollarının tapılması böyük həcmdə informasiyanın emalına əsaslanır, bu isə xüsusi texniki vasitələr cəlb olunmadan praktiki olaraq qeyri-mümkündür.*

***Açar sözlər:*** *informasiyalaşdırma, informasiya kommunikasiya vasitələri, ən müasir texnologiyalar, bulud texnologiyası*

XXI əsrdə kitabxanalar və kitabxana işi böyük islahatlar aparmağa məcbur qaldı. Kitabxanalar və kitabxana işi qarşısında yenilikləri, innovasiyaları öyrənmək, ümumiləşdirmək vəzifələri qoyuldu. Zamanın tələbinə müvafiq informasiya texnologiyasının kitabxana işinə tətbiqi, kitabxana işinin informasiyalaşdırılması, komputerləşdirilməsi, elektron ktabxanaların, kataloqların, fondların yaradılması, kitabxanaların elektron vasitələrlə: elektron kitablarla, elektron daşıyıcılarla, müxtəlif elmi məsələləri əks etdirən disklərlə və s.-lə təchiz edilməsi və bütün coğrafi sərhədləri aşan internetdən istifadə edilməsi kitabxanaların strukturunda olduqca ciddi radikal dəyişikliklər yaratdı. Ən müasir texnologiyaların kitabxanalarda tətbiq edilməsi kitabxana sahəsində mövcud olan və həlli çətin olan məsələlərin həll olunmasına dəstək olacaq. Bu texnologiyalara misal olaraq ekspert sistemlərini, bulud texnologiyasını, sual-cavab sistemini və s.-i göstərmək olar.

Ekspert sistemlər - konkret predmet sahəsində mütəxəssis biliklərini özündə əks etdirən və az kvalifikasiyalı istifadəçilərə qərara gəlməkdə məsləhətçi olan mürəkkəb kompleks proqramlardır. Konkret predmet sahəsinin bir və ya bir neçə eksperti qarşılıqlı əlaqədə olaraq məsələnin həlli üçün lazım olan proseduru, strategiyanı, empirik qaydaları əldə edir və bu bilik əsasında ekspert sistem (ES) yaradırlar. “ES-in əsasını ekspert bilikləri təşkil edir. ES-in nüvəsini biliklər bazası təşkil edir. BB ES-in yaradılması prosesində toplanan ekspert biliklərdən təşkil olunur.” Biliyin yığılması və təşkili ES-in ən vacib cəhətlərindən biridir. Əldə olunmuş biliklər müəyyən qaydalar formasında ifadə olunmaqla biliklər bazasını əmələ gətirirlər. Bu

biliklərin qaydalar şəklində formalaşmasında biliklərin aşağıdakı təsvir modellərindən istifadə olunur:

Biliklər bazası bir neçə bilik sahəsini əhatə edən strukturlaşdırılmış informasiyaları təşkil edir. Bəzi predmet sahəsində biliklər bazası və istifadəçi tərəfindən vəziyyətin təsvirinə əsaslanan problemin həllinin axtarışında tətbiq olunur. Ekspert sistemlərinin hazırlanması digər proqram təminatlarının hazırlanmasından fərqlənir.

Sual-cavab sistemi (SC) - informasiya sistemi olub sualları qəbul edir, daha sonra isə adi dildə onları cavablandırır. Müasir sual-cavab sistemi sualların təsnifatı modulunu özündə birləşdirir, yəni sualın tipini və müvafiq olaraq da cavabı müəyyələşdirir. Daha sonra sistem analizi lazımsız informasiyaları çıxmaqla, verilmiş sənədlərə tətbiq edir. Suallar müəyyən kontekstdə verilir. Belə ki, sistem sualları bir neçə mənada və istifadəçinin sonradan daxil etdiyi suallar əsasında araşdırb dəqiqləşdirir. Dəqiq suallara dəqiq cavab verilir. Məsələn: Adlar, ölçü, tarix və s. tipli sualların dəqiq cavabı var. Mürəkkəb suallarda isə müxtəlif sənədlərdən "cavabların birləşdirilməsi" alqoritmindən istifadə olunur. Bəzən SC sistemi tərəfindən tapılan cavablar mənaca tam ödənilmir. Bu zaman istifadəçi dialoq rejimindən istifadə edərək sualı proqrama "izah" edə bilər.

Elmi kitabxanaların informasiyalaşdırılması prosesini həyata keçirən texnologiyalardan biri bulud texnologiyalarıdır. Bulud texnologiyası – istifadəçilərin lokal mövqelərində hər hansı bir proses, proqram, verilənlərin daxil edilməsi və ya servis infrastrukturu lazım olmadan alınacaq xidmətin təmin olunmasını əhatə edən informasiya xidmətidir. Bu zaman istifadəçi heç bir infrastruktur yaratmadan istədiyi xidmətdən istifadə edə bilər. Bulud texnologiyası verilənlərin açıq şəkildə paylanması kimi başa düşülür və qurğular arasında ortaq informasiya mübadiləsini təmin edən xidmətlərə verilən ümumi addır. Bulud texnologiyası bir xidmətdir. Burada əsas məqsəd informasiya şəbəkəsi üzərindən istifadə edilməklə mövcud informasiya xidmətinin kompüterlər və digər qurğulardan məlumatların mübadiləsini təmin etməkdir. Bu zaman sərt disklərin yerinə onlayn buludlar olacaq. Bu, sistemlərdə heç bir infrastruktur hazırlamadan tamamilə onlayn şəbəkə vasitəsilə funksional tətbiqlərdən istifadə etmək deməkdir. İnformasiya mübadiləsini təmin edən müəssisələrdə bulud texnologiyasının önəmli bir mövqeyə gələcəyi və tətbiqi proqnozlaşdırılır. Yeni infrastruktur yaratmaq üçün əlavə vaxt və xərc tələb olunur ki, bu texnologiya onlayn rejimdə real zamanda əməliyyat apara bilməklə bu problemləri həll etmiş olsun. Bu, internetlə birlikdə məsafədən asılı olmayaraq, öz fayl və ya informasiyalarımızı əldə etmək və onlarla işləməyə bilmək üçün bir texnikadır. Bu sistem sayəsində proqramlarla həyata keçirilən bir çox

texnoloji əməliyyat artıq internet üzərindən virtual olaraq həyata keçirilir. Bulud texnologiyasına misal olaraq elektron poçtları göstərə bilərik. Biz elektron poçtla işləyərkən göndərdiyimiz məktubların saxlanılması, sıralanması və s. ilə məşğul omuruq. Bizə maraqlı olmur ki, bizim məktublar harada saxlanacaq, nüsxələmə işi necə aparılacaq. Əslində bütün bunlar bizə maraqlı deyil. Onların saxlanılmasıını, nüsxələnməsini, həmçinin maddi xərcləri və s.-i şirkətlər fikirləşir. Bütün bu əlavə işlərdən azad olmaq bizi daha konkret işlərlə məşğul olmaq imkanı verir.

## ƏDƏBİYYAT

*1. Taylor, Richard and Bin Zhang. Measuring the impact of ICT: Theories of Information and Development. (2007). Retrieved October 10, 2011*
*2. David Chappell. A short introduction to cloud platforms. 2008 p*
*3. https://az.wikipedia.org/wiki/İnformasiyalaşdırma*

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ИНФОРМАТИЗАЦИИ В НАУЧНЫХ БИБЛИОТЕКАХ

**ШИРИНОВ ДЖ.Р.**

***РЕЗЮМЕ***

*В статье рассматриваются перспективы развития информатики в научных библиотеках.*

***Ключевые слова:*** *информатизация, средства коммуникационных информации, современные технологии, облачные технологии*

## PROSPECTS OF DEVELOPMENT OF INFORMATIZATION IN SCIENTIFIC LIBRARIES

**SHIRINOV.J.R.**

***SUMMARY***

*The article deals with the prospects of information development in scientific libraries.*

*Key words: Informatization, information communication means, modern technologies, cloud technology*

## M Ü N D Ə R İ C A T

| | | |
|---|---|---|
| **XƏLƏFOV A.A.** | **Azərbaycan Xalq Cümhuriyyəti dövründə kitabxana işi (1918-1920-ci illər)..........................** | **8** |
| | **Kitabxanaşünaslıq kafedrası üzrə 2017-ci ildə elmi-tədqiqat işlərinin yerinə yetirilməsi haqqında HESABAT............................................** | **24** |
| **QURBANOV A.İ.** | **İnformasiya cəmiyyəti və ali kitabxanaçılıq təhsilinin informasiyalaşdırılması........................** | **43** |
| **ƏHMƏDOV E.Y.** | **Uşaq və gənclərin müasir sorğuları və informasiya təminatı............................................** | **48** |
| **MƏMMƏDOV M.Ə.** | **Respublika Patent Fondunda sənədlərin komplektləşdirilməsi və məlumat sistemlərinin təşkili...................................................................** | **57** |
| **KAZIMİ P.F.** | **Müasir informasiya cəmiyyətində Türk Milli Kitabxanalari (tarixi, müasir vəziyyəti və inkişaf istiqamətləri)............................................** | **70** |
| **İSMAYILOVA N.N.** | **Kitabxanalarda informasiya kommuniksiya texnologiyaları vasitəsilə oxuculara xidmətin təşkili....................................................................** | **80** |
| **HƏSƏNOVA N.Ə.** | **Rəqəmsal kitabxanaların nformasiya sistemi kimi fəaliyyəti........................................................** | **88** |
| **ZEYNALOVA H.O.** | **Respublika Elmi Tibb Kitabxanası müstəqillik illərində (1991-2015)..............................................** | **94** |
| **ŞİRİNOV C.R.** | **Elmi kitabxanalarda informasiyalaşdırmanın inkişaf perspektivləri............................................** | **105** |

## С О Д Е Р Ж А Н И Е

| | | |
|---|---|---|
| **ХАЛАФОВ А.А.** | **Библиотечное дело в Азербайджане в эпоху Азербайджанской Демократической Республики (1918-1920 гг.)....................................** | **8** |
| | **Информационный отчёт научно-исследовательских работ кафедры Библиотековедение на 2017 год............................** | **24** |
| **КУРБАНОВ А.И.** | **Информационное общество и информатизация высшего библиотечного образования……………………………………….** | **43** |
| **АХМЕДОВ Э.Ю.** | **Современные запросы и информационное обеспечение детей и молодежи ………………...** | **48** |
| **МАМЕДОВ М.А.** | **Комплектация документов и организация информационных систем в Республиканском Патентном Фонде……………………………..** | **57** |
| **КАЗЫМИ П.Ф.** | **Туркские Национальные Библиотеки в соременном информационном обществе (история, соременное состояние и тенденции развития)……………………………………….** | **70** |
| **ИСМАИЛОВА Н.Н.** | **Организация обслуживания читателей в библиотеках посредством информационно-коммуникационных технологий……………….** | **80** |
| **ГАСАНОВА Н.А.** | **Деятельность цифровых библиотек как информационная система ……………………..** | **88** |
| **ЗЕЙНАЛОВА Х.О.** | **Республиканская Научная Медицинская Библиотека в годы независимости……………** | **94** |
| **ШИРИНОВ ДЖ.Р.** | **Перспективы развития информатизации в научных библиотеках……………………......** | **105** |

# C O N T E N T S

| | | |
|---|---|---|
| **KHALAFOV A.A.** | **Librarianship in Azerbaijan during the period of Azerbaijan Democratic Republic (1918-1920-s years)……………………………………** | **8** |
| | **Report on the fulfillment of scientific research works in the Library science department in 2017…………………………………………...** | **24** |
| **GURBANOV A.I.** | **İnformation society and informatization of higher library education……………………….** | **43** |
| **AHMEDOV E.Y.** | **Contemporary requests and information support for children and youth……………….** | **48** |
| **MAMMADOV M.A.** | **Acquisition of documents and organization of information systems in the Republican Patent Fund……………………………………………** | **57** |
| **KAZIMI P.F.** | **Turkish National Librarys in the performance information society (history, current state and development trends)……………………………** | **70** |
| **ISMAILOVA N.N.** | **Providing service to readers through information and communicatioon technology in libraries ……………………………………..** | **80** |
| **HASANOVA N.A.** | **The work of digital libraries as an information system ………………………………………..** | **88** |
| **ZEYNALOVA H.O.** | **Republican Scientific Medical Library durinq the years of independence (1991-2015)………** | **94** |
| **SHIRINOV.J.R.** | **Prospects of development of informatization in scientific libraries……………………………….** | **105** |

## M Ü Ə L L İ F L Ə R İ N   N Ə Z Ə R İ N Ə !

***"Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalının redaksiyasına təqdim edilən elmi məqalələr göstərilən qaydalar əsasında tərtib edilməlidir:***

***1) Format – A4; Sətirlərarası interval – 1,0;***
***Yuxarıdan 2,5 sm; Aşağıdan 2,5 sm; Soldan 3,5 sm; Sağdan 1,5 sm.***
***Məqalələrin həcmi 1 çap vərəqindən artıq olmamalıdır.***
***2) Şrift dəsti:***
***Azərbaycan dilində – Times New Roman***
***İngilis dilində – Times New Roman***
***Rus – Times New Roman***
***Şriftlərin ölçüsü 12 (Word 2003).***
***3) Hər bir elmi məqalənin ingilis və rus dillərində xülasələri olmalı, burada məqalənin ingilis və rus dillərində adı da öz əksini tapmalıdır.***
***4) Elmi məqalələr və xülasələr kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunmalıdır. Disklər geri qaytarılmır.***
***5) Müəllif haqqında aydın məlumat verilməkli, ad, ata adı, soyad açıq yazılmalı, işlədiyi və ya oxuduğu müəssisənin adı tam şəkildə yazılmalıdır.***
***6) Hər bir elmi məqaləyə 2 mütəxəssis rəy verməlidir.***

*Nəşriyyat redaktoru:*
***Nigar İsmayılova***

*Kompüter tərtibatı və dizayn:*
***Aygün Əliyeva***

*Jurnal Azərbaycan Respublikası*
*Ədliyyə Nazirliyində qeydə alınmışdır.*
*Şəhadətnamə № 3135. 16.03.2010.*

*Jurnal "Mütərcim"*
*Nəşriyyat-Poliqrafiya*
*Mərkəzində*
*çap olunmuşdur.*

*Yığılmağa verilmişdir: 15.10. 2017.*
*Çapa imzalanmışdır: 15.12. .2017.*
*Formatı 70x100⅛*
*Həcmi 7 ç.v.*

---

*Az 1014, Bakı, Rəsul Rza küç., 125*
*596 21 44; 497 06 25; (055)715 63 99*
*e-mail: mutarjim@mail.ru*
*www/mutercim.az*